# Xalq qəzeti

Xalqın qəzeti!

№ 212 (30328) 30 sentyabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqaæ ti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Bizim səbrimizlə oynamasınlar. Biz səbirliyik, ancaq qətiyyətliyik. Biz haqlı olduğumuzu sübut edə bilirik və edirik. Ona görə yox ki, bizim gücümüz var, çünki haqq-ədalət bizim tərəfimizdədir.**

# Böyük Qayıdışın "ağıllı" akkordları

## Zəngilanda II Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi



**Sentyabrın 29-da BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

*(ardı 2-ci səhifədə)*

## Ermənistan və havadarları Qranada sammitinə qarşı

### *İrəvanın sülhdən uzaq ritorikası revanşist və şovinistləri hərəkətə gətirir*

**Belə görünür, Ermənistan və havadarları Qarabağ avantürasına, qətiyyən, ara vermək niyyətində deyillər. Bölgədəki separatçı rejim "fəaliyyətini" dayandırdıqdan sonra avantürizm özünün, belə demək mümkünsə, niskil dövrünə qədəm qoyub. Bu mənzərəni isə Qarabağda yaşanan erməni köçü tamamlamaqdadır. Bir sözlə, hazırda Ermənistandakı siyasi böhranla qondarma "Dağlıq Qarabağ Respublikası"nın yası və haqqında söz açdığımız köç karvanı bir-birinə çulğalaşmaqdadır. Bütün bunlar nəyə mənfi təsir göstərir? Əlbəttə ki, Azərbaycanla Ermənistan arasındakı sülh prosesinə.**



Bəli, Ermənistan parlamentinin spikeri Alen Simonyan Avropa Şurasının tədbirində əlində Qarabağdan gedən köç karvanının şəklini nümayiş etdirib Azərbaycan əleyhinə antipatiya yaratmaq yolu tutursa, deməli, İrəvan obyektivlikdən uzaqdır, özünün destruktiv dəst-xəttinə sadiqdir. Ancaq bu xəttə "sadiqlik" göstərən yalnız Simonyan deyil. Hazırda baş nazir Nikol Paşinyana gücü çatmayanların, onu devirməyə çalışıb istəklərinə nail ola bilməyənlərin hamısı ölkəmizə, necə deyərlər, süngü çəkməkdədirlər. Belələrinin Avropada da "aktivləşməsi" hiss edilməkdədir. Bildirdiyimiz kimi, məqsədləri birdir: Bakı-İrəvan sülh prosesini əngəlləmək.

*(ardı 5-ci səhifədə)*

## Eynəyinizi silin, cənablar!



**Xankəndidə əvvəlki qanunsuz "dövlət quruluşundan" əsər-əlamət qalmayıb. Otuz ilin separatçıları ya həbs edilir, ya da özləri könüllü şəkildə Azərbaycanın hüquq-mühafizə orqanlarına təslim olurlar. Rəsmi Bakı Qarabağda qalıb yaşamağı qərarlaşdırmış erməni sakinlərini işıq və qazla təmin edib, onlara yanacaq, ərzaq, dava-dərman göndərir. Azərbaycan hökuməti bütün bu işləri yerli qanunvericiliklə yanaşı, həm də beynəlxalq norma və qaydalara uyğun şəkildə həyata keçirir. Yəni bizim Qarabağ iqtisadi rayonumuzda nə humanitar böhrandan, nə sakinlərin hüquq və təhlükəsizliyinə təhdiddən, nə də ki, ələlxüsus, hansısa etnik təmizləmədən söhbət gedə bilər.**

Bölgənin geosiyasi və humanitar mənzərəsini kökündən dəyişmiş hadisələrin fonunda ABŞ Dövlət Departamentinin rəsmisi artıq mövcud olmayan "Dağlıq Qarabağa" müstəqil beynəlxalq missiyanın göndərilməsi zərurətindən danışır. Buna nə ad vermək olar? Okeanın o tayında əyləşib Cənubi Qafqazı əyri güzgüdə müşahidə edən millerlərə, yaxud təyyarənin tərli illüminatorundan bölgəni seyr edənlərə reallığı necə göstərək, başa salaq? Bəlkə, onları Beynəlxalq Qırmızı Xaç Komitəsinin hesabına Xankəndiyə dəvət edək? Gəlsinlər, getsinlər Hadrutu, Ağdərəni, Martunini, Xocalını gəzsinlər, vəziyyətlə birbaşa yerində tanış olsunlar və qayıdanbaş gördüklərini olduğu kimi şeflərinə ərz eləsinlər.

*(ardı 4-cü səhifədə)*



## Erməni vandalizminin yaraları sağaldılır

**30 il davam edən işğal dövründə Ermənistan ölkəmizin 9 şəhər və yüzlərlə kəndini qəsdən dağıdıb, çoxsayda mədəni və dini abidələri yer üzündən silib, tariximizin bu yadigarlarını urbisid və kultursidə məruz qoyub.**

İkinci Dünya müharibəsindən sonra şəhərlərin belə bir miqyasda dağıdılması dünyanın heç bir yerində nəzərə çarpmayıb. Erməni faşizmi bu ərazilərdə əsrlər boyu yaşayan xalqımızın izini silməyə çalışıb, Ağdamı "Qafqazın Xirosiması"na çevirib. Füzuli şəhəri işğaldan azad olunanda Azərbaycan Ordusu orada üzərində bayrağımızı dalğalandırmaq üçün bir salamat bina belə tapa bilməyib. Düşmən işğalı zamanı yaşayış sahələrimizdə 67 məsciddən 65-i yerlə-yeksan edilib, qalan ikisinə ciddi zərər vurulub, qəbiristanlıqlar isə təhqir olunaraq dağıdılıb.

*(ardı 8-ci səhifədə)*

## Ermənistan siyasi qarşıdurma məngənəsində

**Ermənistanda onsuz da gərgin olan daxili ictimai-siyasi vəziyyət sentyabrın 19-20-də Azərbaycan Ordusunun yüksək peşəkarlıqla həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra daha da ağırlaşıb. Çünki antiterror tədbirləri nəticəsində Azərbaycan qarşıya qoyulan hədəflərə nail oldu, bütün kommunikasiyalar, yollar, yüksəkliklər nəzarətə götürüldü.**



Sentyabrın 28-də isə 1990-cı illərin əvvəllərində Azərbaycanda mərkəzi hakimiyyətin zəifliyindən, ölkədəki başıpozuqluqdan, anarxiyadan istifadə edərək torpaqlarımızda yaradılan separatçı rejim bütün "strukturların" buraxıldığını və 2024-cü il yanvarın 1-dək mövcudluğunu dayandıracağını bəyan etdi. Beləliklə, 44 günlük Vətən müharibəsindən sonra ərazi bütövlüyünü bərpa edən Azərbaycan sentyabrın 19-20-də bütün ərazilərində suverenliyini tam şəkildə yerinə yetirdi.

Bütün bunlar qeyd etdiyimiz kimi, Ermənistan daxilində ictimai-siyasi vəziyyətin pisləşməsinə səbəb olub. Üstəlik, nəzərə almaq lazımdır ki, sentyabrın 17-də İrəvan şəhər ağsaqqallar şurasına seçkilər keçirilib. Ermənistan paytaxtını kollegial qaydada idarə edən 65 üzvdən ibarət şuraya seçki ermənilər üçün ona görə əhəmiyyətli idi ki, daha çox yer qazanan siyasi partiya sonradan şəhər merinin kim olacağını müəyyənləşdirir. Baş nazir Nikol Paşinyanın hakim "Mülki müqavilə" partiyası seçkilərdə qalib gələ bilməyib. Səsvermə bülletenlərinin hamısı sayılandan sonra onun partiyasının 32,5 faiz səs əldə etdiyi məlum olub. Seçkilərdə iştirak faizi isə cəmi 28,4 faiz təşkil edib ki, bu da paytaxt meri seçkiləri tarixində ən aşağı göstəricidir.

*(ardı 6-cı səhifədə)*

## İşçi qrupun üzvlərinin oktyabrın 2-də Xankəndiyə səfəri nəzərdə tutulub

Səhifə ⇨ 8

## Azərbaycan "Regional iqtisadi perspektivlər"in önündə

Səhifə ⇨ 7




## Dünya "Bir kəmər, bir yol"a qoşulur



Səhifə ⇨ 7

## Kinomuzda ilk uşaq qəhrəmanları

Səhifə ⇨ 10

# Böyük Qayıdışın “ağıllı” akkordları

(əvvəli 1-ci səhifədə)

## Prezident İlham Əliyevin çıxışı

- BMT-nin Məskunlaşma Proqramının hörmətli icraçı direktoru.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Zəngilana xoş gəlmisiniz. Sizi burada - Azərbaycanın qədim bölgəsində, Şərqi Zəngəzurda salamlayıram. Bu gün bu region Azərbaycanın bütün Qarabağ bölgəsi kimi, sıfırdan yenidən inşa edilir.

İlk olaraq bütün qonaqlarımıza təşəkkürümüzü bildirirəm. Bu gün burada 53 ölkədən qonağımız var. 200-ə yaxın xarici qonaq və ümumilikdə 400 iştirakçı bu gün bizimlədir. Bu, bizim ikinci Azərbaycan Milli Şəhərsalma Forumumuzdur, bizim dostluğumuzun təzahürüdür. Bizim birgə marağımızın təzahürüdür ki, işğal dövründə tamamilə dağıdılmış əraziləri yenidən inşa edək.

Xüsusi olaraq, xanım icraçı direktora təşəkkür etmək istəyirəm ki, bizim təşəbbüsləri daim dəstəkləyib, şəhərsalma ilə bağlı dəyərli tövsiyələrini verib və verir. Biz sıfırdan yeni şəhər və kəndlər inşa edirik. Ona görə də burada müasir texnologiyalar tətbiq etməliyik ki, bununla da keçmiş köçkünlərimizə ən yaxşı şərait yaradaq. Onların bir hissəsi artıq qayıdıbdır.

Ötən il biz birinci Şəhərsalma Forumunu Ağdam şəhərində keçirmişdik. Həmin şəhər də sıfırdan inşa edilir, çünki o, işğal dövründə darmadağın edilmişdir.

Zəngilan azad olunmuş ərazilərin ilk bölgəsidir ki, artıq burada keçmiş məcburi köçkünlər evlərinə qayıdıb. Ağalı “ağıllı kəndi”nə, - burada videoda da siz onu gördünüz, - ötən bahar aylarında həyat qayıdıb. Orada sakinlər xoşbəxt yaşayırlar. Mən Ağalı kəndində dəfələrlə olmuşam - sakinlərin qayıdışından əvvəl və sonra. Mən onun şahidi oldum ki, oraya qayıdan insanlar öz köklərinə nə dərəcədə bağlıdırlar. Heç zaman öz vətənini görməyən gənc nəsil qayıdıb. Bu, onu nümayiş etdirir ki, Azərbaycan xalqı öz köklərinə necə dərindən bağlıdır. Bütün keçmiş məcburi köçkünlər səbirsizliklə gözləyirdilər ki, bizim torpaqlar azad edilsin və onlar qayıtmaq imkanına malik olsunlar. Onlar bu imkandan 30 il ərzində Ermənistan tərəfindən məhrum edilmişdi. Ancaq üç il əvvəl biz bu işğala son qoyduq.

Bu gün Zəngilan beynəlxalq tədbirə ev sahibliyi edir. Bu, yenidən inşa edilmiş Konqres Mərkəzi dünən açılıb. Təkcə bu bina deyil, Zəngilanın müxtəlif istiqamətlərində fəal işlər gedir. Dediyim kimi, ilk “ağıllı kənd” Zəngilan rayonunda yerləşir. Bu şəhərin Baş planı artıq təsdiq edilib. Biz infrastruktura böyük vəsait ayırmışıq, bir neçə yaşayış layihəsi icra edilməkdədir. 2025-ci ildə, ola bilər bir az da tez, Zəngilan şəhərinin ilk sakinləri qayıdacaqlar.

Biz Zəngilanı mühüm nəqliyyat qovşağı hesab edirik, çünki onun coğrafi mövqeyi bunu labüd edir. Zəngilan nəqliyyat dəhlizləri üzərində yerləşir və ona görə Zəngilan Beynəlxalq Hava Limanının inşası da bu bölgənin inkişafı baxımından mühüm faktor olmuşdur. O, insanlar üçün asan çıxışı təmin edəcəkdir. Gələcəkdə isə, əminəm ki, Zəngilanda xarici turistlərin sayı çox olacaqdır. Çünki bu bölgə Azərbaycanın ən gözəl guşələrindəndir. Meşələri, çayları, gölləri və misilsiz ekosistemi olan Zəngilan bizim ən böyük sərvətimizdən biridir. Əminəm ki, vaxt keçdikcə bu, turistlər tərəfindən ən çox sevilən bölgə olacaq.

Zəngilan Beynəlxalq Hava Limanı azad olunmuş ərazilərdə inşa edilmiş ikinci hava limanıdır. Üçüncüsü isə hazırda Laçında inşa edilir və iki il ərzində o hava limanı da istifadəyə veriləcək.

Eyni zamanda, biz sovet dövründə mövcud olan dəmir yolu xəttini bərpa edirik. Çünki işğal dövründə həmin dəmir yolları Ermənistan qüvvələri tərəfindən sökülüb. Bu gün Horadizdən Zəngilana çəkilən dəmir yolunun inşası fəal fazadadır və tezliklə bu nəqliyyat dəhlizinin bu mühüm hissəsi hazır olacaq. Bu, Azərbaycanın əsas ərazisini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək layihədir. Oradan isə həmin dəmir yolu İran və Türkiyəyə keçəcək və nəhayət Avropaya çatacaq. Tezliklə biz bu layihəni istifadəyə verəcəyik. Yəni, Zəngilan çox vacib nəqliyyat mərkəzi olacaq. Dəmir yolu xətləri, hava limanı - bu gün bu istiqamətdə altı və dörd zolaqlı avtomagistrallar inşa edilir. Paytaxt Bakıdan bütün bu istiqamətlərdə 2000 kilometrdən çox yeni magistral yollar inşa olunur. Yəni bu, irihəcmli tikinti layihələridir və azad olunmuş hər bir rayon xüsusi Baş plana malikdir.

Biz Zəngilanda təkcə pilot yaşayış layihəsi deyil, həmçinin pilot kənd təsərrüfatı layihəsi həyata keçiririk. “Dost Aqropark” adlanan bu layihə Azərbaycan və Türkiyə şirkətlərinin birgə müəssisəsidir və həmin aqropark artıq fəaliyyətdədir. Hesab edirəm ki, Zəngilan gələcəkdə Azərbaycanın qida təhlükəsizliyinə töhfə verəcək. Artıq 6000 baş anqus cinsindən olan qaramal idxal edilib, onların sayı 10 minə çatdırılacaq. Burada, Laçın və Kəlbəcərdə də böyük yaşıllıq ərazilər var və hər zaman, keçmişdə də bu ərazidə maldarlıq inkişaf etmişdir. Ona görə də burada bu potensial var.

Eyni zamanda, yeni iş yerləri yaradılır, çünki buraya - evlərinə, Vətəninə qayıdan insanlar işlə təmin edilməlidir. Bizim Böyük Qayıdış Proqramımızın bir tərkib hissəsi də məşğulluqdur, eyni zamanda, aşağı faizli, imtiyazlı kreditlərin verilməsi və təbii ki, sosial infrastrukturun inşası. Zəngilanda artıq böyük bir məktəb binası inşa edilməkdədir. Zəngilan məscidinin inşası yekunlaşır. O, ermənilər tərəfindən məhv edilən qədim məscidin yanında inşa edilib. Bizim işğal altında olmuş bütün torpaqlarımızdakı 67 məsciddən 65-i məhv edilmişdir, 2-si isə yarı dağıdılmış vəziyyətdə olmuşdur. Bu isə, əlbəttə, Azərbaycana qarşı urbisid və kultursidin təzahürüdür.




Bu gün isə bu torpağın sahibləri, əsl sahibləri qayıdıb, sürətli inkişaf baş verir. Böyük Qayıdış Proqramı haqqında danışarkən deyə bilərəm ki, həmin proqram bütün azad olunmuş ərazilərin bərpasını əhatə edir. Təkcə bərpa etmək deyil - burada müasir texnologiyalar, “ağıllı şəhər” və “ağıllı kənd”lər inşa olunur. Burada ən müasir şəhərsalma nümunələri istifadə edilir.

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra bu günədək bərpa işlərinə Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il üçün planlaşdırdığımız minimum büdcə 2,4 milyard ABŞ dolları olacaqdır. Bu, təbii ki, parlamentdə yenidən müzakirə ediləcək və dediyim kimi, Azərbaycan bunu öz şəxsi dövlət vəsaiti hesabına həyata keçirir. Biz heç bir maliyyə dəstəyi, heç bir maliyyə yardımı almırıq. Burada istisna iki qardaş ölkədir – Özbəkistan və Qazaxıstan prezidentləri çox səxavətli şəkildə bizə biri məktəb, biri isə incəsənət mərkəzini hədiyyə edib. Özbəkistan Füzulidə məktəb tikdi, digəri isə yekunlaşmaq üzrədir.

Yəni, bu, Azərbaycan üçün çox böyük maliyyə yüküdür. Ancaq Böyük Qayıdış Proqramının icrası bizim üçün bir nömrəli vəzifədir.

İnsanlar erməni işğalından çox əziyyət çəkiblər, çətin şəraitdə yaşayıblar, mənəvi çətinliklərlə üzləşiblər. Onlar özlərinin haqlı hüquqlarından məhrum ediliblər, öz Vətənlərindən məhrum ediliblər, qəbiristanlıqlarını ziyarət etməkdən məhrum ediliblər. Yeri gəlmişkən, qəbiristanlıqların böyük bir hissəsi işğalçı qüvvələr tərəfindən tamamilə dağıdılıb. Onlar bu imkanı, bu fürsəti 30 il gözləyirdilər ki, buraya qayıda bilsinlər. İkinci Qarabağ müharibəsi - bizim şanlı Qələbəmizlə bitən müharibə onlara bu şəraiti yaratdı. Bu gün onların bizdən gözləntiləri odur ki, onları tezliklə bu yerlərə qaytaraq.

Böyük Qayıdış Proqramı və onun icrası artıq imkan vermişdir ki, keçmiş məcburi köçkünlər Laçın şəhərinə qayıtsınlar, Füzuli şəhərinə qayıtsınlar, Ağalı kəndinə qayıtsınlar, Talış və Zabux kəndlərinə qayıtsınlar. Yəni, bu gün 8 şəhər və 92 kəndin Baş planı artıq təsdiqlənib və 30 kəndin təməli qoyulub. Qarşıdan gələn illərdə çox böyük, irihəcmli yaşayış layihələri həyata keçiriləcək, xüsusən də Şuşa və digər şəhərlərdə. Bu, bizim proqramın tərkib hissəsidir.

Digər bir element infrastrukturdur. Məsələn, dünən mən burada - Zəngilanda 10 meqavat gücündə yeni Su Elektrik Stansiyasının açılışını etdim. Ancaq növbəti altı ay ərzində onun imkanları 40 meqavata çatdırılacaq. Azad olunmuş ərazilərdə bu gün 90 meqavat həcmində hidroelektrik enerji artıq təmin edilir. Yəni, azad olunmuş bütün ərazilərimiz yenidən bizim mərkəzi şəbəkəmizə qoşulur və tam inteqrasiya edilib. Bizim azad olunmuş ərazilərdə hidroelektrik enerjinin həcmi bu ilin sonunadək 170 meqavat, 2024-cü ilin sonuna qədər 270 meqavat olacaq. Bu da təbii ki, bizim yaşıl enerji gündəliyimizə böyük töhfə olacaq. Çünki Şərqi Zəngəzur və Qarabağın 10 min meqavat yaşıl enerji potensialı var. Buraya həm günəş, həm külək, həm də su elektrik stansiyaları aiddir. Bu, Azərbaycanın potensialının cüzi bir hissəsidir. Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisinin potensialı 157 qiqavat təşkil edir. Tezliklə, Azərbaycan yaşıl enerjini ixrac edən ölkə olacaqdır. Hətta yaşıl hidrogen ixrac ediləcəkdir. İlkin hesablamalara görə, bizim potensialımız çox böyükdür. Günəş enerjisinə gəldikdə, artıq Cəbrayıl rayonunda 240 meqavat həcmində yeni stansiya tezliklə icra olunacaq. Ümid edirəm ki, bu layihəyə gələn il başlanılacaq.

Enerji potensialı, nəqliyyat, yaşayış layihələri - bunların hamısı bizim gündəliyimizin tərkib hissəsidir. Əminəm ki, biz bütün vəzifələrə, hədəflərə nail olacağıq və növbəti üç ildə 100 mindən çox keçmiş məcburi köçkünü evlərinə qaytaracağıq. Yeri gəlmişkən, qeyd edim ki, artıq 2300 məcburi köçkün evlərinə qayıdıb və ilin sonunadək onların sayı 5500-ə çatdırılacaq.

Diqqətinizə çatdırmaq istədiyim digər məsələ odur ki, Ermənistanın işğalından əziyyət çəkən köçkünlərimiz 30 il ərzində Azərbaycanın müxtəlif bölgələrində yaşayırdılar. Hökumət hər il onlar üçün 300-500 milyon ABŞ dolları arasında vəsait ayırırdı ki, yeni yaşayış layihələri icra edilsin, yeni yaşayış məntəqələri tikilsin. 300 mindən çox məcburi köçkün yaxşı şəraitlə, yeni mənzillərlə, evlərlə təmin edilmişdir. Ancaq torpaqlarımız azad edilən kimi, biz sorğu keçirdik və onların mütləq əksəriyyəti evlərinə qayıtmaq arzusunu ifadə etdilər. Bu gün artıq qayıtmaq istəyən insanlardan ibarət növbə yaranıb. Onlar Bakıdan, ölkəmizin ikinci böyük şəhəri Sumqayıtdan, Gəncədən və digər bölgələrimizdən qayıtmaq istəyirlər. Onlar şəhərlərdən kəndlərə qayıtmaq istəyirlər. Yəni, bunu da düzgün qiymətləndirmək lazımdır. Bu gün hər kəs urbanizasiyadan danışır. Bizdə də bu mövzu var. Bizim bu problemimiz uzun illərdir yaşanır - insanlar bölgələrdən, kəndlərdən şəhərə can atır. Çünki şəhərdə daha çox iş yerləri, məşğulluq imkanları var və özləri üçün daha yaxşı şərait yaratmaq istəyirlər. Amma bu gün biz onun şahidiyik ki, Bakıdan, Sumqayıtdan, Gəncədən, Mingəçevirdən, digər şəhərlərdən kəndlərə axın baş verir. Bu isə ilk növbədə Azərbaycan xalqının öz Vətəninə nə dərəcədə bağlı olduğunu göstərir. Onlar öz vətənlərində, əcdadlarının vətənlərində yaşamaq istəyirlər.

Hesab edirəm ki, bu gün burada - Zəngilanda, növbəti günlərdə Forumun Bakıda davam etdiyi müddətdə müzakirələr təkcə şəhər planlaması və inkişafa dair təcrübə mübadiləsi ilə bağlı olmayacaq, regionun gələcəyi barədə də fikir mübadiləsi aparılacaq. Biz bu regionun gələcəyini necə görürük? Diqqətinizə çatdırmaq istəyirəm ki, bizə qarşı 30 il ərzində etnik təmizləmə, işğal və ərazilərimizin məhvi həyata keçirilib, bir milyondan çox azərbaycanlı evlərindən didərgin salınıb. Onların 200 mindən çoxu hazırkı Ermənistan ərazisindən deportasiya olunub. Bizim şəhərlərimiz, kəndlərimiz darmadağın edilib. Otuz il ərzində işğalçı qüvvələr bizə buraya qayıtmağa imkan vermirdi və beynəlxalq ictimaiyyətin münaqişənin dinc yolla həllinə dair bütün səylərini bloklayırdılar. Təsəvvür edirsinizmi, 1992-ci ildən 2020-ci ilə qədər danışıqlar aparıldı. Sonsuz, mənasız danışıqlar aparılırdı və onların nəticəsi sıfır idi. Danışıqlara vasitəçilik edən ölkələrə baxsaq, görərik ki, onlar istəsəydilər, buna çoxdan nail olmuşdular. Baxın, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü, üç nüvə ölkəsi - onlar keçmiş Minsk qrupunun həmsədrləri idi. O qrup ki, işğala son qoymaq üçün mandatı var idi və bu, ATƏT-in çətiri altında həyata keçirilirdi. Amma bizim üçün digər hüquqi çərçivə də var idi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var idi ki, onlar bizim ərazilərimizin işğaldan qeyd-şərtsiz və tam azad olunmasını tələb edirdi. Onlar 1993-cü ildə qəbul edilmişdi. Onlar kağız üzərində qalmışdı. Çünki siyasi iradə yox idi və məlum idi ki, Ermənistan bunu istəmir. Onlar status-kvonu əbədi saxlamaq istəyirdilər. Onlar bizim torpaqlarımızı daim öz nəzarətində saxlamaq istəyirdilər. Onlar bu yerlərdə, o cümlədən burada - Zəngilanda qanunsuz məskunlaşma aparırdılar. Ola bilər ki, bu, Zəngilanda o qədər də geniş vüsət almamışdı, amma Laçında, Kəlbəcərdə, Şuşada minlərlə qeyri-qanuni sakin məskunlaşdırılmışdı. Onlar Yaxın Şərqdən və digər ölkələrdən, diaspor tərəfindən dəvət edilmişdilər.

Ermənistan beynəlxalq hüququn normalarını və qaydalarını kobud şəkildə pozurdu. Cenevrə Konvensiyasına əsasən, cinayət törədirdi. Ancaq beynəlxalq ictimaiyyət bu ölkəyə qarşı sanksiya tətbiq etmədi. Onları heç ictimai şəkildə qınamadılar. Onlara açıq şəkildə çağırış etmirdilər ki, öz qoşunlarını bizim ərazimizdən çıxarsın.

Beləliklə, İkinci Qarabağ müharibəsinin başlaması təkcə Ermənistanın işğal siyasəti ilə bağlı deyildi, bu məsələni həll etməyə mandatı olan ölkələrin bunu gözardı etməsi idi. Sülhə nail olmaq olardı, bu, mümkün idi. Azərbaycan hər zaman danışıqlar masasında konstruktiv idi. Biz 28 il ərzində ədalətin bərpa edilməsini gözlədik. Nəticədə isə bunu özümüz etməli olduq. Biz 44 gün ərzində bunu etdik. 44 günlük müharibə qaçılmaz idi. İlk olaraq artıq sadaladığım səbəblərdən, ikincisi isə Ermənistan bu məsələni dondurmaq istəyirdi. Hesab edirdi ki, Azərbaycanda yeni yetişən nəsil Qarabağı unudacaq. Amma onlar böyük səhvə yol verdilər. Bu gün Füzulidə, Laçında, Zabuxda, Ağalıda, Talışda təhsil alan yüzlərlə məktəbli bu torpaqları görməyib. Çünki Azərbaycan xalqının yaddaşından bu tarixi, bu torpaqları heç kim silə bilməz. Aydın idi ki, Ermənistan vəziyyəti məhz bu şəkildə öz nəzarəti altında saxlamaq istəyirdi. Düşünürdülər ki, nə sülh, nə müharibə - davamlı danışıqlar məhz belə də sürəcək. Eyni zamanda, yeni Ermənistan hakimiyyəti ilə bağlı ümidlər də tədricən boşa çıxdı.

Əvvəlki hökumət, nəzər salsaq aydın görərik ki, Ermənistan kriminal hərbi cinayətkarlar tərəfindən idarə olunan bir rejim idi. İki prezident özləri Xocalı soyqırımında iştirak edənlər idi. Onlar buna görə cavab verməlidirlər, məsuliyyət daşımalıdırlar. Onlar Azərbaycan torpaqlarını talayanlar idi. İyirmi il ərzində onlar əllərindən gələni edirdilər ki, bizim işğal olunmuş torpaqlarımızda bu taktikanı işlətsinlər, həmin taktikanı Ermənistanda da tətbiq etməyə başladılar.

Bu gün də erməni xalqı onlara nifrət edir. Ancaq hazırkı Ermənistan hakimiyyəti ilə bağlı olan ümidlər şişirdilmişdi. İndiki Ermənistan hakimiyyəti istəsəydi, Azərbaycanla sülhə gələrdi, bunu edə bilərdi. Azərbaycan buna hazır idi, beynəlxalq vasitəçilər bunu bilirdilər. Keçmiş həmsədrlər bilirdi ki, biz bunu Azərbaycanın ərazi bütövlüyünün bərpası əsasında dinc yolla həll etməyə hazır idik. Biz Azərbaycandakı erməni azlığın hüquqlarını bərpa etməyə, təmin etməyə hazır idik. İndi isə müharibədən sonra və sonuncu hərbi əməliyyat ki, baş verdi, on gün əvvəl biz yenidən bunu bəyan etdik: Qarabağın erməni əhalisinin hüquqlarını təmin edəcəyik. Artıq biz onlara bu məsələ ilə bağlı, reinteqrasiya ilə bağlı öz baxışımızı təqdim etmişik, onların dini, təhsil, mədəni, bələdiyyə hüquqları - beynəlxalq konvensiyalara uyğun olaraq bütün bu məsələlər həll ediləcək. Bu, Azərbaycanın iştirakçısı olduğu bütün konvensiyalara, bizim konstitusiyamıza və beynəlxalq öhdəliklərimizə uyğun həyata keçiriləcək.

Ancaq İkinci Qarabağ müharibəsindən əvvəlki vəziyyətə qayıdanda, hesab edirəm ki, hazırkı Ermənistan hakimiyyəti bu fürsəti əldən verdi. Onlar bizi düzgün qiymətləndirmədilər, öz imkanlarını düzgün qiymətləndirmədilər. Onların planları var idi ki, bizə qarşı xarici hərbi yardım olunacaq. Onlar təbii ki, burada ciddi yanıldılar. Aydın məsələ idi ki, Azərbaycan öz ərazisində döyüşlər aparırdı. Bu, bizim hüququmuz idi. Bizə BMT Nizamnaməsinə uyğun olan özünümüdafiə hüququnu tanıyan məsələ idi. Üç il bundan öncə Ermənistan kapitulyasiya etməli oldu. Bəs, bundan sonra nə baş verdi? Demək olar ki, biz dərhal sülh danışıqlarına başladıq. Otuz il ərzində münaqişədən, soyqırımından, nifrətdən əziyyət çəkən xalq və ölkə ciddi siyasi iradə göstərdi, siyasi addım atdı: biz sülh təklif etdik. Biz müvafiq komissiyaların yaradılmasını təklif etdik ki, sərhədin delimitasiyası aparılsın. Ancaq Ermənistan buna müsbət cavab vermədi. Həmin bu yeni sülh danışıqları heç bir tərəqqiyə gətirib çıxarmadı. Üç il ərzində bunu etmək olardı. Yenidən yanlış hesablama, yenidən hansısa xarici himayədarlara arxalanma yenidən çətin və mürəkkəb vəziyyət yaratdı.

Ermənistan hökumət rəsmilərinin, xüsusilə yüksək səviyyəli rəsmilərin ritorikasına baxsanız, bu gün onlar bizi heç etmədiyimiz məsələlərdə ittiham edirlər. Ermənistanın hazırkı rəhbəri 2019-cu ildə Xankəndidə tribunadan bəyan etdi ki, “Qarabağ Ermənistandır və nöqtə”. Bu da bizim qırmızı xəttimiz idi. Ona qədər heç kəs belə bir ifadə işlətməmişdi. Bu da təbii ki, atəşkəsin pozulması idi: yəni, əhəmiyyətsiz, mənasız danışıqlara nə ehtiyac var? Ermənistanın rəhbəri Azərbaycanın beynəlxalq səviyyədə tanınmış bir hissəsinin Ermənistana məxsus olduğunu rəsmi şəkildə deyirsə, burada hansı danışıqlardan söhbət gedə bilər? Buna baxmayaraq, biz yenə də hesab edirdik ki, bəlkə bu, siyasi yanlışlıqdır. Lakin bundan sonra Ermənistanın müdafiə naziri bəyan etdi ki, Ermənistan bizimlə yeni ərazilər uğrunda yeni müharibəyə hazırdır. Yəni, onlar bizi yeni işğalla hədələyirdilər. Belə çıxır ki, bizim ərazimizin 20 faizinin işğalı onlara kifayət etmirdi. Onların planı var idi ki, Bakıya çatsınlar, hətta Xəzər dənizində çimsinlər. Onların planlarında tanklarla Bakıya gəlmək var idi. Ancaq Ermənistana məxsus tanklar bu gün bizim Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Bir çox yanlışlıqlar, yanlış hesablamalar, bizim potensialımızı, qüvvəmizi və gücümüzü nəzərə almamaq – bu, region üçün ciddi bir fəlakətə səbəb oldu.

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması üçün hətta yenə də şans var idi. Ancaq onlar Azərbaycana qarşı bütün ərazi iddialarına son qoymalı idilər. Onlar ziddiyyətli bəyanatlara son qoymalı idilər. Bir tərəfdən deyirdilər ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar. Digər tərəfdən isə sentyabrın 2-də Ermənistanın rəhbəri qondarma rejimin rəhbərinə onun müstəqilliyi ilə bağlı təbrik məktubu göndərmişdi. Yəni, bu, necə mümkün ola bilər? Bu o demək idi ki, utancverici məğlubiyyətdən üç il sonra, öz məlumatlarına görə, 12 min fərarisi olan, bizim ərazilərimizdən sprinter kimi qaçan həmin Ermənistan bizə qarşı yeni ərazi iddiası irəli sürür.

Bu, artıq qırmızı xəttin növbəti dəfə pozulması idi. 9 sentyabr tarixində artıq bu, neçənci qırmızı xəttimiz idi. Qondarma Dağlıq Qarabağın qondarma “parlament”i 22 nəfərin səsi ilə “Dağlıq Qarabağ rejimi”nin “prezidenti”ni seçdi və həmin o “prezident” öz çıxışında qeyd etdi ki, biz status uğrunda mübarizə aparacağıq. Yəni, bu nə deməkdir və biz buna necə cavab verməliyik?! Biz buna necə dözə bilərdik? Əlbəttə, biz buna dözə bilməzdik. On gün bundan əvvəl baş verən hadisələrin səbəbi Ermənistan baş nazirinin məsuliyyətsiz siyasəti və onun himayədarlıq etdiyi Qarabağdakı separatçılar idi, onların hərəkətləri idi.

Antiterror tədbiri 24 saatdan az müddətdə həyata keçirildi. Bunun nəticəsi nə oldu? Biz davam etdikmi? Xeyr! Bizim belə bir niyyətimiz yox idi. Biz nəticədə harada istəsəydik orada dayanacaqdıq. Bunu demək o qədər də çətin deyil. Ancaq bizim niyyətimiz bundan ibarət deyildi. Biz Ermənistanın ərazi bütövlüyünü tanımışıq, bunu bəyan etmişik və bunu səmimi deyirik. Yəni, bizim başqa niyyətlərimiz olsaydı, əməliyyat sentyabrın 20-də dayanmazdı. Mən bunu hər kəsin bilməsini istəyirəm. Bunu Ermənistan hakimiyyəti də bilsin, onun arxasında duran himayədarları da bilsin, bu gün Azərbaycana qarşı qəbuledilməz planlar cızan tərəflərə buradan mesaj verirəm: Bizim səbrimizlə oynamasınlar. Biz səbirliyik, ancaq qətiyyətliyik. Biz haqlı olduğumuzu sübut edə bilirik və edirik. Ona görə yox ki, bizim gücümüz var, çünki haqq-ədalət bizim tərəfimizdədir.

Sentyabrın 20-dən sonra artıq zaman yetişib ki, bizim nümayəndələr əyləşsin və sülh sazişinin layihəsi üzərində işləsin. 20 sentyabrda biz suverenliyimizi artıq bərpa etmişik. Bundan sonra da sülh sazişinin tezliklə imzalanması daha asan olacaqdır. Bununla yanaşı, təbii ki, gərək sərhədlərin delimitasiyası üzərində fəal surətdə çalışaq və uzun müddət sürən bu qarşıdurmaya son qoyaq. Azərbaycanda biz sülh istəyirik. Zəngilanda bu gün gördükləriniz onu sübut edir ki, biz sülh istəyirik, biz bu əraziləri bərpa etmək istəyirik, soydaşlarımızı vətəninə qaytarmaq istəyirik. Biz Qafqazda sülh və sabitlik istəyirik. Bu, mümkündür və seçim Ermənistanındır.

2020-ci il noyabrın 8-də Şuşa Ordumuz tərəfindən azad olundu və bu, bizim iradəmizin təzahürü idi. Bundan iki gün sonra Ermənistan kapitulyasiya aktına imza atdı və Azərbaycan 30 illik işğala son qoydu. Aprelin 23-də biz Ermənistanla sərhəddə sərhəd-keçid məntəqəsini yaratdıq və ərazi bütövlüyümüzü tam təmin etdik. Çünki bütün sərhədlərimizə nəzarəti bərpa etdik. Əlbəttə, sentyabrın 20-də biz öz suverenliyimizi bərpa etdik. Yəni, artıq “boz” zonalar yoxdur, qeyri-qanuni strukturlar yoxdur və torpaqlarımızda separatçılığa son qoyulubdur. Bu, bizim güclü siyasi iradəmizin göstəricisidir. Bu, Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olduğunu göstərir və bu, yaxşı siqnaldır, - bəziləri hələ də qisasçılıq, revanşist ideyalarla yaşayırlar, - bu, onlara güclü siqnaldır ki, bu fikirlərdən daşınsınlar.

Biz 20 sentyabrda Qarabağdakı Ermənistan ordusuna bəyan etdik: silahlarınızı yerə qoyun və oraları tərk edin. Belə də oldu və bu, baş verdi. Yəni, biz sözümüzə, vədimizə əməl edirik, ona sadiqik. Əminəm ki, Ermənistan hökuməti bu hadisələri düzgün şəkildə təhlil etsə, “Qarabağ Ermənistandır!” bəyanatından sonra - 2019-cu ildə verilən bəyanatdan sonra 20 sentyabradək baş verənləri düzgün təhlil etsə, sülh əlçatandır. Bu, gələcəklə bağlı bizim baxışımızdır. Bu, regionun gələcəyi ilə bağlı baxışımızdır və hesab edirəm, beynəlxalq aktorlar və qonşular görəcəklər ki, bizim münasibətimiz konstruktivdir.

Əziz qonaqlar, hörmətli dostlar, bir daha Şərqi Zəngəzura, Zəngilana xoş gəlmisiniz. Foruma uğurlar arzu edirəm.

*

Sonra BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif çıxış etdi.

(ardı 3-cü səhifədə)

# Böyük Qayıdışın “ağıllı” akkordları

(əvvəli 2-ci səhifədə)




## Xanım Maimuna Mohd Şərifin çıxışı

- Təşəkkür edirəm, cənab moderator!

Zati aliləri, cənab Prezident İlham Əliyev.

Çox hörmətli nazirlər, xanım Vladanka Andreyeva.

Hörmətli nümayəndə heyəti, xanımlar və cənablar.

Hamınızın sabahınız xeyirli olsun. Mən çalışıb Azərbaycan dilində tələffüz etdim. Ümid edirəm, doğru tələffüz etdim. Burada 2-ci Milli Şəhərsalma Forumunda - Azərbaycan hökumətinin təşkilatçılığı, cənab Prezident İlham Əliyevin himayəsi ilə keçirilən ikinci forumda iştirak etməkdən məmnunluğumu bildirirəm. Bildiyiniz kimi, qlobal, kifayət qədər Ümumdünya Şəhərsalma Günü Qafqaz regionunda oktyabrın gələn bazar ertəsi günü qeyd edilir və əslində, məhz şəhərlər inkişafın və bərpanın hərəkətverici qüvvəsidir.

Cənab Prezident, Sizin üzərinizə götürdüyünüz öhdəliyə əsasən, Zəngilanda keçirilən 2-ci Azərbaycan Milli Şəhərsalma Forumu həqiqətən təqdirəlayiqdir. Əsas məqsəd bildiyiniz kimi, daha yaşıl, daha sağlam inkişaf, sözün həqiqi mənasında, təqdirəlayiqdir. Təbiətlə ahəngdar şəkildə, eləcə də su resurslarının, eyni zamanda, məhz məkanın düzgün idarə edilməsi ilə Siz şəhər vətəndaşları üçün daha parlaq gələcəyi təmin etmiş olursunuz. BMT-nin Baş katibi Antonio Quterreş də bu yaxınlarda Nyu-Yorkda Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ilə bağlı keçirilən tədbirdə qeyd etmişdi ki, DİM-in bərpa planına kifayət qədər ehtiyacı var və artıq bütün dünyanın gözləri üzv dövlətlərə yönəlib.

Cari Milli Şəhərsalma Forumunda Azərbaycan hökuməti, bütün aidiyyəti qurumlar, eləcə də yerli icra hakimiyyəti, idarəetmə qurumları illik platformada üzərinə götürdüyü Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı müvafiq olaraq məlumat, hesabat verirlər. BMT də aidiyyəti qurum olaraq, yeni şəhərsalma gündəliyi çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərini, eyni zamanda, ərazi, iqtisadi və ətraf mühit planlamasını özündə ehtiva edir. Bəli, Milli Şəhərsalma Forumu məhz ən ali zirvədən tutmuş, - söz düşmüşkən, Azərbaycanın həqiqətən də bariz nümunəsi fonunda - milli səviyyədə keçirilən belə bir şəhərsalma forumu ölkələr üçün, nümayəndələr üçün də 2024-cü ildə Qahirədə keçiriləcək müvafiq tədbir üçün həqiqətən də mühüm platformadır. BMT-nin Baş Assambleyasının 78-ci sessiyasında qeyd olunduğu kimi, günümüzdə artıq köhnəlmiş, qeyri-funksional və ədalətsiz bir nizamda məhz memarlıq gələcəkdə DİM-lərin inkişafına mühüm töhfə verə bilər. Milli səviyyədə isə bütün bu işlər, iqtisadi, sosial ərazi planlaşdırılması Azərbaycanın təbii ki, Zəngilanda nümayiş etdirdiyi inkişafla paraleldir. Burada inklüziv, düzgün ərazi yanaşması milli inkişaf planında vəhdət halı almışdır.

Çox hörmətli tədbir iştirakçıları, keçən il vurğuladığım kimi, əsas xidmətlər üzrə boşluğu doldurmaq, eyni zamanda, evlərlə bağlı idarəetmə yalnız və yalnız resurs və məlumatlar strateji şəkildə doğru-düzgün idarə edildikdə mümkün olacaqdır. Milli Şəhərsalma Forumunun keçirilməsi ilə üzv ölkələr və şəhər rəhbərləri 11-ci Dayanıqlı İnkişaf Məqsədinə və bütün digər DİM-lərə nail olmaq üçün düzgün siyasətin həyata keçirilməsi baxımından mühüm məlumatlar əldə edə bilirlər. Bəli, bunlar bir-biri ilə kəsişən, eləcə də milli, mərkəzi və yerli idarəetmə qurumlarına milli inkişaf proqramı siyasətinin real əməli tədbirlərlə müsbət nəticələrə gətirib çıxarmasına rəvac verir. Üzv dövlətlərə dəstək göstərmək üçün BMT-nin Məskunlaşma Proqramı Milli Şəhərsalma Forumuna öz töhfəsini verməkdədir. Qeyd edim ki, mənim komandam burada - 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunda iştirak edir. Məhz burada, bu yüksək səviyyəli tədbirdə əldə olunan məlumat və alətlər, bildiyiniz kimi, noyabrda keçiriləcək növbəti tədbirdə istifadə ediləcəkdir.

Mən çoxsaylı tanış simaları regionda görməyimə çox şadam. Sözün həqiqi mənasında, Azərbaycan hökumətinin səxavəti ilə biz öz dəstəyimizi qonşu ölkələrə də çatdıra bilirik. Çox şadam ki, Türk Dövlətləri Təşkilatının birinci regional şəhərsalma forumu sabah Bakıda keçiriləcək. Biz qarşılıqlı əməkdaşlıq sayəsində məhz üzv dövlətlərdən, yerli idarəetmə qurumlarından, tərəfdaşlardan faydalanaraq gələn il Qahirədə keçiriləcək milli Foruma hazırlıq prosesinə də artıq təkan vermiş oluruq.

Cənab Prezident, BMT-nin Məskunlaşma Proqramının bu ilin iyununda Nayrobidə keçirilən ikinci sessiyasında davamlı şəhərsalmaya dəstəyinə görə Azərbaycan hökumətinə təşəkkürümü bildirirəm. Sizin BMT-nin Nayrobi şəhərindəki bölməsində daimi nümayəndənizin təyin olunmasından çox şadıq.

Ümid edirəm ki, builki Milli Şəhərsalma Forumunun nəticələri Konvensiyaya üzv olan tərəflərin 2023-cü ilin dekabrında Dubay şəhərində təşkil ediləcək tədbirdə Sizin dayanıqlı şəhərsalma ilə bağlı əsas mesajlarınızı çatdıracaq. Şəhərsalma ilə bağlı Konvensiyaya üzv olan tərəflərin nazirlər səviyyəsində iclası bu il dekabrın 6-da Dubay şəhərində keçiriləcək.

Hazırda isə, cənab Prezident, vəd etdiyim kimi, planlaşdırma ilə bağlı müvafiq konsepsiya sənədinin təqdim edilməsi üçün Cəbrayıl rayonunda iki ərazi seçilmişdir. Mən də Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə müvafiq dəstəyinə görə təşəkkürümü bildirirəm. BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva öz növbəsində BMT-nin ölkədəki komandası olaraq bu təşəbbüslərə dəstək göstərir. UN-HABITAT şəhərlərin yenidən bərpası və icmaların özlərinin daha yaxşı gələcəyini qurması istiqamətində səylərini dəstəkləyir. BMT-nin Məskunlaşma Proqramının ikinci sessiyasındakı qərarından ilhamlanaraq, səmərəli, çoxtərəfli ruhundan çıxış edərək, bütün üzv dövlətlərə üz tutaraq demək istəyirəm: biz qanunun aliliyi prinsipinə, BMT-nin xartiyasına riayət etməklə, eləcə də İnsan Haqları Bəyannaməsinə xitabən inkişafı davamlı edə bilərik. Ancaq bütün cəmiyyətlə, hamılıqla birgə inklüzivliyə və müxtəlifliyə xitabən xüsusi öhdəlik götürməklə inkişaf edə bilərik. Mən bütün bunlara Sizin dəstəyinizlə nail olacağımıza əminəm. 2023-cü ildəki Ümumdünya Məskunlaşma Günü gələn bazar ertəsi Sizin çox gözəl Bakı şəhərində - Xəzər dənizinin sahillərində qeyd ediləcəkdir.

Təşəkkür edirəm, çox sağ olun!

*

Müxtəlif çağırış və qeyri-müəyyənliklər qarşısında iqtisadi cəhətdən inkişaf edə biləcək davamlı şəhərlərin qurulması ilə bağlı strategiyaların müzakirəsi, fikir mübadiləsi və əməkdaşlıq üçün müxtəlif maraqlı tərəfləri, ekspertləri, siyasətçiləri və icmaları bir araya gətirən forumun açılış mərasimindən sonra tədbir müxtəlif mövzularda sessiyalarla davam edib. Əvvəlcə “Birgə yenidənqurma - regional dayanıqlılıq və davamlı inkişaf üçün əməkdaşlıq imkanları” adlı xüsusi sessiya təşkil olunub.

Sonra “Dayanıqlı və davamlı inkişaf: strategiyalar, fəaliyyət istiqamətləri və beynəlxalq əməkdaşlıq imkanları” adlı birinci sessiyada yenidənqurma - azad edilmiş ərazilərin reabilitasiya strategiyaları, birgə hərəkət, əlaqələndirmə və regional iqtisadi inkişaf üçün nəqliyyatın imkanlarının gücləndirilməsi, rifah və sülh üçün körpülər qurmaq, münaqişələrin həllində və şəhərsalmanın inkişafında beynəlxalq əməkdaşlığın rolu kimi məsələlər müzakirə edilib.

“Viranlıqdan dayanıqlılığa: parlaq gələcəyə aparan yol” adlı ikinci sessiyada gizli təhlükə ilə mübarizə - minalarla çirklənmə və onun dayanıqlı inkişafa təsiri, regional mərkəzlərin dirçəlişi, Qarabağda əməkdaşlıq imkanlarından söhbət açılıb, Zəngilan şəhərinin Baş planı ilə tanışlıq olub.

Sonda tədbir iştirakçıları Ağalı “ağıllı kənd”inə səfər edib və Zəngilanda sürətlə aparılan yenidənqurma layihələri ilə tanış olublar.

Qeyd edək ki, NUFA2-nin növbəti sessiyaları paytaxt Bakıda təşkil olunacaq və oktyabrın 1-də yekunlaşacaq. Oktyabrın 2-də isə paytaxtımız ilk dəfə olaraq Ümumdünya Məskunlaşma Gününə ev sahibliyi edəcək. Həmin gün nüfuzlu beynəlxalq ekspertlər və dövlət rəsmiləri “Dayanıqlı şəhər iqtisadiyyatı. Şəhərlər inkişafın və bərpanın aparıcı qüvvəsi kimi” mövzusu altında əlçatan və keyfiyyətli şəhər həyatının təşviqi və dayanıqlı şəhərlərin inkişafı üzrə çağırışların müzakirəsini aparacaqlar.

**AZƏRTAC**

# Sahibə Qafarovanın Fransa Milli Assambleyasının sədri ilə görüşü



**Milli Məclisin Sədri Sahibə Qafarova İrlandiyanın paytaxtı Dublin şəhərində Fransa Milli Assambleyasının sədri Yael Braun-Pivet ilə görüşüb. O, Fransanın Azərbaycana münasibətdə nümayiş etdirdiyi qərəzli mövqeyə toxunaraq deyib ki, Cənubi Qafqazdakı vəziyyətə birtərəfli, qərəzli yanaşma regionumuzda uzunmüddətli sülhün bərqərar olması səylərinə heç bir fayda vermir.**

S.Qafarova Fransa parlamentinin hər iki palatasının Azərbaycanla Ermənistan arasında normallaşmaya və sülh prosesinə mənfi təsir göstərən bir sıra bəyanatlar, qətnamələr qəbul etdiyini xatırladıb. Deyib ki, bu sənədlər beynəlxalq hüququn norma və prinsiplərinə zidd olub, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü şübhə altına alıb. Əvəzində, bütün bu addımlar ərazilərimizdə separatizmi dəstəkləyib və Ermənistanda revanşist qüvvələri cəsarətləndirib.

Milli Məclisin Sədri Yael Braun-Pivetin 2023-cü ildə Ermənistana səfər etdiyini xatırladaraq deyib ki, əgər fransalı spiker Ermənistandan sonra Azərbaycana da səfər etsəydi, bu, ölkəmizin mövqeyi ilə də tanış olmaq üçün ona yaxşı fürsət verə bilərdi. Fransanın 30 ildir ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalını, şəhərlərimizi, kəndlərimizi, tarixi və mədəniyyət abidələrimizi dağıtmasını pislədiyinin şahidi olmamışıq. Fransa Ermənistanın etnik təmizləmə siyasəti ilə üzləşmiş, Ermənistandan qaçqın və Qarabağdan məcburi köçkün düşmüş 1 milyon azərbaycanlının hüquqlarından heç vaxt danışmayıb.

S.Qafarova Fransa Milli Assambleyasının sədrinə Azərbaycanın Qarabağ regionunda həyata keçirdiyi lokal antiterror tədbirləri haqqında da geniş məlumat verib. Diqqətə çatdırıb ki, Azərbaycan öz ərazilərini işğaldan azad etdikdən sonra Ermənistana suverenlik və ərazi bütövlüyünə hörmət əsasında münasibətlərin normallaşdırılmasını, sülh müqaviləsi imzalanmasını təklif edib. Lakin Ermənistan üç ildir ki, bu müqaviləni imzalamaqdan boyun qaçırmaq üçün bütün vasitələrə əl atır. Milli Məclisin Sədri Qarabağın erməni sakinlərinin Azərbaycan cəmiyyətinə inteqrasiya olunması ilə bağlı dialoq aparıldığını, qısa müddət ərzində Azərbaycan nümayəndələri ilə artıq Qarabağın erməni icmasının nümayəndələri arasında iki görüş keçirildiyini bildirib. Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 29-da İrlandiyanın paytaxtı Dublin şəhərində keçirilən Parlament Spikerlərinin Avropa Konfransında çıxış edib. Diqqətə çatdırıb ki, artıq Qarabağ bölgəsinin erməni sakinlərinin cəmiyyətimizə reinteqrasiyası başlayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, Baş nazirin müavininin rəhbərlik etdiyi işçi qrupu regionda sosial, humanitar, iqtisadi və infrastruktur məsələləri ilə məşğul olur.

Fransa Milli Assambleyasının sədri faktlar qarşısında susmalı olub.

***

Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova İrlandiyanın paytaxtı Dublin şəhərində Ukrayna Ali Radasının sədri Ruslan Stefançuk ilə görüşüb. Görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, ölkələrimiz və xalqlarımız arasında münasibətlər zəngin tarixə malikdir. Xalqlarımız uzun illər dostluq şəraitində yaşayıb. Azərbaycanın Ukraynaya göndərdiyi humanitar yardımlara görə ölkəmizə minnətdarlıq ifadə olunub və bu, dostluq münasibətlərinin göstəricisi kimi qiymətləndirilib. Bildirilib ki, ölkələrimiz arasında münasibətlər qanunvericilik orqanları səviyyəsində də uğurla davam etdirilir.

*Əliqismət BƏDƏLOV*
*XQ*

# İqtisadiyyat naziri Gürcüstanda

**Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov ilə görüşüb.**



Bildirilib ki, görüşdə Gürcüstan və Azərbaycan arasında mövcud strateji əlaqələr və əməkdaşlığın perspektivləri müzakirə olunub. Söhbət zamanı Gürcüstan və Azərbaycan arasında iqtisadi əməkdaşlıq məsələlərinə toxunulub.

Qeyd edək ki, bundan əvvəl M.Cabbarov gürcü həmkarı Levan Davitaşvili ilə görüşüb.

**XQ**

# Baş nazir Əli Əsədov Düşənbədə işgüzar səfərdə

**Düşənbəyə işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sentyabrın 29-da Rusiya Federasiyası Hökuməti sədrinin müavini Marat Xusnullinlə görüşüb.**



Görüşdə Azərbaycan-Rusiya strateji tərəfdaşlığının yüksək səviyyəsindən məmnunluq ifadə edilib.

Dövlət başçılarının ikitərəfli münasibətlərin bütün istiqamətlər üzrə ardıcıl inkişafını təmin etmək səylərinin əhəmiyyəti vurğulanıb.

Eyni zamanda, əməkdaşlığın müxtəlif sahələrində bir sıra layihələrin həyata keçirilməsi ilə bağlı konkret təkliflərə baxılıb.

*

Həmin gün Baş naziri Əli Əsədov Tacikistanın Baş naziri Koxir Rasulzoda ilə də görüşüb.

Əli Əsədov Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin Tacikistanda yüksək səviyyədə keçirilməsinə görə bu ölkənin hökumətinə təşəkkürünü bildirib.

Tərəflər yüksək səviyyəli səfər və görüşlərin Azərbaycan ilə Tacikistan arasında dövlətlərarası əlaqələrin möhkəmlənməsində əhəmiyyətini qeyd ediblər.

Bu kontekstdə Azərbaycan Prezidentinin bu ilin aprelində Tacikistana dövlət səfərinin əhəmiyyəti qeyd olunub.

İki ölkə arasında iqtisadiyyatın konkret sahələri üzrə əməkdaşlığın hazırkı səviyyəsi və inkişaf perspektivləri nəzərdən keçirilib.

*

Sentyabrın 29-da Düşənbədə “Düşənbə-2023” Beynəlxalq İnvestisiya Forumu keçirilib. Baş naziri Əl Əsədov forumun işində iştirak edib.

Tədbirdə çıxış edən Ə.Əsədov forumun əhəmiyyətini qeyd edib. O bildirib ki, forum investisiya və biznes sahələrində qarşılıqlı fəaliyyətin möhkəmlənməsi, həmçinin Tacikistanın iqtisadi potensialı və sərmayə imkanları ilə tanış olmaq baxımından effektiv beynəlxalq platformadır.

Ə.Əsədov forum iştirakçılarına Azərbaycanın iqtisadi inkişafı və əlverişli investisiya mühiti barədə məlumat verib.

O vurğulayıb ki, ölkə iqtisadiyyatı 2022-ci ildə 4,6 faiz artaraq rekord səviyyəyə - təqribən 80 milyard ABŞ dollarına çatıb. Qeyri-neft və qaz sektorunda 9,1 faiz artım qeydə alınıb. Hazırda ölkənin strateji valyuta ehtiyatları 67 milyard dollardan çoxdur. Azərbaycanın xarici borcu böyük həcmdə azalaraq ÜDM-in 9,3 faizinə düşüb.

Qeyd edilib ki, hökumət iqtisadiyyata investisiyaların stimullaşdırılması məqsədilə müasir texnologiyalardan istifadə etməklə və qabaqcıl beynəlxalq təcrübəni nəzərə alaraq, “açıq qapı” siyasəti yürüdür.

Forum iştirakçılarına dövlət tərəfindən vergi yükünün azaldılması, inzibati əngəllərin aradan qaldırılması və hüquqi bazanın yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verilib.

Baş nazir tacik investorları əlverişli biznes mühiti, xüsusi vergi və gömrük rejimləri, fiskal və qeyri-fiskal güzəştlər paketi təklif edən yeddi sənaye parkı, habelə Ələt Azad İqtisadi Zonasının imkanları ilə yaxından tanış olmağa dəvət edib.

Diqqətə çatdırılıb ki, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat arteriyalarının kəsişməsində unikal coğrafi mövqedə yerləşməsi və infrastruktur potensialına malik olması Ələt Azad İqtisadi Zonasını dünya miqyaslı biznes platformasına çevirir.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarının genişləndirilməsi üzrə işlərin davam etməsindən bəhs edən Baş nazir deyib ki, bu, Azərbaycanın ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərində daşımaların həcminin artması ilə əlaqədardır.

Həmçinin kənd təsərrüfatı sektorunda qarşılıqlı fəaliyyətin perspektivlərinə toxunulub. Baş nazir qeyd edib: “Məqsədyönlü iqtisadi siyasət nəticəsində iqtisadiyyatın şaxələndirilməsinə nail olunub, aqrar sektorun inkişafı üçün əlverişli şərait yaradılıb. Aqroparkların sayı artır və artıq 50-yə çatıb”.

Vurğulanıb ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə regionda yaranan yeni reallıqlar fonunda da investisiya sahəsində əməkdaşlıq üçün yaxşı perspektivlər açılır. O, dost ölkələrin, o cümlədən Tacikistan şirkətlərini bu işlərə qoşulmağa çağırıb.

Azərbaycanda alternativ energetika sahəsində görülən işlər barədə forum iştirakçılarına məlumat verən Baş nazir bildirib ki, dünyanın aparıcı şirkətləri ilə birlikdə bu istiqamətdə bir sıra iri layihələr həyata keçirilir.

Həmçinin iki ölkənin liderləri – İlham Əliyevin və Emoməli Rəhmonun uğurlu siyasətinin rəhni kimi, Azərbaycan ilə Tacikistan arasında ikitərəfli münasibətlərin inkişafı vurğulanıb.

# Yevlaxda erməni sakinlərin nümayəndələri ilə növbəti görüş

**Yevlax şəhərində Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədovun Qarabağın erməni sakinlərinin təmsilçiləri ilə növbəti görüşü başa çatıb.**



Görüşdə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələr aparılır.

Xatırladaq ki, bu, lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağın erməni sakinlərinin nümayəndələri və Azərbaycan mərkəzi hakimiyyətinin təmsilçiləri arasında 3-cü görüşdür. Bundan əvvəl ilk görüş Yevlaxda, ikincisi isə Xocalıda keçirilmişdi.

**XQ**

# Su Ehtiyatları Agentliyi artıq Sərsəng Su Anbarına nəzarət edir

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin əməkdaşları artıq Sərsəng Su Anbarına nəzarət edir.**



Dövlət Su Ehtiyatları Agentliyindən verilən məlumata görə, Ordumuzun şanlı Qələbəsindən sonra Sərsəng Su Anbarı da Azərbaycanın nəzarətinə keçib. Artıq su anbarının istismarını Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi həyata keçirir.

1976-cı ildə istifadəyə verilən anbarın ümumi həcmi 565 milyon kubmetr, faydalı həcmi 500 milyon kubmetrdir. Su anbarının su güzgüsünün sahəsi 1346 hektar, sahil xəttinin uzunluğu 50,25 kilometrdir.

**XQ**

(əvvəli 1-ci səhifədə)

# Eynəyinizi silin, cənablar!

## Okeanın o tayından Qarabağa uçmaq istəyən missionerlər nə istəyirlər?



### "Çinovnik" diplomatiyası

Son bir həftə ərzində artıq ikinci dəfədir ki, ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsinin Azərbaycana və onun Qarabağ iqtisadi rayonuna münasibətdə ikibaşlı, anlaşılmaz və özündə reallığı əks etdirməyən bəyanat və açıqlamasının şahidi oluruq.

Supergücün xarici diplomatiya idarəsinin nümayəndəsi, sanki, bölgədə baş verən hadisələrin önündə, yanında deyil, arxasında, həm də xeyli gecikmə ilə hərəkət etməkdədir. Qurumun sözçüsü Metyu Miller media təmsilçiləri üçün ənənəvi birifinqində Dağlıq Qarabağ (?) sakinləri üçün tezliklə şəffaf və etibarlı humanitar şəraiti təmin etmək, atəşkəs rejimini saxlamaq üçün (?) müstəqil beynəlxalq misiyanın bölgəyə göndərilməsinin vacibliyini vurğulayıb. Mövzu ilə bağlı fikirlərini "Bu, hazırki situasiyanın həllində bizim prioritetimizdir və onu ölü nöqtədən tərpətmək üzərində işləyirik", – kimi ifadə işlədən Miller yaranmış mövcud şəraitdə, separatçı rejim özünü buraxandan sonra beynəlxalq missiyanın nə dərəcədə ciddi ideya olduğu barədə suala belə cavab verib: "Biz beynəlxalq missiyaya o dərəcədə ciddi yanaşırıq ki, Dövlət katibi Antoni Blinken bu məsələni Azərbaycan Prezidenti İlham Əliyevlə telefon söhbətində qaldırıb və ondan bu missiyanı dəstəkləməsini istəyib. Bundan sonra Bakı bu ideyanı dəstəklədiyini bildirdi. İndi biz müttəfiqlərimiz və tərəfdaşlarımızla layihəni həyata keçirməyin ən yaxşı mexanizmi üzərində işləyirik. Amma bu zaman şəffaflığın təmin edilməsini və yerlərdə humanitar tələbatın ödənilməsini vacib sayırıq".

Az qala sovet dövrünə aid plan, öhdəlik, qarşıda duran vəzifələrdən danışırmış kimi çinovnik ritorikasından yararlanan Metyu Miller jurnalistin Azərbaycan XİN-in Qarabağ ermənilərinə çoxmillətli Azərbaycan cəmiyyətinin bir hissəsinə çevrilmək çağırışına Birləşmiş Ştatların necə yanaşması barədə sualını yenə də "Dağlıq Qarabağ" terminindən çıxış edərək cavablandırmağa çalışıb:

"ABŞ əvvəlki kimi Dağlıq Qarabağdakı (?) humanitar vəziyyətə görə çox narahatdır. Biz indiki halda hesab edirik ki, Dağlıq Qarabağın (?) sakinləri istəsələr, getsinlər, əgər qayıtmaq istəsələr, geri dönsünlər. Bu qərarı onların hər biri fərdi şəkildə qəbul etməldir. Amma biz bir məsələni vacib sayırıq ki, onlar öz qərarlarını sərbəst şəkildə qəbul etməlidirlər. Ehtiyac içində olan əhali isə zəruri humanitar yardımı almalıdır. Məhz bundan, ən yüksək nəticəyə nail olmaqdan ötrü beynəlxalq missiyanın yaradılması vacibdir". Beləliklə, Dövlət Departamentinin rəsmisi iki gün əvvəl dediklərini təkrarlamaqla kifayətlənib.

### Ekspert qrupu bölgəyə səfər edə bilər

"Azərbaycan yaxın günlərdə BMT missiyasını Qarabağa buraxmaq niyyətindədir". Bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "CBC Nyus"a müsahibəsində deyib. Rəsmi Bakının Qarabağın erməni sakinlərinin ərazidə qalmasını arzuladığını bildirən H.Hacıyev Azərbaycanın onları təhlükəsiz və daha yaxşı yaşayış şəraiti ilə təmin etmək istiqamətində hərtərəfli planının olduğuna diqqəti yönəldib: "Ancaq istəyəcəkləri təqdirdə ərazini tərk etməkdə də sərbəstdirlər. Azərbaycanın Qarabağdakı erməni sakinləri oranı tərk etməyə məcbur etmək kimi bir planı olmayıb və hazırda da yoxdur. Əksinə, Azərbaycan Qarabağda qaldıqları təqdirdə onların təhlükəsizliyinə tam zəmanət verdiyini bildirib. Biz onların qalmağını istərdik. Azərbaycan onlara təhlükəsizliklərinin təmin ediləcəyi ilə bağlı çağırışları davam etdirir. Amma biz ermənilərin hərəkət sərbəstliyini də dayandıra bilmərik. Bu, ərazidəki hər kəsin şəxsi seçimidir".

Azərbaycan Prezidentinin köməkçisi, həmçinin Ermənistan baş naziri Nikol Paşinyanın qondarma qurumla bağlı bəyanatında "etnik təmizləmə" ifadəsini işlətməsini "təhqir" adlandırıb: "Təəssüf ki, biz dezinformasiya elementlərinin çoxluğunu görürük. Azərbaycan heç vaxt etnik təmizləmə həyata keçirməyib və keçirməz. Ərazidə dinc sakinlərə qarşı güc tətbiq etmək kimi bir vəziyyət də mövcud deyil". Prezidentin köməkçisi bildirib ki, Azərbaycan hökuməti avtomobili olmayan erməni sakinlərin kömək istəməsindən sonra Xankəndiyə avtobuslar göndərib: "Amma insanlar avtobuslara minməyə məcbur edilmirlər. Azərbaycan əlindən gələni edir və elə bir yol təşkil edəcək ki, mülki insanlar təhlükəsiz şəkildə seçdikləri istiqamətə gedə bilsinlər".

### Baxın və müqayisə edin!

İnternetdə, sosial şəbəkədə Qarabağdan könüllü surətdə köçən ermənilərin Bakının onlar üçün yaratdığı şəraitdən, göstərdiyi yardımdan razılıqlarının əks olunduğu video-kadrlar kifayət qədərdir. Həmin səhnələrə baxanda yadımıza otuz beş il əvvəl Ermənistandan qovulan soydaşlarımızın başına gətirilən müsibətlərin də yer aldığı video-xronika düşür. O zaman 200 mindən artıq azərbaycanlı Qərbi Azərbaycandakı doğma yurdlarından hər şeyi əllərindən alınmış, döyülmüş, alçaldılmış vəziyyətdə, nimdaş paltarda qovuldular. İndi ermənilərin halına yanaraq beynəlxalq missiyadan danışan Qərb missionerlərinə həmin kadrları yanaşı qoyub müqayisə etmələri gərəkdir.

Yeri gəlmişkən, haqqında danışdığımız erməni vandalizmi məsələsinə Azərbaycan Prezidenti İlham Əliyev dünən Zəngilanda keçirilən 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimindəki çıxışında toxunub. Dövlətimizin başçısı bunları söyləyib: "Otuz il ərzində bir milyondan çox azərbaycanlı evlərindən didərgin salınıb. Onların 200 mindən artığı hazırkı Ermənistan ərazisindən sürgün edilib. Bizim şəhərlərimiz, kəndlərimiz darmadağın edilib. 30 il ərzində işğalçı qüvvələr bizə buraya qayıtmağa imkan vermirdi". Yenidən Prezidentin köməkçisi H.Hacıyevin məlum müşahidə missiyası ilə bağlı "CBC Nyus"a verdiyi açıqlamasına qayıdırıq. O, müsahibəsində vurğulayıb ki, Azərbaycan bir neçə gün ərzində BMT-nin beynəlxalq ekspert qrupunu mediaya çıxış imkanı ilə birlikdə əraziyə buraxmaq niyyətindədir. Yəni, hansısa beynəlxalq ekspertlərin və ya emissarların Azərbaycanın suveren ərazisində uzunmüddətli monitorinq qrupu kimi fəaliyyət göstərməsindən söhbət gedə bilməz. Bunu bir dəfə yazmışıq, yenə təkrar edirik: reallığı yerində öz gözləri ilə görmək, haqqı nahaqdan ayırmaq istəyənlərin üzünə qapılarımız açıqdır. Təki ədalət hissini itirməsinlər.

### Köç üzərində çirkli kampaniya

Qarabağdan Ermənistana istiqamət götürən ermənilərin heç bir halda paytaxt İrəvana buraxılmaması barədə göstəriş vermiş Nikol Paşinyan yaxın



günlərdə Qarabağda bir ermənının də qalmayacağını bildirib. Onların statistikasına əsasən, sayı 100 minə yaxınlaşan köçkünlərə görə Azərbaycanı "etnik təmizləmədə" ittiham etməyə çalışan Ermənistan iqtidarının bu xarakterli açıqlamalarının arxasında duran səbəblərdən biri Bakıya qarşı beynəlxalq səviyyədə kampaniya təşkil etmək planının dayandığını söyləyənlər az deyil. Həmin kampaniyada əsas motivlərdən biri kimi "deportasiya", "etnik təmizləmə" iddialarından istifadə olunacağı şübhə doğurmur. Ekspertlərin bir qismi belə fərz edir ki, İrəvan bununla Bakının Qərbi Azərbaycan, azərbaycanlıların öz yurdlarına qayıtması məsələsini sülh danışıqları masasına çıxarmasına qarşı "əks-arqument" hazırlayır.

Bəs, Qarabağdakı sıravi ermənilərin Xankəndidəki xunta rejiminin zülmü barədə dedikləri necə olsun? Bakının verdiyi işığa, qaza, ərzağa sevinən bu sakinlərin rəyi nəzərə alınacaqmı? Bütün bunlar Ermənistanın "etnik təmizləmə", "deportasiya" iddiaları üzərindən irəli sürəcəyi ittihamlara qarşı tutarlı arqumentlərdir. Hər şeydən göründüyü kimi, İrəvan yersiz və arqumentsiz iddialarını beynəlxalq platformalara çıxarmağa nail olsa belə, onun hansısa nəticəni əldə edə biləcəyi ehtimalı sıfıra bərabərdir.

Mövzuya yekun olaraq onu da oxucularımızın diqqətinə çatdıraq ki, Paşinyan iqtidarı üçün başqa bir başağrısı son günlər ABŞ-Ermənistan münasibətlərində yeni səhifənin açılması, birgə hərbi təlimlər, yüksək çinli ABŞ siyasilərinin, dövlət xadimlərinin İrəvana səfərləri ilə bağlıdır. Çünki bu davranışlar onun Tehranla təmaslarına ciddi şəkildə təsir göstərib. Vaşinqtonun timsalında Qərblə münasibətlərində yeni mərhələyə qədəm qoyduğu deyilən Ermənistanı qarşıda Moskva ilə də ağır dialoqun gözlədiyini proqnozlaşdıra bilərik. Əslində, Vaşinqtonun əsas məqsədinin regiondan Rusiyanı sıxışdırıb çıxarmaq olsa da, bunu erməni ictimaiyyətinə müttəfiqlik əlaqələri kimi anladırlar. Bəli, Vaşinqton–İrəvan yaxınlaşması Tehranda qıcıqla qarşılanır. Aydın məsələdir ki, semitizmin dəstəkçisi kimi özünə düşmən saydığı ABŞ-ın sərhədində boy verməsi İranın əsəblərini yerindən oynadır. Əgər hadisələr bu məcrada davam edərsə, İran-Ermənistan münasibətlərində gərginliyin yaranacağı və rəsmi İrəvanın Rusiya ilə yanaşı, İran kimi müttəfiqini və havadarını itirmək təhlükəsi ilə üzləşəcəyi şəksizdir. Və Ermənistanın başbilənləri çox güman ki, məhz o zaman indi Bakıdan və Ankaradan səslənən əməkdaşlıq çağırışlarının dəyərini anlayacaqlar. Amma onda gərək qatar gözdən itmiş olmasın...

***İmran BƏDİRXANLI***
***XQ***

---

# Roma statutunun ratifikasiyası Ermənistana nə vəd edir?

**"Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutunu ratifikasiya etməsi qəbuledilməzdir. Bunun ikitərəfli münasibətlər üçün mənfi nəticələri olacaq". Rusiya Xarici İşlər Nazirliyi Ermənistanın beynəlxalq hüquqi məsələlər üzrə nümayəndəsi Yeqişe Kirakosyanın İrəvanın Roma Nizamnaməsinin ratifikasiyası ilə bağlı məsələlərin həlli üçün ikitərəfli saziş imzalamaq təklifini belə şərh edir. İrəvan Rusiyanın belə kəskin reaksiyasının "heç bir əsası olmadığını" iddia edərək, Roma statutunun ratifikasiyanı ikitərəfli münasibətlərə zərər vurmayacağını vurğulayır. Amma şimaldan gələn sərt bəyanatlar belə düşünməyə əsas vermir.**

Ermənistan və Rusiya arasında münasibətlər sürətlə pisləşir. Azərbaycan Silahlı Qüvvələrinin sentyabrın 19-da uğurla həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra Ermənistan açıq-şəkildə Rusiyadan narazılığını açıqlayır. Baş nazir Nikol Paşinyan idda edir ki, "Rusiya sülhməramlı qoşunları üzərinə düşən vəzifəni yerinə yetirmədi". Buna cavab olaraq, Rusiya Xarici İşlər Nazirliyi erməni baş naziri kəskin tənqid edərək, onun sözlərini "Rusiyaya qarşı qəbuledilməz eyhamlar" kimi qiymətləndirdi. Nazirliyin bəyanatında deyilir ki, Rusiya "daxili və xarici siyasətdəki uğursuzluqlara görə məsuliyyəti Moskvanın üzərinə atmaq cəhdinin" şahidi olur. Nazirlik Ermənistan liderini Qərbin təsiri altında ölkəsinin Rusiya ilə əlaqələrini pozmağa çalışmaqda da ittiham etdi. Rusiyada da gözəl anlayırlar ki, Ermənistan indi Moskvadan tam asılı qalmamaq üçün təhlükəsizlik siyasətini şaxələndirməyə çalışır. N.Paşinyan Qərb mətbuatına müsahibəsində iddia etmişdi ki, guya, Rusiya Cənubi Qafqazı tərk edir. Moskva Ermənistan rəhbərliyinin son bəyanatlarından son dərəcə narazı olduğunu gizlətmədi və İrəvanın səsləndirdiyi bəyanatların ton və məzmun baxımından qəbuledilməz hesab etdiyini açıqladı.

Əlbəttə, N.Paşinyanın son müsahibəsi şimal qonşumuzda ciddi qarşılandı, lakin bu, iki ölkə arasında fikir ayrılığının yeganə səbəbi deyil. Xatırladaq ki, sentyabrın əvvəlində Ermənistan Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma Əsasnaməsini ratifikasiya üçün parlamentə göndərmişdi. İrəvan ümid edir ki, məhkəməyə qoşulmaq "Azərbaycanın hərbi cinayətləri" məsələsini qaldırmağa imkan verəcək. Layihə Ermənistan parlamentinin növbəti iclaslarının gündəliyinə salınacaq. Müzakirələr zamanı Ermənistan parlamentinin dövlət və hüquq məsələləri daimi komitəsinin sədri Vladimir Vardanyan bildirib ki, "bu sənəd, əslində, Ermənistan konstitusiyasının preambulasından irəli gəlir, burada biz ümumbəşəri dəyərlərə sədaqətli olduğumuzu təsdiq edirik". Erməni komitə sədrinin sözlərinə görə, "bu, bir sənəddir, müxtəlif nöqteyi-nəzərdən təhlil edildikdə, onu Ermənistan və ermənilərlə əlaqələndirməmək mümkün deyil: "Məncə, kökü erməni xalqının dərdindən qaynaqlanan sənədi ratifikasiya etmək təkcə hüquqi və siyasi öhdəlik deyil, həm də mənəvi borcdur". Bu sözləri növbəti erməni həyasızlığının bariz nümunəsi kimi qiymətləndirmək olar. Azərbaycan türklərinə qarşı çoxsaylı vəhşiliklərə yol verən xalqın nümayəndəsi öhdəlik və mənəvi borcdan dəm vurur.

Təbii ki, Ermənistanın bu sayıqlaması Moskvanı razı salmır. Məsələ ondadır ki, bu ilin martında BCM Rusiya Prezidenti Vladimir Putinin həbsinə order verdiyindən İrəvanın da bu istiqamətdə atdığı addımlar Moskvanın mənfi reaksiyasına səbəb olur. Məlumdur ki, Rusiya tərəfi bu təşəbbüslə bağlı Ermənistandan izahat tələb edir. Rusiya Xarici İşlər Nazirliyindən RİA Novosti-yə verilən məlumata görə, Ermənistan tərəfindən BCM-nin Roma Əsasnaməsini ratifikasiya etmək qərarı ikitərəfli münasibətlər üçün ciddi mənfi nəticələrə səbəb olacaq. Bundan əlavə Rusiya XİN-nin bəyanatında qeyd olunur ki, "İrəvanın ikitərəfli saziş bağlamaq təşəbbüsü nəzərdən keçirildi, Moskva hər iki tərəfə uyğun ola biləcək kompromis variantı təklif etdi". Rusiya XİN-i vurğulayır ki, "Təəssüf, bu, nəzərə alınmadı və əvəzində Ermənistanda Roma Nizamnaməsinin ratifikasiyası lehinə siyasi qərar qəbul edildi". RF Xarici İşlər Nazirliyi hesab edir ki, "Ermənistan nümayəndələrinin BCM-ə qoşulmasının Rusiya-Ermənistan əlaqələrinə heç bir təsir etməyəcəyi ilə bağlı irəli sürdüyü tezis reallığa uyğun gəlmir. Ən azı, Rusiya rəhbərliyinin respublikaya səfərini təsəvvür etmək çətindir". Rusiya departamenti qeyd edir ki, "Moskva Ermənistan Milli Assambleyasında Ermənistan-Rusiya münasibətləri üçün açıq-aşkar zəhərli qərara "möhür" vurmayacaq ayıq düşüncəli qüvvələrin olacağına ümid edir".



Bundan başqa, Ermənistan KTMT-dəki daimi nümayəndəsi Viktor Biyaqovu geri çağırdı. O, Hollandiyaya səfir vəzifəsinə göndərildi. Bu da təsadüfi deyil. çünki BCM-in qərargahı məhz Hollandiyada yerləşir. Eyni zamanda, KTMT-yə yeni daimi nümayəndənin təyin olunması ilə bağlı hələlik məlumat verilmir. Ermənistan parlamentinin xarici əlaqələr komissiyasının rəhbəri, hakim "Mülki müqavilə" partiyasından olan deputat Sarkis Xandanyan bildirir ki, İrəvan "təhlükəsizlik və müdafiə sahəsində digər həmkarları ilə əməkdaşlığa açıqdır". Bunun fonunda Ermənistan müdafiə nazirliyi sentyabrın 11-dən 20-dək ölkədə ABŞ-la "Eagle Partner 2023" birgə hərbi təlimlərini keçirdi. Halbuki cari ilin yanvarında İrəvan KTMT-nin təlimlərinə ev sahibliyi etməkdən imtina edərək, onların yersiz olduğunu bildirmişdi. Kreml Ermənistan-ABŞ manevrlərinin "regionda qarşılıqlı etimad mühitinin möhkəmlənməsinə töhfə vermədiyini" vurğuladı. Bundan əlavə, sentyabrın əvvəlində Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan Kiyevə səfər etməsi və burada birinci xanımların və həyat yoldaşlarının sammitində iştirak etməsi Rusiyada qəzəblə qarşılandı. Tədbir zamanı o, prezident Vladimir Zelenski ilə görüşdü, həmçinin Ukrayna hakimiyyətinə humanitar yardım - min ədəd smartfon və planşet hədiyyə etdi. Rəsmi versiyaya görə, həmin qadcetlər məktəblilərin onlayn tədrisi üçün faydalı olacaq. Ancaq Rusiya mətbuatı ehtimal edir ki, Kiyevə aparılan həmin qadcetlər Ukrayna ordusuna başqa məqsədlər üçün də faydalı ola bilər.

Moskva və İrəvanın ayrı-ayrı nümayəndələri arasında da münasibətlər gərginləşir. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova ilə Ermənistan parlamentinin spikeri Alen Simonyan arasında qızğın müzakirə getdiyini bütün dünya izlədi. M.Zaxarova Rusiya sülhməramlılarının işinin müzakirəsi zamanı bildirdi ki, bəzi erməni həmkarlarının ritorikası kobudluğa bənzəyir. Buna cavab olaraq ermeni spikeri dedi ki, o, "hansısa şöbənin katibəsinə" cavab vermək fikrində deyil. Rusiya Xarici İşlər Nazirliyi bu açıqlamaya sərt reaksiya verdi və Ermənistan səfirinə etiraz notası təqdim olundu. Bu, SSRİ-nin dağılmasından sonra Rusiyanın müttəfiq saydığı Ermənistana verdiyi ilk nota kimi tarixə düşdü. Rusiya mətbuatı yazır ki, ikitərəfli münasibətlərdəki bütün çətinliklər ictimaiyyətə açıqlanmır. Belə iddia olunur ki, dövlət və diplomatik aparatların orta səviyyəsində əlaqələr inkişaf etmir. Rusiya KİV-i qeyd edir ki, ictimaiyyət bunu görmür, amma məsələ daha ağrılıdır. Məhz bu səviyyədə bir çox məsələlər öz həllini tapır. Ciddi nəsə deyiləndə orta səviyyəli məmurlar bir-birinə zəng edir, müzakirə aparır, əlaqə qurur və narazılıq doğuran məqamları aradan qaldıra bilirlər. Rusiya mətbuatının iddiasına görə, indi bu mexanizmlər, demək olar, işləmir.

İndi həm Rusiyada, həm də Ermənistanda münasibətlərin hərəkət trayektoriyasını müəyyənləşdirməyə çalışırlar. ATƏT-in Minsk qrupunun keçmiş amerikalı həmsədri, Kentukki Universitetinin Patterson Diplomatiya Məktəbinin professoru Kerri Kavano "News.am" saytına müsahibəsində bildirir ki, Rusiya ilə münasibətlərinin necə olacağına Ermənistan özü qərar verməlidir. Onun fikrincə, ABŞ və Ermənistan arasında münasibətlər sabitdir və onların strukturunda köklü dəyişiklik yoxdur. ATƏT-in Minsk Qrupunun keçmiş amerikalı həmsədri Ermənistanın xarici siyasət istiqamətlərini dəyişmək və Rusiyadan "uzaqlaşmaq" qərarına gəlib-gəlməməsi, ABŞ və ya digər Qərb dövlətlərinin Ermənistana onun təhlükəsizliyinin təmin edilməsi ilə bağlı təminat verib-verməyəcəyi sualını belə cavablandırıb: "Bu, cavab verə bilməyəcəyim nəzəri sualdır. Düşünürəm ki, indi diqqəti ölkənin üzləşdiyi problemlərə yönəltmək daha vacibdir".

Göründüyü kimi, Rusiya–Ermənistan münasibətləri yolayrıcındadır. İrəvan Rusiya çətirindən imtina etmək istəyir, amma Moskva geriyə addım atdım atmaq fikrində olmadığını bildirir. Mütəxəssislər də bildirirlər ki, Ermənistanda Rusiyanın təsiri güclü olaraq qalır. Rusiyanın Ermənistanda hərbi mövcudluğu, iqtisadi əlaqələri var və Moskva Azərbaycanla danışıqlarda Ermənistan üçün əsas vasitəçidir. Amma istənilən halda Rusiya ilə Ermənistan arasında münasibətlər çətin mərhələyə qədəm qoyur. Rusiyalı mütəxəssislərin fikrincə, indi münasibətlərin gələcəyi tərəflərin bir-birinin problemlərini adekvat şəkildə başa düşməsindən asılıdır. Əks halda, itkilərin qarşısını almaq mümkün deyil.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Ermənistan və havadarları Qranada sammitinə qarşı

*İrəvanın sülhdən uzaq ritorikası revanşist və şovinistləri hərəkətə gətirir*

(əvvəli 1-ci səhifədə)

Sülh prosesinə gəlincə, məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyanın bu il oktyabrın 5-də Avropa Siyasi Birliyinin Qranadada keçiriləcək üçüncü sammiti çərçivəsində Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə görüşü planlaşdırılır. Görüşdə, həmçinin Fransa prezidenti Emmanuel Makronun, o cümlədən, Almaniya Kansleri Olaf Şoltsun iştirakı nəzərdə tutulur. Bununla bağlı razılıq Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Brüsseldə bu günlərdəki təması zamanı əldə olunub.

Hazırda belə görüntü var ki, Azərbaycan və Ermənistan liderlərinin oktyabrın 5-də keçirilməsi planlaşdırılmış Qranada sammitini pozmaq istəyən qüvvələr var. Onların "aktivliklərinin" pik həddə çatdığı müşahidə edilməkdədir. Belə ki, oktyabrın 1-də Brüsselin Robert Şuman meydanında "Avropalılar Artsax naminə" hərəkatı geniş ümumavropa mitinqi təşkil etmək niyyətindədir. Məqsəd həm də "Bakının törətdiyi etnik təmizləmə və soyqırımı siyasətini pisləməkdir". Bununla bağlı xəbərdə aksiyanın oktyabrın 5-də Avropa Siyasi Birliyinin üçüncü Zirvə toplantısı ərəfəsinə salınması xüsusi vurğulanır. Erməni şovinistləri, lobbi və diaspor təşkilatları sammitin işini pozmağa səy göstərirlər.

Ümumavropa aksiyasının daha bir məqsədi isə "10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın öhdəliklərini yerinə yetirməsi üçün Azərbaycana təsirli təzyiq göstərilməsinə" nail olmaqdır. Təşəbbüs təşkilatçıları bu məqsədlə Avropa İttifaqına müraciət ünvanlamaq fikrindədirlər. Bundan başqa mitinqdə Aİ-nin Qarabağın Azərbaycana reinteqrasiyasına davamlı siyasi dəstəyindən narazılıq ifadə olunacaq. Ən əsası isə mövcud "təşəbbüs" qurum qarşısında "Azərbaycanda davam edən etnik təmizləmə siyasəti kontekstində Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə hüququnu" ontoloji məsələ kimi tanımaq tələbini qaldıracaq. Deməli, İrəvan və dəstəkçiləri separatçılıqdan əl çəkmək niyyətindən uzaqdırlar.

"Avropalılar Artsax naminə" hərəkatının təşkilatçıları, eyni zamanda, hesab edirlər ki, Aİ-nin ölkəmizin reinteqrasiya siyasətinə dəstəyi Qarabağ ermənilərinə qarşı soyqırımı siyasətinə töhfədir. Yəni, ortada belə bir cəfəngiyyat da var. Aksiyanın, həmçinin Rusiya sülhməramlılarının Qarabağ ermənilərinin təhlükəsizliyini təmin etmək üzrə öhdəliklərini, guya, yerinə yetirməmələrindən narazılığın ifadə edilməsinə yönəldiyi bildirilir. Deməli, Paşinyan iqtidarının anti-Rusiya mövqeyi dünya erməniliyinə də sirayət etməkdədir.

Qeyd edək ki, oxşar aksiyaların eyni gündə bir sıra digər Avropa ölkələrində də keçiriləcəyi deyilir. Bu ölkələr sırasında Avstriya, İsveç, Fransa, Danimarka, Bolqarıstan, Yunanıstan, Kipr, Slovakiya, Almaniya və Çexiya var. Ümumən, "Avropalılar Artsax naminə" təşəbbüsünə Avropanın erməni icmalarından və "köhnə qitə"nin 500-dən çox təşkilatından nümayəndələr daxildir.

Göründüyü kimi, erməni avantürizmi özünün məkrindən qalmaq bilmir. Bunun anti-Azərbaycan məqsədi daşıdığını vurğuladıq. Ancaq bu məqsədin fonunda digər məsələlər də var. Məsələn, Aİ-nin şantaj edilməsi, onun nüfuzunun ləkələnməsi. Məlumdur ki, Ermənistan və havadarları indiyədək də bu yolu tutublar. Onların öz maraq və mənafeləri naminə BMT kimi nüfuzlu qurumu gözdən salmaq niyyətləri heç bir ayın söhbəti deyil. Təşkilatın Təhlükəsizlik Şurasının Qarabağda humanitar böhran və etnik təmizləmə iddiası ilə bağlı avqustun 16-da və sentyabrın 21-də keçirdiyi iclaslar tam bir fiasko səhnəsi idi. Şantajların və böhtanların səbəbi də elə bu fiasko yaşantısı ilə bağlıdır.

Bundan başqa, Qarabağdakı lokal xarakterli antiterror tədbirlərindən ABŞ da erməni şantajına məruz qalırdı. Elə rəy formalaşdırılırdı ki, guya, Birləşmiş Ştatlar Administrasiyası Qarabağda erməni soyqırımına biganə yanaşır, onun qarşısını almağa səy göstərmir. Bu gedişlər, təbii ki, separatçı rejimin saxlanılması rəhbər tuturdu.

Amma hazırda qondarma "DQR" yoxdur və erməni avantürizmi sanki bu acınacaqlı və rüsvayçı aqibətin qisasını dünyadan almaq kimi məkrli oyuna baş vurmaqdadır. Görünür, beynəlxalq ictimaiyyətin ona borclu olduğu qənaətindədir. Əslində, gerizəkalıların belə düşünmələri mümkündür. Çünki həmin dairələrdir 200 illik erməni layihəsinin müəllifləri. Məhz həmin dairələrdir zaman-zaman erməni millətçiliyinin körüklənməsində "fəal" rol oynayanlar. Ona görə erməni avantürizmi yaxalarından tutub və buraxmaq bilmir.

Dahi şairimiz Mirzə Ələkbər Sabirin təbirincə, desək, çərxi-fələk tərsinə dövran edir indi. Bu durumu formalaşdıran isə Azərbaycandır. Bəli, Prezident İlham Əliyevin dünən Zəngilanda keçirilmiş 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində bildirdiyi kimi, artıq ərazilərimizdə "boz" zonalar, qeyri-qanuni strukturlar yoxdur və torpaqlarımızda separatçılığa son qoyulub. "Bu, bizim güclü siyasi iradəmizin göstəricisidir", – deyən cənab İlham Əliyev əlavə edib ki, baş verənlər, eyni zamanda, Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olduğunu göstərir.

Haqqında söz açdığımız mövzudan, eləcə də baş nazir Nikol Paşinyan administrasiyasının hazırkı mövqeyindən görünən isə budur ki, siqnal rəsmi İrəvana çatmır. Yəqin, ona görə Azərbaycan Prezidenti elə həmin forumdakı çıxışında bunu da bildirir: "Bizim səbrimizlə oynamasınlar. Biz səbirliyik, ancaq qətiyyətliyik. Biz haqlı olduğumuzu sübut edə bilirik və edirik. Ona görə yox ki bizim gücümüz var, çünki haqq-ədalət bizim tərəfimizdədir".

Ə.CAHANGİROĞLU
XQ

# BMT-nin müvafiq qurumları Qarabağ bölgəsinə səfərə dəvət edilir

**Məlum olduğu kimi, Ermənistan tərəfi uzun müddət ərzində Azərbaycan ərazilərinin işğalı zamanı işğal, dağıntı, qanunsuz məskunlaşmalar daxil olmaqla, qanunsuz fəaliyyətin nəticələri ilə yerində tanış olmaq məqsədilə beynəlxalq missiyaların işğal olunmuş ərazilərimizə səfərini hər zaman əngəlləyib və ya məhdudlaşdırıb. Eyni zamanda, hətta məhdud missiyalardan sonra belə Ermənistan onların gəldiyi nəticələrə ya məhəl qoymayıb, ya da onları təhrif edib.**

XQ xəbər verir ki, bunu XİN-in mətbuat katibi Ayxan Hacızadə bildirib.

"Qeyd olunan fəaliyyətsizliyə baxmayaraq, bir neçə gün əvvəl aparılan antiterror tədbirlərindən sonra Azərbaycan BMT-nin müvafiq qurumlarını Qarabağ bölgəsinə səfərə dəvət edib. Belə bir səfər yaxın günlərdə BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisinin himayəsi altında, BMT ilə Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədinə (2021-2025) uyğun olaraq həyata keçiriləcək.

Səfər Azərbaycanın regionda həyata keçirdiyi cari humanitar fəaliyyət ilə tanış olmaq imkanı yaradacaq. Bundan əlavə, müəyyən infrastrukturun bərpası, qeyri-qanuni erməni silahlı qüvvələrinin tərk-silahı və silah-sursatının müsadirə edilməsi prosesi, minalardan yaranan təhlükələr heyətin üzvlərinə nümayiş etdiriləcək", – deyə Azərbaycan XİN rəsmisi diqqətə çatdırıb.

# Davit Manukyan həbs edildi

**Azərbaycan Respublikasının Rusiya sülhməramlılarının müvəqqəti dislokasiya olunduğu ərazilərində qanunsuz erməni silahlı birləşmələrinin törətdikləri və insanların həlak olması ilə nəticələnmiş çoxsaylı terror aktları ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətində ibtidai istintaq davam etdirilir.**



Əldə olunmuş sübutlar əsasında, Ermənistan Respublikasının vətəndaşı, 1971-ci il təvəllüdlü Davit Azati Manukyan tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1, 214.2.2, 214.2.3 (mütəşəkkil dəstə tərəfindən təkrar terrorçuluq), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, saxlama və daşıma), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr və qruplar yaratma) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələrində ehtiva olunan cinayət əməllərinin törədilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

İttihama əsasən, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda erməni silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisindən çıxarılmasının nəzərdə tutulmasına baxmayaraq, Ermənistan Respublikasında anadan olmuş və orada pasport qeydiyyatında olan, həmin ölkənin vətəndaşı, silahlı qüvvələrinin hərbi qulluqçusu, general-mayor ali hərbi rütbəsində xidmət edən Davit Manukyan ötən müddət ərzində Azərbaycan Respublikasının Qarabağ ərazisində cinayət əməllərini davam etdirərək, qondarma "Dağlıq Qarabağ Respublikasının müdafiə ordusu komandanının birinci müavini" adı altında Azərbaycan Respublikasının ərazisində qanunsuz mütəşəkkil silahlı birləşmələrin fəaliyyətinin təşkilində və idarə edilməsində, silah-sursat, partlayıcı maddə və qurğularla təchizatında iştirak etmişdir.

Eyni zamanda o, həmin terrorçu dəstələr vasitəsilə Azərbaycanda ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına, əmlakına ziyan vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlərlə müşayiət olunan terror aktlarının törədilməsinin təşkilində iştirak etmişdir.

Davit Manukyan 27 sentyabr 2023-cü il tarixində saxlanılaraq təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb edilmiş, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri aparılır.

XQ

# Mnatsakanyan da saxlanıldı

**Lyova Henrixi Mnatsakanyan Azərbaycandan Ermənistan istiqamətində hərəkət etməyə cəhd göstərərkən saxlanılıb.**

Bu barədə Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzindən məlumat verilib.

Belə ki, sentyabrın 29-da "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsində DSX əməkdaşlarının sayıqlığı nəticəsində Azərbaycan Respublikası ərazisinə qeyri-qanuni gələrək 2015-2018-ci illərdə qondarma "Dağlıq Qarabağ Respublikasının müdafiə naziri" vəzifəsində çalışmış 1965-ci il təvəllüdlü Lyova Henrixi Mnatsakanyan Azərbaycandan Ermənistan istiqamətində hərəkət etməyə cəhd göstərərkən saxlanılıb.

Saxlanılan şəxs Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkət Qüvvələri əməkdaşlarının müşayiəti ilə Bakı şəhərinə gətirilib və barəsində müvafiq qərar qəbul edilməsi üçün aidiyyəti dövlət orqanlarına təhvil verilib.

XQ

KÖŞƏ

# Timsahın göz yaşları

## Bizi köç yaratmağa da qoymamışdılar

**Timsahın göz yaşları. Yəqin bu ifadənin hansı anlam daşıdığını bilməyən olmaz. Hər halda xatırladaq. Timsah öz şikarını yeyəndə gözləri yaşarır. İndi dünyanın müxtəlif ölkələrindən Qarabağda başlanmış erməni köçünə münasibətə diqqət yetirərkən, göz önündə, istər-istəməz, həmin səhnə canlanır. Amma "timsahlar"ın sayı çoxdur və hər biri əbədi və əzəli Azərbaycan torpaqlarındakı ev-eşiyini qoyub Ermənistana gedənlərin halına "göz yaşı" axıdır. Sual doğur: Olmazdımı ki, bu boyda həngamə yaşanmasın?**

Əlbəttə, mümkün idi. Bəs, bunun baş verməməsi üçün nə lazım idi? Ədalət, ədalət və yenə də ədalət! Bəli, dünyanın lap əvvəldən ədalətli davranmasına ehtiyac duyulurdu. Amma... Bu gün Qarabağı tərk edən ermənilərin sayı ilə bağlı müxtəlif rəqəmlər səsləndirilir. 40, 50, 80 min. Əlbəttə, şişirtmələr də var. Bu rəqəmlər və eləcə də uzun köç səhnələri, heç bir halda, Ermənistanın təcavüzü nəticəsində öz evlərindən didərgin düşmüş və doğma yurda dönmək həsrətini bu gün də sürdürən azərbaycanlıların bir milyonluq sayına çata bilməz. Məsələ ondadır ki, həmin bir milyonluq sayın belə köç karvanı yaratmasına imkan və şərait yaradılmamışdı. Onlar pərən-pərən salınmışdılar. Görəsən, "timsahlar" onda harada idilər?



Əvəz RÜSTƏMOV
evez.rustemov@gmail.com

Dostum Yalçın deyir ki, nənəsi Zəngilandan çıxıb erməni zülmündən canını qurtarmaq üçün Arazı traktor təkərinin kamerində İran ərazisinə keçmişdi. Yalçının nənəsi kimilər minlərdir. Xocalı dəhşətini görmüş bir nəsil canını kamerlərdə Araz çayından İrana keçməkdə, oradan təhlükəsiz şəraitdə Azərbaycana yön almaqla qurtarmışdı. Sonra o nəsil paytaxt Bakıda və ölkəmizin müxtəlif yerlərində qurulmuş çadır şəhərciklərində yaşamalı oldu. Kimisi doğma yurd həsrətinə dözə bilməyib canını tapşırdı, kimisi sağalmaz xəstəlik tapdı. Bir sözlə, çoxsaylı məşəqqətlər yaşandı...

*

Çadır şəhərciklərində, vaqonlarda dünyaya yeni nəsillər gəldi. Bu nəsillər doğulub öz çadır evinin içərisinə yağış suları dolmuş vəziyyətdə, yaxud, bumbuz vaqonlarda titrətməyin dəhşətini yaşadı. Belə səhnələrin necə böyük məhrumiyyət olduğunun fərqinə varmayanlar ordusu yetişdi. Bu, bəzi monarxist üsul-idarələrdə üç nəslin cəzasını çəkən insanların həbsxanada doğulması və həbs düşərgəsində kənar həyat barədə təsəvvürsüzlüyü qədər dəhşətli bir şeydir. Bilinmir, orada həqiqətən belə hal olub, ya yox, ancaq məlumdur ki, Qərb təbliğat institutları bir sıra rejimlərə qarşı mübarizə çərçivəsində effektiv insan dramı hazırlamağı yaxşı bacarmışdılar. Çox güman ki, Qarabağ ermənilərinə münasibətdə də oxşar səhnələr qondarılacaq, sentimentallıq notlarına köklənəcəklər. Görəsən, niyə Azərbaycan xalqının dramına biganə yanaşdılar? Çünki niyyətləri özgə idi...

Bəli, bu gün Qarabağdan köç edən ermənilərin durumunu faciə kimi qiymətləndirmək yolu tutanlar, sanki, növbəyə dayanıblar. Bilərəkdən növbəti erməni avantürasının formalaşmasında iştirak edirlər. Nəinki iştirak edirlər, əməli-başlı canfəşanlıq göstərirlər. Əslində, istinad etməyi xoşladıqları insan hüquq və azadlıqları ilə bağlı müxtəlif sənədlər onlar üçün adi kağız parçasından başqa bir şey deyil. Belələri hər cür insani dəyərlərdən uzaqdırlar. Amma həmin dəyərlərə manipulyasiyanı son dərəcə gözəl bacarırlar.

*

Qətiyyətlə demək olar ki, Qarabağda hazırda yaşanmaqda olan hay köçü erməni avantürizminin yeni məkrli oyunudur. Bu oyun həm də ona yönəlib ki, Azərbaycan və erməni xalqı birlikdə, sülh şəraitində yaşamasın, həmişə bir-birinə qarşı kin və nifrət bəsləsinlər, ədavət üçün fürsət gözləsinlər. Başqa cür düşünməyə əsas yoxdur. Axı, Azərbaycan hakimiyyətinin təmsilçiləri bəyan ediblər ki, bölgə erməniləri vətəndaşlarımızdır. Onlar öz yurd-yuvalarına qalıb ölkəmizin qanunları ilə yaşayıb, ömür sürə bilərlər. Bunu anlamaq çoxmu çətindir? Ancaq məqsədli şəkildə anlamaq istəməyənlər var. Erməni millətçiliyini, özgə torpaqlarda separatizm meyillərini körükləyənlər məhz onlardır. Axı, Azərbaycanın beynəlxalq hüquqla tanınmış sərhədlərinə hörmətlə yanaşmaq niyə kimlərisə narahat etməlidir?

*

Erməni avantürizmi son dərəcə qəddar mahiyyətlidir. Bunun tarixdə ən müxtəlif örnəkləri var. Çox uzağa getməyib 1988-ci ilin Sumqayıt hadisələri üzərində dayanaq. Həmin vaxt şəhərin erməni sakinlərinə qarşı amansızlıqlar törədildi. İki xalq arasına nifaq toxumları səpmək istəyənlər günün günorta çağında sadə ermənilərə zülm etdilər ki, saxta niskil, saxta nağıl uydursunlar, bundan siyasi dividend əldə etsinlər. Beləliklə, Azərbaycan torpaqlarının işğalına məntiqi don geyindirildi. Sonradan Sumqayıtın "qisasını alanların" meydana necə atıldıqlarına şahidlik etdik. Xocalı vəhşəti yaşandı...

*

44 günlük müharibə dönəmində də sadə erməniləri qırmaq yönümlü "plan" hazırlanmışdı. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat olmasaydı, xüsusi mobil dəstələrin Xankəndidə, Qarabağın müxtəlif yerlərində onları qətlə yetirmələri nəzərdə tutulurdu. Sıravi ermənilər məhv ediləcək və bu, Azərbaycan əsgərinin vəhşiliyi kimi təqdim ediləcəkdi. Belə bir amansız ssenari üçün dünyanın müxtəlif ölkələrindən jurnalistləri də Qarabağa yığıb tökmüşdülər. Onlar kütləvi qətl nöqtələrindən dəhşətli görüntülər yaymalı, Azərbaycanı növbəti erməni soyqırımını törədən ölkə olaraq göstərməli, ifşa etməli idilər.

Vətən müharibəsindən sonrakı müddətdə də erməni avantürizmi bu mənfur planı daim "gündəmdə saxladı". Lakin vəziyyət əvvəlki deyildi. Azərbaycan bölgəyə sahiblənmişdi. Ordumuz hər şeyi çox gözəl görürdü. Buna görə əvvəlcə bildirdiklər ki, ölkəmiz Laçın yolunu bağlı saxlamaqla, guya, sıravi erməniləri acından öldürmək istəyir. Müvafiq şəkildə müxtəlif beynəlxalq hüquq dəllə-duzları özlərinin cızma-qaralarında soyqırımının aclıq həddinə gətirmə formasının da mövcudluğunu "əsaslandırmağa" çalışdılar. Görəndə ki, BMT müstəvisinə daşıdıqları belə sərsəm gedişlər heç bir fayda vermir, "etnik təmizləmə" ritorikasına baş vurdular. Düşündülər ki, qara-qışqırıq salmaqla, Azərbaycanı haqlı mübarizəsindən döndərə, qətiyyətli addımlar atmaqdan daşındıra, mövcud status-kvonu saxlaya biləcəklər. Alınmadı. Ordumuz 23 saat 43 dəqiqə ərzində suverenliyimizin bərpası tapşırığını yüksək peşəkarlıqla yerinə yetirməyi bacardı. Özü də heç bir mülki şəxsə və obyektə zərər toxundurmadan.

*

Bəli, suverenliyini bərpa etmiş Azərbaycan yenə də Qarabağın erməni əhalisinə çağırış etdi. Çağırış etdi ki, Azərbaycan vətəndaşlığını qəbul edib bölgədə qalsınlar. Ancaq indi baş verənlərdən nəticə çıxarmaq mümkündür ki, bu çağırışa məhəl qoyulmamaqdadır. Beləcə, erməni avantürizmi Qarabağ mövzusunu niskilə çevirmək yolu tutmaqdadır. Hazırda bölgədə köç karvanı da bunun nəticəsidir. Zamanında azərbaycanlılara qarşı o qədər nifrət və hiddət aşılayıblar ki, indi bizim bu aşılanmalardan irəli gələn hərəkət və davranışlara əl atacağımızı düşünənlər var. Onlar, əlbəttə ki, ölkəmizin pozitiv çağırışlarını nəzərə almazlar. Bunu anlamayıb mövcud müstəvidə Azərbaycana qarşı hədyanlar yağdıranlar, görəsən, əsl mahiyyəti niyə dərk etmirlər? Əlbəttə, onlar hər şeyi çox gözəl bilirlər. Sadəcə, mənfur oyunun içərisindədirlər.

Görünən budur ki, "oyun" Qarabağ ermənilərini ayrıca zümrə kimi təqdim etməyə yönəlib. Məsələn, erməni katolikosu, pozğun və əxlaqsız təbiətli II Qaregin, eləcə də eyni xislətin daşıyıcısı olan ölkə müxalifətinin təmsilçiləri onlardan baş nazir Nikol Paşinyan hakimiyyətini devirmək planlarında yararlanmağı düşünürlər. Ermənistan iqtidarının "istəyindən" də danışdıq. Əlavə edək ki, Paşinyan administrasiyası Qarabağ ermənilərinə həm də qazanc yeri kimi yanaşır. Nikol bildirib ki, hər bir Qarabağ erməninə büdcədən yüz min dram, yəni, təxminən 435 manat pul ödəniləcək. Bu məbləğ böyük deyil. Amma görürük ki, Paşinyan və komandasına xaricdən maliyyə yardımları da axışır. Heç şübhəsiz ki, bu yardımların müntəzəmliyinə nail olunacaq. Qarabağ erməniləri isə bölgədə olduğu kimi, Ermənistanda da ac-yalavac ömür sürəcəklər. Yəni, onlar avantüranın qurbanına çevrilmək aqibətindən qurtula bilməyəcəklər. Halbuki, Azərbaycan ərazisində qalsaydılar, tamam fərqli yaşayışları, sivil təminatları olacaqdı.

*

Sonda onu da deyək ki, paytaxt Bakıda, eləcə də respublikamızın müxtəlif yerlərində toplam 30 minə yaxın erməni yaşamaqdadır. Azərbaycan dünyada çoxmillətli, çoxkonfessiyalı ölkə kimi tanınmaqdadır. Bu, illərlə toplanılmış yüksək imic, mənəvi sərvətdir. Yəni, erməni avantürizminin və onun xaricdəki havadarları olan "timsahlar"ın nələri qondarmalarından asılı olmayaraq, Azərbaycana qarşı irəli sürülən saxta iddiaların heç bir əsası yoxdur və olmayacaq.

Yuxarıda da bildirdiyimiz kimi, hazırkı durumda itirən ölkəmizin multikultural mühitindən bəhrələnmək istəməyən Qarabağ erməniləridir. Onlar otuz ilə yaxın müddətdə də itirmişdilər, bu gün də eyni aqibəti yaşayır və yaşayacaqlar. Bütün bunları vurğulamaqda, eyni zamanda, bir milyondan çox azərbaycanlının otuz il əvvəlki taleyindən söz açmaqda məqsədimiz heç də onu demək deyil ki, bugünkü erməni köçü ilahi ədalətin təntənə anının yaşantısıdır. Hərçənd, bunu söyləsək də, haqlı çıxarıq. Həm də ona görə ki, hər xalq öz həyatına, öz yaşamına özü qərar verir. Bir milyonun qərarı güclü Azərbaycan dövləti naminə quruculuq xətti oldu və bu gün həmin qərarın bəhrəsini görməkdədir. İlahi ədalət onlar üçün təcəlli edir.

Qarabağ ermənilərinin də qərarlarını veriblər. Soyuq reallıq budur ki, onlar separatçılığın və ekstremizmin yanında dayandıqlarını göstəriblər. Öz köçləri ilə də sübuta yetirirlər ki, bölgədə otuz il ərzində mövcud olmuş və hazırda yox olduğunu bəyan edən saxta "Dağlıq Qarabağ Respublikası" kimi, yox olmağı üstün tutdular. Tutsunlar, hər halda gedəni saxlayacaq deyilik.

# Ermənistan siyasi qarşıdurma mənGənəsində

(əvvəli 1-ci səhifədə)

Yerli müşahidəçilər paytaxt merinin seçkilərini ümumxalq seçkiləri öncəsi güc nümayişi adlandırırlar. Belə ki, ölkə üzrə bütün seçicilərin üçdə biri İrəvanda qeydiyyatdadır. "Yerli özünüidarə haqqında" qanuna əsasən, vətəndaşlar ağsaqqallar şurasının 65 üzvünü dörd il müddətinə, onlar isə öz növbəsində şəhər merini beş il müddətinə seçirlər. Səslərin 50 faizdən çoxunu almış partiya fərdi qaydada şəhər merini təyin edə bilər. Ancaq qeyd etdiyimiz kimi, hakim partiya 32,5 faiz səs alıb. Adətən, partiya siyahısında birinci olan şəxs avtomatik olaraq mer olur. Bu il "Mülki müqavilə"nin siyahısına İrəvan merinin müavini və baş nazirin sabiq müavini Tiqran Avinyan rəhbərlik edirdi.

Beləliklə, İrəvan şəhər ağsaqqallar şurasına keçirilən seçkilərdə inamsız çıxış edən N.Paşinyanın partiyası şurada paytaxt merinin seçilməsi zamanı müxalifətlə razılaşmalı olacaq. Bu isə hakim siyasi partiyanın mövqeyinin paytaxtda zəifləyəcəyi deməkdir.

Onu da qeyd edək ki, seçkilərdə, ümumilikdə, 13 siyasi partiya və bir blok iştirak etsə də, yalnız beş partiya tələb olunan baryeri keçə bilib. Siyasi partiyalar üçün baryer 4, siyasi bloklar üçün 6 faiz təşkil edib. Seçkidə ikinci yeri 18,8 faiz səs toplamış aktyor və İrəvanın keçmiş meri Ayk Marutyanın başçılıq etdiyi solçu "Milli tərəqqi" partiyası tutub. O, əvvəllər Paşinyanın tərəfdarı olub və 2018-ci ildə İrəvanın meri seçilib. Marutyan mer vəzifəsində çalışarkən Paşinyanı tənqid etməyə başlayıb, onun komandasını korrupsiyada və müxalif fikirləri boğmaqda ittiham edib. 2021-ci il dekabrın 22-də Paşinyanın tərəfdarlarının ağsaqqallar şurasında etimadsızlıq səsverməsindən sonra Marutyan vəzifədən uzaqlaşdırılıb.

Yeri gəlmişkən qeyd edək ki, Xocalı cəlladı, Ermənistanın ikinci prezidenti Robert Koçaryanın "Hayastan" alyansı 15,4 faiz səslə üçüncü yerdə qərarlaşıb. Ağsaqqallar şurasına seçkilərdə dördüncü yeri 11,3 faiz səs toplayan sağ mərkəzçi "Respublika" partiyası, beşincisi yeri isə 9,6 faizlə "İctimai səs" partiyası tutub. Qarabağdakı qondarma separatçı rejimin sabiq "dövlət naziri", oliqarx Ruben Vardanyanın dəstəklədiyi və Ermənistan siyasətində yeni peyda olan "Həyat üçün ölkə" partiyası tələb olunan 4 faizlik baryeri keçə bilməyib – cəmi 3,6 faiz səs toplayıb.

Ağsaqqallar şurasında İrəvan şəhər merinin seçkisi oktyabrın 10-na təyin edilib. Ancaq müxalifət yeni seçkilər keçirilməsi tələbində israrlı görünür. Müxalifətdə olan "Ana Ermənistan" bloku artıq mer seçilməsi üçün oktyabrın 10-da keçiriləcək İrəvan ağsaqqallar şurasının ilk iclasında iştirak etməyəcəyini açıqlayıb. Blokun rəhbəri, "Hayastan" müxalifət fraksiyasının deputatı Andranik Tevanyan müzakirələrdən sonra bununla bağlı qəti qərar verdiklərini bildirib.

"Hayastan"ın məlum qərarı seçkidə ikinci yeri tutan "Milli tərəqqi" partiyasının lideri Ayk Marutyanın qərarına da təsirsiz ötüşməyib. "Milli tərəqqi"nin merliyinə namizədi "Facebook"da canlı yayım açaraq, ağsaqqallar şurasının ilk iclasında iştirak etməyəcəklərini, beləliklə kvorumun təmin olunmayacağını, mer seçkisinin baş tutmayacağını bəyan edib. Qeyd edib ki, beləliklə, hakimiyyət yeni seçkilər təyin etməyə məcbur qalacaq. "Mətbuatdan öyrəndim ki, "Ana Ermənistan" bloku da iclasa qatılmayacaq. Burada yalnız "İctimai səs" partiyasının mövqeyi qalıb", – deyə Marutyan bildirib.

Göründüyü kimi, İrəvan ağsaqqallar şurasına seçilən müxalif qüvvələr konsensusa gələ bilmirlər. Hakimiyyətdə olan partiya isə öz namizədini irəli sürüb onun seçilməsinə nail olmaq üçün kifayət qədər səsə malik deyil. Bu baxımdan İrəvan merinin seçkisi yaxın gələcəkdə Ermənistan siyasi gündəminin əsas məsələlərindən biri olacaq.

***

Bu arada Ermənistanda N.Paşinyana sui-qəsdə çağıran siyasi fəal saxlanılıb. "Sputnik Ermənistan"ın yaydığı məlumata görə, Qərbyönümlü "Milli demokratik qütb" siyasi blokunun nümayəndəsi, siyasi fəal Muşeq Şuşanyan barəsində iki ay müddətinə həbs qətiimkan tədbiri seçilib. Şuşanyanın həbsi barədə İstintaq Komitəsinin vəsatəti məhkəmə tərəfindən təmin edilib. Hazırda ibtidai istintaq aparılır.

Sentyabrın 30-da, saat 17:00-da isə İrəvanın mərkəzindəki "Respublika" meydanında mitinq keçiriləcək. Mitinqi müxalifətin "ümummilli hərəkat" adlandırdığı qrupların əlaqələndirilməsi üçün yaradılan "Milli komitə" təşkil edəcək. Xatırladaq ki, "Milli komitə" sentyabrın 26-na planlaşdırılan aksiyanı təxirə salmışdı. Qeyd olunub ki, vətəndaşlar "Artsax faciəsi" ilə bağlı fəaliyyətsizliyə görə ölkə hakimiyyətindən cavab tələb edirlər.

Ermənistanda cərəyan edən hadisələrə ölkənin ilk prezidenti Levon Ter-Petrosyan da münasibət bildirib. O deyib: "Xalqımızın başına gətirilən faciəyə görə Ermənistan hakimiyyətindən hesab tələb etmək hüququ qüvvədə qalsa da, son günlər müxalifətin ölkəmizin daxili siyasi vəziyyətini daha da gərginləşdirməmək üçün münasibətini yüksək qiymətləndirirəm. Bu gün heç nə həm hakimiyyəti, həm də müxalifəti Qarabağ ermənilərinin Ermənistanda layiqli həyatla təmin edilməsi kimi milli məsələdən yayındırmamalıdır".

Ter-Petrosyanın çağırışına baxmayaraq, görünən odur ki, Ermənistanda vəziyyət daha da gərginləşməyə doğru gedir. Müxalifətin sabiq prezidentin çağırışına əməl etməsi müşkül görünür. Hazırda Ermənistanda siyasi qütbləşmə xeyli güclənib. Paşinyandan narazıların sayı da xeyli artıb. Onun rəhbərlik etdiyi partiyanın son beş ildə ilk dəfə seçkidə qalib gələ bilməməsi bunun göstəricisidir. Proseslərin hansı həddə qədər inkişaf edəcəyini isə əlbəttə, zaman göstərəcək.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**Aydın QULİYEV,**
**siyasi şərhçi**

– Hazırda Ermənistanda baş verən hadisələr bu ölkədə siyasi gərginliyin artmasından xəbər verir. Həm sosial-iqtisadi problemlər, həm də bunlardan daha üstün olan İrəvanın Qarabağda total məğlubiyyətə düçar olması daxili siyasi vəziyyəti gərginləşdirib. Onu da qeyd etmək lazımdır ki, Qarabağdan köçüb gedən insanlar da bu ölkə üçün daxili gərginliyin əlavə mənbəyidir.

Müxalifət isə necə deyərlər, ayaq üstədir. Onlar fürsətdən istifadə edərək Paşinyan iqtidarını devirməyə çalışırlar. Əsas müxalif ideyaların daşıyıcıları isə sözsüz ki, köhnə revanşist qüvvələrdir. Onlar vəziyyəti mümkün qədər gərginləşdirmək və Paşinyan hakimiyyətini dəyişmək istəyirlər.

Ancaq Ermənistanda Paşinyanın hakimiyyətinin yaxın zamanlarda dəyişilmə ehtimalı o qədər güclü deyil. Baxmayaraq ki, indiki şəraitdə müxalifətin sıraları genişdir. Onlara Qarabağdan gedənlər də qoşulurlar, amma Qərb ölkələrinin timsalında Paşinyanın ciddi müdafiəsi var. Eyni zamanda, Ermənistan cəmiyyəti də, demək olar ki, kəskin şəkildə iki yerə parçalanıb. Bir hissə anti-Rusiya, digər hissə isə Rusiyapərəst qüvvələrdir. Müşahidələr göstərir ki, onların hansının üstün, yaxud zəif olduğu barədə indiki şəraitdə dəqiq fikir söyləmək çətindir. Çünki cəmiyyət arasında həm Rusiyapərəst, həm də Qərbpərəst qüvvələr güclüdür. Hadisələrin, mübarizənin konkret nə ilə nəticələnəcəyini indiki şəraitdə proqnoz etmək çətindir. Bəlli olan odur ki, Ermənistanda daxili siyasi gərginlik uzun müddət davam edəcək.

Təbii ki, Rusiyapərəst qüvvələr Paşinyanın hakimiyyətini ciddi şəkildə sıxışdırmağı və artıq qeyd etdiyim kimi, hətta onu dəyişdirməyi hədəfləyirlər. Ancaq Paşinyan hakimiyyətdə möhkəmlənmək üçün bütün qüvvələrini səfərbərliyə alıb. Təkcə onu deyim ki, Qarabağdan köçüb gedən ermənilərin İrəvana qəti şəkildə buraxılmaması ilə bağlı xüsusi tapşırıq verib. Bu da paytaxtda gərginlik yaradan əlavə mənbələri neytrallaşdırmaq cəhdidir. Çünki Qarabağdan gedənlər paytaxtda qalacaqlarsa, onun üçün əlavə başağrıları yarana bilər.

Ölkədə yaranmış gərgin siyasi vəziyyət aydın məsələdir ki, Paşinyanın başını uzun müddət qatacaq. Ancaq əgər Ermənistanda hakimiyyət dəyişərsə, revanşist qüvvələr hakimiyyətə gələrlərsə, bu, Azərbaycan üçün arzuedilən deyil. Bununla belə, revanşist qüvvələrin hakimiyyətə qayıdışı çox aşağıdır. Amma hakimiyyətin dəyişməsi və Paşinyanın başqa bir mötədil siyasətçi ilə əvəz olunması ehtimalı da var.

# Qənirə Ələsgər qızı Paşayeva



**Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Tanınmış ictimai xadim və jurnalist, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Ələsgər qızı Paşayeva 2023-cü il sentyabrın 28-də ömrünün 49-cu ilində vəfat etmişdir.**

Qənirə Paşayeva 1975-ci il martın 24-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olmuşdur. O, orta məktəbi bitirərək 1991–1998-ci illərdə Azərbaycan Dövlət Tibb Universitetinin Pediatriya fakültəsində oxumuş, daha sonralar Bakı Dövlət Universitetində beynəlxalq hüquq ixtisası üzrə təhsil almış, 2010-cu ildə isə dissertasiya müdafiə edərək siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

Əmək fəaliyyətinə 1998-ci ildən "ANS" televiziya şirkətinin Xəbərlər xidmətində başlayan Qənirə Paşayeva həmin şirkətdə 2005-ci ilədək müxtəlif vəzifələrdə çalışmış, 2005–2012-ci illərdə Heydər Əliyev Fondunun İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri olmuşdur.

Qənirə Paşayeva üçüncü, dördüncü, beşinci və altıncı çağırışlar Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. O, Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Asiya Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin və Azərbaycan–Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri, Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü, eləcə də Avstraliya və Yeni Zelandiya, Bosniya və Herseqovina, Fransa, Gürcüstan, İndoneziya, İraq, İspaniya, İtaliya, Koreya, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Malayziya, Mərakeş, Misir, Moldova, Özbəkistan, Rumıniya, Şimali Makedoniya, Tailand, Türkiyə, Türkmənistan, Vyetnam və Yaponiya parlamentləri ilə əlaqələr üzrə işçi qrupların üzvü olmuşdur. Qənirə Paşayeva, həmçinin Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü və Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İctimai Birliyinin sədri idi.

Qənirə Paşayeva zəngin ictimai-siyasi fəaliyyəti dövründə çalışdığı bütün sahələrdə dərin məsuliyyəti və insanlara münasibətdə yüksək həssaslığı ilə böyük hörmət və rəğbət qazanmışdır. Milli dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində nailiyyətlərin əldə olunmasında onun təqdirəlayiq xidmətləri vardır. O, Milli Məclisin Mədəniyyət komitəsinin sədri kimi ölkədə mədəniyyət sahəsində dövlət siyasətinin uğurla gerçəkləşdirilməsində yaxından iştirak etmişdir.

Vətənpərvərliyi, milli dövlətçiliyə sədaqəti və xalqımızın mədəni-mənəvi dəyərlərinə xüsusi ehtiramı Qənirə Paşayevaya Azərbaycan cəmiyyətində həqiqi nüfuz qazandırmışdır. Maarifçilik və xeyriyyəçilik fəaliyyəti onun ali insani keyfiyyətlərini xarakterizə edən başlıca cəhətlər idi.

Qənirə Paşayevanın aktual mövzularda qələmə aldığı çoxsaylı elmi-kütləvi və publisistik məqalələr, müəllifi olduğu ssenarilər diqqət və maraqla qarşılanmışdır. Qənirə Paşayeva Azərbaycanın haqq səsinin, Qarabağ həqiqətlərinin yüksək kürsülərdən dünyaya çatdırılması üçün var qüvvəsini səfərbər etmiş, türk xalqları arasında birlik və qardaşlıq əlaqələrinin daha da dərinləşdirilməsi işinə dəyərli töhfələr vermişdir.

Tanınmış ictimai xadim, xeyirxah və səmimi insan Qənirə Ələsgər qızı Paşayevanın əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Mehriban ƏLİYEVA,***
***Əli ƏSƏDOV,***
***Sahibə QAFAROVA,***
***Samir NURİYEV,***
***Eldar ƏZİZOV,***
***Ədalət VƏLİYEV,***
***Fərəh ƏLİYEVA,***
***Adil KƏRİMLİ,***
***Eldar QULİYEV,***
***Hicran HÜSEYNOVA,***
***Əhliman ƏMİRASLANOV,***
***Eldar İBRAHİMOV ,***
***Səməd SEYİDOV,***
***Rafael HÜSEYNOV***

**Xalq TV-nin reportajı**

# Ümid çıraqlarının pərvanəsi

**Milli Məclisin Mədəniyyət komitəsinin sədri, tanınmış ictimai xadim və jurnalist Qənirə Paşayeva sentyabrın 28-i gecə radələrində müalicə aldığı xəstəxanada vəfat edib. Ömrünün çiçəklənən dövründə, 49 yaşında Qənirə xanımın dünyasını dəyişməsi ölkəmizdə hamını dərindən kədərləndirdi. Böyük arzuları var idi Qənirə xanımın. Nə yaxşı ki, ən böyük istəyi sağlığında çin oldu – Qarabağ Zəfərinin sevincini hamımızla birgə yaşadı.**



Qənirə Paşayeva təkcə ölkəmizdə yox, qardaş türkdilli dövlətlərdə də, xüsusən Türkiyədə tanınır və sevilirdi. **Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcını** da dəfn mərasiminə bu sevgi gətirmişdi: "Qənirə xanım Paşayevaya son qardaşlıq vəzifəmizi yerinə yetirməyə gəldik. Allah rəhmət eləsin". Heydər Məscidində keçirilən vida mərasimində xalqımızın öz sevimli qızına dərin ehtiramını ifadə etdi.

Əbədiyyətə qovuşan unudulmaz soydaşımız ll Fəxri xiyabanda canı qədər əziz bildiyi Vətən torpağına tapşırıldı. Dəfn mərasimində dövlət rəsmiləri, deputatlar, mərhumun ailə üzvləri, yaxınları və ictimaiyyət nümayəndələri iştirak edirdilər. Dəfndə iştirak edənlərin kədəri, sanki, üzlərinə göz yaşları ilə yazılırdı.

**Deputat Vüqar İsgəndərli** Azərbaycan ictimaiyyətinə çox ağır itki üz verdiyini bildirdi: "Biz Qənirə xanımı itirdik. Xalqına, millətinə bağlı ziyalı, mübariz insan idi. Ümumiyyətlə, türk dünyası üçün çox önəmli şəxsiyyətlərdən biri kimi yetkinləşmişdi. İlk gəncliyindən xalqına və dövlətinə sədaqətlə xidmət etdi. Onun xatirəsi hər zaman bizim qəlbimizdə yaşayacaq".

Dəfndə iştirak edənlərdən biri də **Qənirə xanımın deputat həmkarı Fazil Mustafa** idi: "Mən hesab edirəm ki, Qənirə xanım xoşbəxt insan oldu, ən böyük arzusu olan Qarabağın azad olunmasının şahidi oldu. O, XXI əsrdə Azərbaycan qadınının yüksək ictimai fəallıq göstəricisi idi. Bu fədakarlığın, fəallığın göstəricisidir ki, onu son mənzilə yola salmağa bu qədər insan gəlib".

**Milli Məclisin sədr müavini Əli Hüseynli** də dərin hüznlə başsağlığı verdi: "Bu itki təkcə Milli Məclisin, dövlət qurumlarının deyil, bütövlükdə, ictimaiyyətin itkisidir".

**Azərbaycan Kərkük Mədəniyyət və Əməkdaşlıq Mərkəzinin sədri Məlahət Qurbanova** kədərini belə bölüşdü: "Biz hamımız Qarabağın alınmasını, qələbəsini yaşadıq. Ancaq Qənirə xanım şəhidlərə Qarabağın tam azad olunması xəbərini verməyə tələsdi".

**Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının icraçı katibi Mətanət Ağamirli** üzüntüsünü belə bildirdi: "Hesab edirəm ki, Qənirə Paşayeva qısa ömründə milyonların sevgisini qazanan, seçilən bir şəxsiyyət oldu".

**Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid** də Qənirə xanımı son mənzilə yola salanlardan idi: "Yeni bir zəfər müjdəli günlərdə, Qarabağda suverenliyimizin bərpa olunduğu bir vaxtda Qənirə xanımı itirmək çox ağır oldu. Belə enerjili insanın, istedadlı jurnalistin, yurdsevər millət vəkilinin dünyadan vaxtsız getməsi böyük itkidir".

**Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova** da hüznlü idi: "Mən deyərdim ki, çox qeyri-adi bir insan idi, çünki bu qədər insanın sevgisini qazanıb. Onun ölümü milli qadın hərəkatı üçün də ağır itki oldu."

**Mərasimdə Tovuzda məktəb direktoru olan Xəyal Nağıyev** Qənirə xanımın həmyerlilərinin dərin hüznünü ifadə edərək mərhumun ailəsinə və onu sevənlərinə başsağlığı verdi: "Qənirə xanım Qarabağ həqiqətlərini hər zaman yüksək tribunalarda dünyaya çatdıran mübariz bir qadın oldu.olub. 44 günlük müharibə dövründə zəfərimizin sevincini qürurla, iftixarla dünyaya paylaşdı".

Bəli, Qənirə Paşayeva belə bir əqidə ilə yaşadı ki, insan ölkəsinə gərəkli, insanlara faydalı olan işlər görməlidir. O bunu bacardı: insanlığın o başında gələn bu əzəli həqiqəti bizim günlərdə öz nümunəsi ilə təsdiqlədi. O, çox sayda ümid çıraqlarnın pərvanəsi oldu.

**XQ**

# Ulu öndərin milli neft siyasəti






**Mingəçevir Dövlət Universitetində Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Əsrin müqaviləsi tarixi zəfərimizə gedən yolun başlanğıcıdır" mövzusunda konfrans keçirilib.**

İştirakçılar əvvəlcə "Əsrin müqaviləsi tarixi zəfərimizə gedən yolun başlanğıcıdır" filminə baxıblar.

Konfransda Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov bildirib ki, Ümummilli lider Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən sonra sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, neft sənayesində də əsaslı dəyişikliklər baş verib.

Bildirilib ki, Xəzərin dərinliyində işləməyə imkan verən qazma qurğularının alınması nəticəsində yeni 8 neft və qaz yatağı kəşf edilib. Neft ehtiyatları 2, qaz potensialı isə 3 dəfə artıb. Üzən qazma qurğularından istifadə nəticəsində, indi Azərbaycan neftinin əsas hissəsini verən Günəşli, Çıraq, Azəri yataqları kəşf olunub.

Bu dövrdə dünyada analoqu olmayan Dərin Dəniz Özülləri Zavodu tikilib. Bütün bunlar Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsi olaraq gələcək müstəqilliyimiz üçün iqtisadi baza yaratdı.

Məclisdə qeyd edilib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra 90-cı illərin əvvəllərində bir çox çətinliklərlə üzləşib. Xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra yeni neft strategiyasına start verdi.

1994-cü ilin sentyabrın 20-də Azəri-Çıraq-Günəşli yataqlarının işlənməsi üzrə dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə "Əsrin müqaviləsi" imzalanıb.

"Əsrin müqaviləsi"nin imzalanmasından keçən 30 ilə yaxın müddətdə Ümummilli liderin "Yeni neft strategiyası" Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük uğurla həyata keçirilib. Hazırda hasil edilən neft və qaz ehtiyatları dünya bazarlarına Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kəmərləri ilə çıxarılır. Bundan əlavə, "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində TANAP və TAP qaz kəmərləri də istifadəyə verilib.

Azərbaycanın milli sərvəti olan neftdən gələn gəlirlərin gələcək nəsillər üçün toplanaraq artırılması, bugünkü nəsillərin istifadə etməsi üçün Neft Fondu yaradılıb.

Prezident İlham Əliyev Ulu öndərin neft strategiyasını inkişaf etdirərək 2017-ci il sentyabrın 14-də "Azəri-Çıraq-Günəşli" neft-qaz yatağının 2050-ci ilə qədər işlənməsi haqqında yeni saziş imzalayıb. Dövlət başçısının uğurlu neft siyasətinin nəticəsidir ki, Azərbaycan nefti dövlətimizin qüdrətlənməsinə, xalqımızın rifahının yüksəlməsinə xidmət edir.

Konfransda Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov "Ümummilli lider Heydər Əliyev neft strategiyasının banisidir", Milli Məclisin deputatı Aydın Mirzəzadə "Əsrin müqaviləsi"nə aparan yol. Neft strategiyasının uğurları", MDU-nun elmi işlər üzrə prorektoru Veysəl Əyyubov "Heydər Əliyevin neft strategiyası Azərbaycanın müstəqilliyinə verilən ən böyük töhfədir", MDU-nun kafedra müdiri Emiliya Hüseynova "Yeni neft strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən müasir mərhələsi dövlətimizin qüdrətlənməsinə və vətəndaşlarımızın rifahının yüksəlişinə xidmət edir" məruzələri ilə çıxış ediblər.

***İlqar HƏSƏNOV***
***XQ-nin bölgə müxbiri***

**Pekində I Qlobal Dayanıqlı Nəqliyyat Forumu keçirilib. Çinin Nəqliyyat Nazirliyinin təşkilatçılığı ilə "Dayanıqlı nəqliyyat: qlobal inkişafın təşviqi üçün birgə çalışaq" devizi altında aparılan müzakirələrdə 50-dən çox dövlət rəsmisi, o cümlədən nazirlər, beynəlxalq və regional təşkilatların və iri şirkətlərin rəhbərləri iştirak ediblər. Tədbirdə Azərbaycanı rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.**

Forumun açılış mərasimində çıxış edənlər bildiriblər ki, nəqliyyat məsələsi dünya iqtisadiyyatının açarıdır. Bildirilib ki, nəqliyyat əlaqəsi olmadan heç bir iqtisadi əməkdaşlıqdan danışmaq mümkün deyil. Dayanıqlı nəqliyyat məsələsinin təkcə bir ölkəyə aid deyil, qlobal xarakter daşıdığı vurğulanıb. Avrasiyada mövcud nəqliyyat yollarının, o cümlədən "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində əməkdaşlığın iqtisadi münasibətlərin dərinləşməsinə, xüsusən də logistika, yəni yüklərin daşınması baxımından rolu qeyd edilib. Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında Orta Dəhliz, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutlarının, o cümlədən bu dəhlizlərin Azərbaycandan keçən seqmentlərinin imkanları vurğulanıb.

Plenar və panel iclaslarında qlobal əlaqələrin təşviqi, regional fərqlərin aradan qaldırılması, innovativ texnologiya və avadanlıqların mübadiləsi, ekoloji təmiz və aşağı karbonlu inkişafın təşviqi və nəqliyyat sektorunda tərəfdaşlığın gücləndirilməsi məsələləri ilə əlaqədar fikir mübadiləsi aparılıb.

# Dünya "Bir kəmər, bir yol"a qoşulur

## *Qlobal logistika platforması*




Forum çərçivəsində 15-ci Beynəlxalq Nəqliyyat, Texnologiya və Avadanlıq Sərgisi də keçirilib.

Yeri gəlmişkən, Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev forumun keçirildiyi günlərdə Pekində bir sıra görüşlər keçirib. Çinin nəqliyyat naziri Li Siaopenlə görüşdə iki ölkə arasında nəqliyyat və logistika sahələrində əlaqələrin möhkəmləndirilməsi məsələləri müzakirə olunub. Nazirlər "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Orta Dəhlizin inkişafına xüsusi önəm verildiyini qeyd ediblər. Tərəflər dəmir yolu və avtomobil daşımaları, kombinə edilmiş yük daşımaları və ictimai nəqliyyat istiqamətində potensial əməkdaşlıq, iki ölkə arasında mülki uçuşların tezliyi və uçuş şəbəkəsinin genişlənidirilməsi imkanlarını müzakirə edib, müvafiq işçi qrupunun yaradılması barədə fikir mübadiləsi aparıblar.

Beynəlxalq nəqliyyat formunun iştirakçısı olan Azərbaycan nümayəndə heyətinin başçısı Rəşad Nəbiyev ilə Çinin Dəmir Yolları Administrasiyasının rəhbərliyi arasında keçirilən görüşdə isə dəmir yolu sahəsində iki ölkə arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub. Görüş zamanı Çin ilə yük dövriyyəsinin artırılması və Orta Dəhlizin inkişafı istiqamətində ölkələr arasında əməkdaşlığın gücləndirilməsi üçün atılacaq konkret addımlar müəyyən edilib.

Yeri gəlmişkən, son illər Orta Dəhlizin əsas iştirakçılarından olan Mərkəzi Asiya ölkələri Azərbaycanla nəqliyyat-logistika sahəsində fəal əməkdaşlıq edirlər. Özbəkistan Prezidenti yanında fəaliyyət göstərən Regional və Strateji Araşdırmalar İnstitutunun rəhbəri Abror Fətullayev bu barədə yazdığı məqalədə qeyd edir ki, coğrafi xüsusiyyətləri nəzərə alan Azərbaycan və Özbəkistan nəqliyyat dəhlizlərini inkişaf etdirməyə çalışaraq Asiyadan Avropaya və əks istiqamətdə həyata keçirilən yükdaşımalarda tranzit rolunu oynamaq istəyirlər. Hər iki dövlətin planlaşdırdığı birgə nəqliyyat layihələri Orta Asiya və Qafqaz respublikalarının da tranzit potensialını artıracaq.

Özbəkistanın Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun tərkib hissəsi olan Bakı–Tbilisi–Qars dəmir yolundan istifadə etmək imkanına malik olduğunu qeyd edən Abror Fətullayev bildirib ki, bu yol Özbəkistan mallarının dünya bazarına çıxmasını təmin edir. Onun sözlərinə görə, 2024-cü ildə Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyəti 5 milyon tona yüksələcək ki, bu da Özbəkistana daha çox yük ixrac etmək imkanı qazandıracaq. Bununla yanaşı, məqalədə o da qeyd olunub ki, Özbəkistan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə ticarət əlaqələrini genişləndirməyi planlaşdırır. Bildirilib ki, hazırda Özbəkistan Azərbaycanın dəstəyi və köməyi ilə Bakı Limanında yük terminalı tikmək üzərində iş aparır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi



**Təbriz YADİGAROV,**
**ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent**

Əhalisinə və dinamik iqtisadiyyatına görə dünyanın diqqətini cəlb edən, beynəlxalq sistemin strukturuna təsir imkanına malik olan Çin "Bir kəmər, bir yol" təşəbbüsü ilə Avrasiya məkanında mövqeyini getdikcə gücləndirir.

Hazırda "Bir kəmər, bir yol" layihəsi bəşər tarixində ən iddialı iqtisadi inkişaf proqramlarından biri hesab olunur. Bu layihənin mühüm komponentlərindən biri Çinin Sincan əyalətini birləşdirəcək Çin–Mərkəzi Asiya–Qərbi Asiya iqtisadi dəhlizidir. Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistan, İran və Türkiyə vasitəsilə Aralıq dənizinə şıxış imkanları yarandığından qardaş Türkiyənin irəli sürdüyü "Transxəzər" təşəbbüsü konsepsiyası da bu istiqamətdə region ölkələrinin iqtisadiyyatında mühüm rol oynayır.

Çindən Türkiyəyə və buradan da Avropaya gedən 7 min kilometrlik ən qısa yol olan Orta Dəhliz region dövlətlərinin və supergüclərin mövqeyinə mühüm təsir imkanına malikdir. Bununla yanaşı, Zəngəzur Dəhlizi də Çin–Türkiyə və Çin–Azərbaycan münasibətlərinin perspektivləri baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, Zəngəzur Dəhlizi Orta Dəhlizin tərkib hissəsi olmaqla həm də Avropadan Asiyaya gedən beynəlxalq marşruta alternativ kimi çıxış edərək regionun inkişafına təkan verəcək bir nəqliyyat marşrutudur.

Dünyanın ticarət nəhəngi sayılan Çin bəşər tarixinin ən iddialı iqtisadi inkişaf proqramlarından biri hesab olunan "Bir kəmər, bir yol" layihəsi ilə Avrasiya məkanını inkişaf etmiş yollar, yüksək sürətli dəmir yolu xətləri, elektrik xətləri, limanlar, boru kəmərləri və digər zəruri infrastruktur vasitələri ilə birləşdirməyi hədəfləyir. 65 ölkəni əhatə edən bu layihə 4,4 milyard insanı və dünya ümumi daxili məhsulunun 40 faizini əhatə edir. Layihənin təsir dairəsi çox böyük olduğundan beynəlxalq ictimaiyyətin də rəğbətini qazanıb. Xatırladaq ki, "Kəmər və Yol" layihələrinin dəyəri 1 trilyon ABŞ dollarından 8 trilyon ABŞ dollarına qədərdir. Dünya Bankının məlumatına görə, dəhliz boyunca yerləşən 70 ölkədə (Çin istisna olmaqla) "Kəmər və Yol" təşəbbüsü çərçivəsində investisiyalar 575 milyard dollar təşkil edir. Bura tamamlanmış, davam edən və ya planlaşdırılan layihələr daxil olmaqla bütün sektorlar üzrə tədbirlər daxildir.

"Bir kəmər, bir yol" layihəsinin beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Azərbaycan Respublikasının da dayanıqlı nəqliyyat məsələlərinin həllində mühüm rol oynayacağı şübhəsizdir. Yeri gəlmişkən, sentyabrın 25-də Pekində keçirilən Qlobal Dayanıqlı Nəqliyyat Forumunun açılış mərasimində də dayanıqlı nəqliyyat məsələsinin təkcə bir ölkəyə deyil, qlobal xarakterə malik olduğu vurğulanıb. Forumda qeyd edilib ki, Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında Azərbaycandan keçən beynəlxalq nəqliyyat dəhlizlərinin, o cümlədən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun geniş potensial imkanları vardır.

### YENİLİKLƏR

## 8 ayda Azərbaycanın qeyri-neft ixracı 15 faiz artıb

**Bu ilin yanvar–avqust aylarında Azərbaycanın ümumi ixracı 24,4 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə 2,2 milyard ABŞ dolları təşkil edib. Hesabat dövründə qeyri-neft sektoru üzrə ixrac əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15 faiz çox olub.**



Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın sentyabr sayında məlumat verilir. Məlumata görə, 2023-cü ilin yanvar-avqust aylarında yeyinti məhsulları üzrə ixrac 571,4 milyon dollara bərabər olub. Ötən 8 ayda elektrik enerjisi 3,9 dəfə, spirtli və spirtsiz içkilərin ixracı 3,8 dəfə, qara metal məmulatlarının ixracı 36,6 faiz, şəkər ixracı 17,9 faiz, meyvə-tərəvəz ixracı isə 7,4 faiz artıb.

Cari ilin yanvar-avqust aylarında aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10,4 faiz artaraq 593,9 milyon dollar təşkil edib. Qeyri-neft qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 32,8 faiz artaraq 132,6 milyon ABŞ dolları təşkil edib.

## Kənddə müasir müəssisələr

### 23 belə aqropark fəaliyyət göstərir

**İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən ölkəmizdə indiyədək 23 aqropark qeydiyyata alınıb. Bunlardan 21-i özəl, 2-si isə dövlət aqroparklarıdır. Bundan əlavə, ötən müddətdə 59 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Bu barədə XQ-yə İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib.**



Xatırladaq ki, aqroparkların fəaliyyətlərində dəyər zəncirinin formalaşdırılması və səmərəliliyinin artırılması, həmçinin hüquqi çərçivənin müəyyən olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli fərmanı ilə "Aqroparklar haqqında Nümunəvi Əsasnamə" təsdiq olunub. Sözügedən sənədə uyğun olaraq İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən aqroparkların rəsmi qeydiyyata alınması prosesinə başlanılıb.

## Gələn ilin büdcəsi 37 milyard manata yüksələcək

**Maliyyə Nazirliyinin məlumatına görə, Azərbaycanın gələn il üçün dövlət büdcəsi 37 milyard manata yaxın olacaq. Büdcənin gəlirləri və xərcləri isə ilkin variantla müqayisədə 408 milyon manat artırılacaq.**

Nazirlər Kabinetinin sentyabrın 23-də keçirilmiş və büdcə layihələrinin müzakirəsinə həsr olunmuş iclasında qəbul edilən qərara əsasən, büdcənin gəlirləri ilə bağlı proqnoz 33 milyard 765 milyon manatdan 34 milyard 173 milyon manata, büdcənin xərcləri ilə bağlı proqnoz isə 36 milyard 355 milyon manatdan 36 milyard 763 milyon manata çatdırılıb.

***XQ***



## Beynəlxalq yükdaşımaları 67 faiz çoxalıb

**Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) məlumatına əsasən, cari ilin ilk yarısında respublikamıza məxsus avtomobil nəqliyyatı ilə ölkədə beynəlxalq yükdaşımalarının sayı 122 min 49 olub. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 67 faiz çoxdur.**

Respublikamıza məxsus avtomobil nəqliyyatı ilə 3-cü ölkə daşımaları üzrə göstəricilərdə də artım dinamikası müşahidə edilir. Azərbaycan daşıyıcıları keçən ilin yanvar–iyun aylarında 14 min 151 ədəd 3-cü ölkə daşımaları (xarici ölkədən digər xarici ölkəyə) həyata keçirib. Bu ilin müvafiq dövründə bu göstərici 27 min 743 olub.

Keçən il ərzində 3-cü ölkə daşımaları üzrə Azərbaycan daşıyıcılarının həyata keçirdiyi daşımaların qeyri-neft ixracına nisbəti isə 6 faiz olub. Cari ilin ilk 6 ayında bu göstərici 9,4 faizə çatıb. AYNA-nın hesablamalarına görə, cari ilin ilk yarısında 3-cü ölkə beynəlxalq yükdaşımaları üzrə xidmətlərin ixracı 166 milyon 500 min dollar olub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə çoxdur.

***XQ***

# Azərbaycan "Regional iqtisadi perspektivlər"in önündə

**Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) "Regional iqtisadi perspektivlər" hesabatında bu il Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) ötən illə müqayisədə 1,5 faiz artacağı, gələn il isə iqtisadi sahədə 2,5 faiz coxalma olacağı proqnozlaşdırılıb. Bank, eyni zamanda ölkəmizin də daxil olduğu Şərqi Avropa və Qafqaz regionunun iqtisadiyyatının bu il 1,9 faiz, gələn il 3,1 faiz böyüyəcəyini bəyan edib.**




EBRD-in respublikamızla davamlı əməkdaşlığını da məhz Azərbaycanda əldə edilən müsbət iqtisadi proqnoz–göstəricilər şərtləndirir. Bankın bir çox sahələrə, məsələn, dəmiryol infrastrukturunun müasirləşdirilməsinə dəstək verməsi də məhz bu amillə əlaqədardır. "Azərbaycan Dəmir Yolları" QSC-nin açıqlamasına əsasən, hazırda EBRD ilə adı çəkilən səhmdar cəmiyyəti arasında əməkdaşlığın genişləndirilməsi diqqət mərkəzində saxlanılır, bankın maliyyə dəstəyi ilə dəmir yolu infrastrukturunun müasirləşdirilməsi istiqamətində prioritet layihələrin müzakirəsi aparılır.

Məlumata görə, bugünlərdə səhmdar cəmiyyətinin sədri Rövşən Rüstəmovun EBRD-nin infrastruktur üzrə baş mütəxəssisi Yelena Qordeya ilə görüşündə də bu barədə ətraflı danışılıb, bankın maliyyə dəstəyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafı, həmçinin nəqliyyat infrastrukturunun modernləşdirilməsi üzrə həyata keçirilən layihələrin əhəmiyyəti vurğulanıb. Xatırladaq ki, adıçəkilən maliyyə qurumu tərəfindən 2017–2021-ci illər ərzində də ölkəmizdə bu istiqamətdə müəyyən təşəbbüslər gerçəkləşdirilib, dəmir yollarında elektrik təsərrüfatı optimallaşdırılıb. Hazırda isə EBRD-nin fəaliyyətində "İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdış", "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" istiqamətlərində layihələrin icrası önə çəkilib.

EBRD tərəfindən aparılan tədqiqatlar da bu sahəyə marağı gücləndirir. Belə ki, maliyyə qurumunun araşdırmalarında Azərbaycanda ekoloji cəhətdən təmiz hidrogen istehsalının məqsədəuyğun olması öz təsdiqini tapır. Bununla bağlı AYİB-in dəstəyi ilə Niderlandın tanınmış "Advision" şirkətinin Azərbaycanın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlili də mühüm önəm daşıyır. Başqa sözlə, adıçəkilən şirkətin hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alır.

Bank son illərdə bərpaolunan enerji layihələrinə daha çox diqqət yetirib. Belə ki, maliyyə qurumu təkcə 2022-ci ildə Azərbaycanda 9 layihəyə 86 milyon avro investisiya qoyub ki, həmin vəsaitin də 71 faizi "yaşıl iqtisadiyyat"ın inkişafına, bərpaolunan enerji mənbələrinə yönəldilib.

EBRD ölkəmizdə ən çox krediti enerji sektoruna ayırıb. "Cənub Qaz Dəhlizi" QSC-yə verilən 500 milyon ABŞ dollarınadək kredit TANAP layihəsi üzrə öhdəliklərin maliyyələşdirilməsi üçün nəzərdə tutulub. Bank texniki yardımı ilə bərpaolunan enerji üzrə hərracların keçirilməsinə dair dəstək layihəsinin həyata keçirilməsinə də xüsusi əhəmiyyət verib.

Göründüyü kimi, EBRD-in respublikamızdakı fəaliyyəti çoxşaxəlidir. Bu nüfuzlu maliyyə qurumunun ölkəmizə əməkdaşlığa üstünlük verməsi, müəyyən layihələrin icrasını diqqətdə saxlaması isə təsadüfi deyil. Bu, əvvəla, yuxarıda vurğuladığımız kimi, bankın Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatları yüksək dəyərləndirməsi, düzgün iqtisadi strategiyaya böyük önəm verməsi və nəticədə hazırladığı proqnozlaşdırmanın uğurlu nəticəsindən irəli gəlir.

Bu məsələdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan uğurlu iqtisadi siyasətin nəticəsi olaraq yaradılan əlverişli investisiya mühiti də öz bəhrəsini verir. Məhz bunun sayəsində son illər ölkəmizə investisiya yatıran şirkətlərin sayı da getdikcə artır, investorların fəaliyyət coğrafiyası genişlənir. Təkcə onu qeyd etmək kifayətdir ki, 1995–2022-ci illər ərzində Azərbaycan iqtisadiyyatına 323 milyard 104 milyon dollar investisiya qoyulub ki, bunun da 50,5 faizi və ya 163 milyard 222 milyon dolları xarici investisiyalar olub.

Digər tərəfdən, ölkəmiz əlverişli coğrafi məkanda yerləşir, bu coğrafiya tranzit yüklərin daşınması üçün respublikamız tərəfindən yaradılan müasir infrastruktura malikdir. Məhz bunun nəticəsində Azərbaycanın ikitərəfli daşımalar üzrə beynəlxalq avtomobil daşımaları bazarı 2022-ci ilin yanvar–iyun aylarında 135 min 70 ədəd olduğu halda, bu göstərici 2023-cü ilin müvafiq dövründə 153 min 872 ədəd təşkil edib ki, bu da 13,9 faizlik artım deməkdir.

Hesabat dövründə Azərbaycanın beynəlxalq avtomobil daşımalarına cəlb edilən nəqliyyat vasitələrinin sayı 11 min 960 olub. 2021-ci ildə isə bu say təxminən 2400 təşkil edib. İlin ilk 6 ayında 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə milli daşıyıcıların beynəlxalq bazarlarda payı 8 faiz artıb. Nəqliyyat vasitələrinin sayında artım isə bazarın şəffaflaşması sayəsində "kölgə"də fəaliyyət göstərən daşıyıcıların qeydiyyata alınması, fəaliyyəti olmayan daşıyıcıların işini bərpa etməsi, bəzilərinin daxili bazardan beynəlxalq bazara keçidi və idxal olunan nəqliyyat vasitələrinin hesabına yaranıb. Yeri gəlmişkən, EBRD-in respublikamızla yükdaşımalar sahəsində sıx əməkdaşlıq qurmasını da məhz bu məqam şərtləndirib.

Gələcəkdə Şərqi Zəgəzur dəhlizinin istifadəyə verilməsindən sonra Azərbaycanın nəqliyyat sektorunda yükdaşımaların həcmi xeyli artacaq. Bu da ölkəmizdə yaradılan nəqliyyat hablarına yönəldiləcək investisiyaların səmərəliliyinin daha da yüksəlməsinə səbəb olacaq.

Azərbaycanın EBRD ilə əməkdaşlığı 1992-ci illərə təsadüf edir. Bankın ölkəmizdəki nümayəndəliyi isə 1993-cü ildən fəaliyyət göstərir. EBRD ilə dövlətimiz arasında əməkdaşlıq 2019–2024-cü illəri əhatə edən ölkə üzrə strategiya sənədi ilə tənzimlənir. Həmin strategiyaya əsasən, EBRD üçün bir sıra prioritet məsələlər var. Bunlar rəqabət qabiliyyətliliyə və yaxşı idarəçiliyə dəstək vasitəsilə iqtisadi şaxələndirmənin təşviqi, maliyyə bazarlarının inkişaf etdirilməsi vasitəsilə dözümlülüyün artırılması və yaşıl iqtisadiyyata keçidə və regional rabitəliliyə dəstəkdir. Bankın əməliyyatları isə bir çox sahəni əhatə edir. Belə ki, kənd təsərrüfatından tutmuş infrastruktura, nəqliyyata qədər bütün sənaye sahələri bankın prioritetlərindəndir. Bank təkcə Bakıda deyil, həmçinin regionlarda da fəaliyyət göstərir və ölkə iqtisadiyyatında müsbət dəyişikliklərə nail olmağa çalışır.

***Vaqif BAYRAMOV***
***XQ***

# Ceyhun Bayramov Rusiya Prezidentinin müşaviri ilə görüşüb

**Sentyabrın 29-da xarici işlər naziri Ceyhun Bayramov Rusiya Prezidentinin müşaviri, Prezidentin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi Ruslan Edelgeriyev ilə görüşüb.**



Görüşdə Azərbaycan ilə Rusiya arasında mövcud əməkdaşlıq, o cümlədən ətraf mühitin qorunması sahəsində mümkün tərəfdaşlıq perspektivləri, Azərbaycanın antiterror tədbirlərindən sonra bölgədəki cari vəziyyət, eləcə də humanitar yardım məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov, həmçinin həmsöhbətini Ermənistanın və onun ölkəmizdə qurduğu qondarma rejimin regional sülh və təhlükəsizliyə törətdiyi çağırışlar barədə ətraflı məlumatlandırıb, Azərbaycanın beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə özünün suveren ərazisində icra etdiyi lokal antiterror tədbirlərini şərtləndirən səbəblərdən bəhs edib.

Nazir Ceyhun Bayramov Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası üzrə dialoqa sadiqliyi, ölkəmizin erməni sakinlərinin ehtiyaclarının qarşılanması üçün kompleks tədbirləri davam etdirəcəyi bir daha vurğulanıb.

**XQ**

# Birliyimiz dünya durduqca davam edəcək

**Dünən AMEA-da Türkiyə-Azərbaycan Yüzüncü İl Platformasının təşkilatçılığı ilə "Heydər Əliyev 100: Türkiyə Yüz İli" mövzusunda tədbir keçirilib.**



AMEA prezidenti, akademik İsa Həbibbəyli "Heydər Əliyev İli"ndə ölkəmizdə və dünyada keçirilən tədbirlər, çap olunan nəşrlər barədə danışaraq onların Azərbaycanın uğurlarının təbliğinə xidmət etdiyini bildirib.

Akademik İ.Həbibbəyli diqqətə çatdırıb ki, ötən bir il ərzində Ulu öndərin 100 illiyi bütün dünyada, xüsusən Türkiyədə yüksək səviyyədə, eyni zamanda, Türkiyə Cümhuriyyətinin 100 illiyi ölkəmizdə qeyd olunub.

Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri, Türkiyə Böyük Millət Məclisinin üzvü Şamil Ayrım, Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suver və başqaları çıxış edərək Azərbaycan–Türkiyə qardaşlığından, bu birliyin dünya durduqca davam edəcəyindən danışıblar.

**XQ**

# İşçi qrupun üzvlərinin oktyabrın 2-də Xankəndiyə səfəri nəzərdə tutulub

**Sentyabrın 29-da Yevlax şəhərində Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilə növbəti görüş keçirilib.**

Görüşdə humanitar məsələlər, Qarabağın erməni sakinlərinin reinteqrasiyası və bu xüsusda, Azərbaycanın təqdim etdiyi reinteqrasiya planı ətraflı müzakirə olunub.

Mülki şəxslərin sərbəst hərəkətinin təmin edilməsi, humanitar yardımların göndərilməsi, yanacaq, qida ehtiyaclarının qarşılanması yüksək qiymətləndirilib. Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərin nümayəndələri Xankəndi şəhəri yaxınlığında baş vermiş yanğın zamanı Azərbaycanın müvafiq dövlət qurumlarının həyata keçirdiyi tədbirlərə, xüsusilə yanğının söndürülməsi, xəsarət alanlara ilkin tibbi yardımın göstərilməsi üçün zəruri tibbi ləvazimatların, dərman preparatlarının və təcili tibbi yardım avtomobillərinin əraziyə göndərilməsinə görə xüsusi minnətdarlıq ifadə ediblər. Xahiş olunub ki, Azərbaycanın müvafiq dövlət qurumları mobil rabitə xidmətinin, televiziya və radio yayımının təşkili istiqamətində tədbirlər görsünlər.

Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədov reinteqrasiya prosesi ilə bağlı prosedurlar və sosial xidmətlər zərfi haqqında məlumat verib. Bildirib ki, təsərrüfat, kommunal və digər bu kimi məsələlərin yerində həll edilməsi məqsədilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələləri üzrə yaradılmış İşçi qrupun üzvlərinin oktyabrın 2-də Xankəndi şəhərinə səfəri nəzərdə tutulub.

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyası**

# Müdafiə Nazirliyinin məlumatı




**Sentyabrın 29-da Rusiya Federasiyasının Tula şəhərində Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının iclası keçirilib.**

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov iclasda iştirak edib.

İclasda cari hərbi əməkdaşlıq və qarşıda duran məsələlər müzakirə olunub.

*

**Azad olunmuş ərazilərdə Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələrinin fəaliyyəti nəticəsində ötən həftə ərzində 199 ədəd tank əleyhinə, 94 ədəd piyada əleyhinə mina aşkarlanaraq zərərsizləşdirilib.**

Bundan başqa, mürəkkəb relyefli, o cümlədən çətin keçilən qayalıq ərazilərdə nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsi məqsədilə digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə 8 kilometrədək yeni təminat yolları çəkilib. Qısa müddət ərzində 300 kilometrədək mövcud təminat yolları təkmilləşdirilərək bərpa olunub.

Mina təmizlənmə işlərində əsas səylər azad edilmiş ərazilərdəki yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Qeyd olunan ərazilərdə mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun davam etdirilir.

**XQ**

# Xilasedicilərimiz 48 nəfərin cəsədini çıxarıblar

**Xankəndi şəhəri yaxınlığında yanacaqdoldurma məntəqəsində baş vermiş yanğın və partlayış hadisəsi ilə əlaqədar Azərbaycan Fövqəladə Hallar Nazirliyi axtarış-xilasetmə əməliyyatını sona çatdırıb.**

Həyata keçirilən əməliyyat nəticəsində FHN-in xilasediciləri tərəfindən 48 nəfərin cəsədi dağıntılar altından çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.

**XQ**



# Erməni vandalizminin yaraları sağaldılır

## *8 şəhər və 92 kəndin bərpa planı hazırlanıb*

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimindəki çıxışında bu barədə ətraflı bəhs edib. Dövlətimizin başçısı Ermənistanın torpaqlarımızı işğalda saxladığı dövrdə xalqımıza qarşı etnik təmizləmə həyata keçirdiyini vurğulayaraq bildirib: "Otuz il ərzində bir milyondan çox azərbaycanlı evlərindən didərgin salınıb. Onların 200 mindən artığı hazırkı Ermənistan ərazisindən sürgün edilib. Bizim şəhərlərimiz, kəndlərimiz darmadağın olunub. 30 il ərzində işğalçı qüvvələr bizə buraya qayıtmağa imkan verməyib".

Artıq düşməndən təmizlənən yaşayış sahələrimizdə həyat geri qayıdır. Vətən müharibəsindən sonra Azərbaycan keçmiş məcburi köçkünləri öz doğma yurdlarına mümkün qədər tez bir zamanda geri dönmək üçün urbisidə məruz qalan 10 min kvadrat kilometrdən çox ərazini sıfırdan yenidən qurmağa başlayıb, şəhərlər və kəndlərin inşasını sürətlə aparıb.

İndiyədək 8 şəhər və 92 kəndin Baş planı artıq təsdiq edilib və 30 kəndin təməli qoyulub. Qarşıdan gələn illərdə xüsusilə Şuşa və digər şəhərlərdə çox böyük, iri həcmli yaşayış layihələrinin həyata keçiriləcəyi planlaşdırılıb. İkinci Qarabağ müharibəsindən sonra bərpa işlərinə Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il üçün planlaşdırılan minimum büdcənin 2,4 milyard dollar olacağı nəzərdə tutulub. Bu məsələdə ən diqqətçəkən məqam isə odur ki, Azərbaycan bütün abadlıq, bərpa-quruculuq layihələrini heç bir maliyyə yardımı almadan, öz gücünə, öz vəsaiti hesabına həyata keçirib.

Qeyd edək ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2022-2026-cı illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"na əsasən, ilkin mərhələdə 100 yaşayış məntəqəsinin (8 şəhər, 8 qəsəbə və 84 kənd) bərpa edilməsi nəzərdə tutulub. Prezident İlham Əliyev tərəfindən 29 yaşayış məntəqəsinin təməli qoyulub. Ümumilikdə, Vətən savaşından dərhal sonra başlanan bərpa-quruculuq layihələri çərçivəsində dövlətimizin başçısı tərəfindən 105 layihənin təməli qoyulub, 63 müxtəlif təyinatlı tikinti obyektinin açılışı olub. Düşməndən təmizlənən ərazilərdə çoxsaylı sosial infrastruktur yenidən qurulub, iki hava limanı, avtomobil yolları, dəmir yolu, su elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar və digər obyektlər tikilərək istifadəyə verilib. Ötən ilin iyul ayından etibarən ilkin olaraq 2 şəhərə (Laçın və Füzuli) və 3 kəndə (Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış və Laçın rayonunun Zabux kəndləri) keçmiş məcburi köçkünlərin qayıdışı reallaşdırılıb.

Azərbaycanın "2022-2026-cı illər Böyük Qayıdış" proqramı çərçivəsində



Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına 40 mindən çox məcburi köçkünün şəhərlərə və qəsəbələrə köçürülməsi nəzərdə tutulub.

Azad edilmiş ərazilərdə indiyədək infrastruktur layihələri həyata keçirilib. İnnovativ tikinti materiallarından istifadə olunmaqla Zəngilan rayonunun Ağalı kəndində 200 fərdi ekoloji ev "ağıllı kənd" innovativ texnologiyalar əsasında tikilib. Əhalinin kənddə yaşaması üçün əlverişli şərait yaradılıb. Tikilib istifadəyə verilən 134 evə 600-dən çox vətəndaş köçürülüb.

"Ağıllı kənd"də artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. Əkin planına əsasən, müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb. "Ağıllı idarəetmə sistemi"nin data və təhlil mərkəzindən həyata keçirilməsi, müasir suvarma sistemlərindən istifadə olunması gerçəkləşdirilib.

Yeri gəlmişkən, Vətən müharibəsində əldə edilən tarixi Zəfərdən sonra işğaldan azad olunan ərazilərdə başlanan bərpa prosesi çərçivəsində kənd təsərrüfatının yenidən qurulması da diqqətdə saxlanılıb. Bunun üçün geniş, əhatəli tədbirlər planı hazırlanıb. İlk növbədə, həmin sahələrin kənd təsərrüfatına yararlı hala gətirilməsi üçün meliorasiya, irriqasiya sistemlərinin yaradılması nəzərdə tutulub. Eyni zamanda, bu torpaqların təyinatı üzrə uçotunun aparılması, yəni əkin, örüş, biçənək yerlərinin müəyyənləşdirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Hesablamalara əsasən, düşməndən təmizlənən torpaqlarda 155 min hektar ərazi ümumi kənd təsərrüfatı dövriyyəsinə cəlb olunacaq. Bu isə o deməkdir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında heyvandarlıq, həmçinin bitkiçilik üzrə indiki kənd təsərrüfatı həcminin 8 faizi nisbətində ümumi məhsul istehsalı reallaşacaq. Konkret olaraq, bu bölgədə 45 min ton ət, 200 min tondan çox süd istehsalına real şərait yaranacaq. Bu isə ölkəmizdə heyvandarlıqla bağlı ciddi idxal əvəzetməsini şərtləndirəcək.



İşğaldan azad edilmiş ərazilərimizə həyatın geri qaytarılması, dayanıqlı inkişaf, şəhər və digər yaşayış məskənlərinin yenidən qurulması sahəsində həyata keçirilən fəaliyyət, görülmüş işlər, eləcə də Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması, Azərbaycanın bu sahədə topladığı təcrübəni beynəlxalq tərəfdaşlarla bölüşməsi məqsədilə Milli Şəhərsalma forumlarının təşkil edilməsi, xüsusilə də tədbirin azad edilmiş ərazilərdə keçirilməsi mühüm önəm daşıyır. Bu baxımdan Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlığı da xüsusi diqqət çəkir.

Respublikamızda ilk dəfə olaraq keçən il oktyabrın 5-6-da BMT-nin Məskunlaşma Proqramı ilə birgə Ağdam və Bakı şəhərlərində 44 ölkədən ümumilikdə 400 nəfər iştirakçının qoşulduğu 1-ci Milli Şəhərsalma Forumu təşkil edilməsi də məhz ölkəmizin həmin əməkdaşlığa böyük əhəmiyyət verməsinin nəticəsidir. Hazırda da ölkəmizdə BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı ilə dünəndən başlayaraq "Şəhərsalma Həftəsi"nə start verilməsi də vurğulanan məsələnin bariz ifadəsidir.

Zəngilanda keçirilən "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimindəki çıxışında erməni işğalından əziyyət çəkən insanların çətin şəraitdə yaşadıqlarını, mənəvi çətinliklərlə üzləşdiklərini, öz haqlı hüquqlarından məhrum edildiklərini xatırladan dövlətimizin başçısı vurğulayıb: "Onlar bu imkanı, bu fürsəti 30 il idi gözləyirdilər ki, buraya qayıda bilsinlər. İkinci Qarabağ müharibəsi, bizim şanlı Qələbəmizlə bitən müharibə bu şəraiti onlara yaratdı. Bu gün bizdən gözləntiləri odur ki, tezliklə onları azad edilmiş torpaqlara qaytaraq. Böyük Qayıdış Proqramının icrası artıq imkan verib ki, keçmiş məcburi köçkünlər Laçın şəhərinə, Füzuli şəhərinə, Ağalı kəndinə, Talış və Zabux kəndlərinə qayıtsınlar".

Azərbaycanda şəhərsalma ilə bağlı yaranan əsas çağırışları, davam edən layihələri və şəhər gələcəyinə baxışı müzakirə etmək məqsədi daşıyan forum, həmçinin yerli fəaliyyətin stimullaşdırılması üçün müvafiq sahədə beynəlxalq təcrübələri, dayanıqlı şəhər inkişafı üçün bilik mübadiləsini, siyasətin formalaşdırılmasını, ictimaiyyətin cəlb olunmasını, bacarıqların artırılmasını, əməkdaşlığı və icra strategiyalarını təşviq edir.

***V.BAYRAMOV***
***XQ***

# Beynəlxalq Oğuz Türkcəsi Konfransı



**Bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasının və Türkiyənin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun tərkibinə daxil olan Türk Dil Qurumunun təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş Beynəlxalq Oğuz Türkcəsi Konfransı keçirilib. Tədbir 26-27 sentyabr tarixlərində iki gün davam edib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxış edərək beynəlxalq konfransın əhəmiyyətindən, ölkələrimiz arasında qədim tarixə və zəngin köklərə malik dostluq və qardaşlıq münasibətlərindən söz açıb. Tədbirdə Azərbaycan və Türkiyə ilə yanaşı, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Şimali Kipr Türk Respublikasından görkəmli alim və şairlər iştirak ediblər.

Konfransda Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun başqanı, professor Derya Örs, Türk Dil Qurumunun rəhbəri, professor Osman Mert, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Xalq şairi Sabir Rüstəmxanlı və digər çıxış edənlər Azərbaycan–Türkiyə, eləcə də Türk dövlətləri arasında elmi, mədəni əlaqələrin genişlənməsində və inkişafında konfransın əhəmiyyətini qeyd edib, beynəlxalq tədbirin işinə uğurlar arzulayıblar.

Tədbir öz işini AMEA-nın Mərkəzi Elmi Kitabxanasında bölmə iclasları ilə davam etdirib. Bölmə iclaslarında "Azərbaycanda Oğuz türkcəsinin tədqiqi ənənələri və qarşıda duran vəzifələr", "Türk dilləri ailəsində Oğuz türkcəsinin yeri və mövqeyi", "Oğuz" və "Oğul"un kökən birliyi", "XI-XIII yüzillikdə Səlcuqlu coğrafiyası türkcəsinin durumu" və digər mövzularda məruzələr dinlənilib, fikir mübadiləsi aparılıb. Beynəlxalq konfransın iştirakçıları Qobustan Milli Tarix-Bədii Qoruğunu da ziyarət edəcəklər.

*XQ*

# "Məkkə və Mədinədə Məhəmməd peyğəmbər, Türküstanda Xoca Əhməd..."

**Qazaxların mənəvi beşiyi adlandırılan Cənubi Qazaxıstanda türk, ərəb və fars salnamələrində adları çəkilən 1281 memarlıq abidəsi – Sayramın müqəddəs məkanları, Otrar şəhəri, Arıstanbab, Appak – İşana, Domalak ana, Baydibek ata və s. abidələrini bu gün də milyonlarla turist və zəvvarlar ziyarət edir.**

Tarixi XVI əsrdən başlayan, Qazax xanlığının paytaxtı hesab edilən, qazax dövlətçiliyinin möhkəmlənməsində böyük rolu olan Türküstanın müqəddəs simvolu isə mənəvi və tarixi qiyməti ilə əvəzsiz sayılan Xoca Əhməd Yasəvi mavzoleyidir.

Əmir Teymur Qızıl Orda hökmdarı Toxtamış üzərində qələbə çaldıqdan sonra Şərqin məşhur mütəfəkkir şairi, türk dilində sufi ədəbiyyatının yaradıcısı, təsəvvüf elminin bilicisi, "Divani-hikmət" əsərinin müəllifi Xoca Əhmədin şərəfinə Xoca Əhməd Yasəvi mavzoleyini tikdirib.

Əvvəllər Yassı adlanan Türküstan şəhəri onu Daştiqıpçaq çölü ilə birləşdirən Böyük İpək Yolunun qollarından biri olub. Bu yollardan Çindən, İrandan, Vizantiyadan gələn incə farfor, zərif parçalar, qiymətli daş-qaşlarla dolu karvanlar keçib. Xoca Əhməd Yasəvi bu şəhərdə ömür sürüb, insanlara xeyirxahlıq, sevgi, hörmət, şərəf hissləri aşılayan poemalarını bu şəhərdə yazıb.

Böyük sərkərdə və strateq Əmir Teymur Xoca Əhməd Yasəvi mavzoleyini 1385-1405-ci illərdə şairin sadə qəbri üzərində tikdirib. Əmir Teymur Şirazdan mozaika, İsfahandan daş və suvaq ustalarını gətirdib. Türbənin memarı İrandan dəvət olunan Xacə Hüseyn Əlidir.

Bu mavzoleyi tikməklə Əmir Teymur çox ağıllı siyasi addım atıb, köçəri xalqlar arasında öz nüfuzunu möhkəmləndirib. Mavzoleyin layihəsinin hazırlanmasında Əmir Teymur şəxsən iştirak edib. Mavzoleyin tikintisi zamanı həmin dövr üçün yeni olan arxitektura vasitələrindən istifadə olunub. Sonralar bu yeniliklər imperiyanın paytaxtı Səmərqəndin tikintisində də istifadə edilib.

20 il ərzində bu ərazidə özündə mavzoley, məscid, xanəgah (sufilərin ibadət evi), inzibati və təsərrüfat tikililərindən ibarət böyük kompleks ucaldılıb. Yaxınlıqda Yasəvinin ardıcılları olan sufilər üçün monastırın da tikintisinə başlanılıb, lakin Əmir Teymurun ölümü bu tikintini yarımçıq qoyub. Qazax xanlarının hakimiyyəti dövründə Xoca Əhməd Yasəvi mavzoleyi və ətraf binalar



xanların iqamətgahı olub.

Mavzoleyin tikintisi ilə bağlı maraqlı bir rəvayət var. Hər dəfə binanın divarları ucaldılanda tufan qopub və divarlar uçub. Bu hadisə dəfələrlə təkrar olunub. Bir dəfə Əmir Teymur yuxuda nurani bir qoca görür. Qoca Teymura deyir ki, əvvəlcə Xoca Əhmədin müəllimi Arıstan-babın qəbri üzərində mavzoley ucalt. Teymur buna əməl edib və bundan sonra Yasəvinin mavzoleyinin tikintisi davam edib.

Bura ziyarətə gələnlər əvvəlcə Arıstan-bab türbəsinə baş çəkir, sonra Xoca Əhməd Yasəvinin mavzoleyinə gəlirlər.

Xoca Əhməd Yasəvi memorial kompleksi düzbucaqlı formada, portallar və gümbəzlərlə bəzədilmiş nəhəng binadır. Mərkəzi Asiyada kərpicdən tikilmiş ən böyük gümbəz bu mavzoleydədir. Onu da deyək ki, gümbəz ta qədimdən müsəlmanlar tərəfindən birlik, bərabərlik və qənaqpərvərlik simvolu kimi qəbul edilib.

Binanın enli daş divarları içəri xoş bir sərinlik gətirir, dəhlizdə gəzərkən addım səsləri əks-səda verir, dəmir barmaqlıqlı pəncərələr günəş işığını zəiflədir və bütün bunlar sehirli bir atmosfer yaradır.

Mavzoleydə 36 müxtəlif otaq və salon var. Divarları mavi örtüklü mərkəzi salonun düz ortasında 7 metalın – sink, dəmir, qurğuşun, qalay, gümüş, qırmızı mis və qızılın əridilməsindən lotos gülü formasında hazırlanan, diametri 2,45 metr olan tayqazan yerləşir.

Tayqazan 1399-cu ildə Teymurun əmri ilə təbrizli usta Abdüləziz ibn Şərəfəddin tərəfindən Xoca Əhməd Yasəvinin şərəfinə hazırlanıb. İki tonluq bu qazanda cümə namazından sonra insanlar üçün yemək hazırlanıb. Tayqazanla bağlı maraqlı bir rəvayət var. Deyilir ki, tayqazan qurbanlıq ət üçün nəzərdə tutulub. Əgər Allahın sevdiyi bir adam qurban kəsirmişsə qazan ətlə dolub-daşırmış, yəni Allah qurbanı qəbul edirmiş. Əgər qazana qoyulan ət çoxalmırdısa, bu o demək idi ki, kəsilən qurban qəbul olunmayıb.

1935-ci ildə tayqazan Leninqrada (Sahkt-Peterburq), Ermitajda keçirilən betnəlxalq sərgiyə göndərilir. Yalnız 54 il sonra, 1989-cu il sentyabrın 18-də tayqazan Türküstana-pö əvvəlki məkanına qaytarılır.

Əmir Teymurun mavzoleyə hədiyyəsi olan bürünc çıraqlar da mərkəzi salonda asılıb. Hazırda bu çıraqların ikisi Əmir Teymurun hədiyyəsi kimi Luvr və Ermitaj muzeylərində saxlanılır.

Əmir Teymurun əmri ilə fil sümüyündən hazırlanan, uzunluğu 4 metr olan bayraq dirəyi də mərkəzi salondadır.

Bu zalda diplomatik qəbullar, hərbi danışıqlar, müxtəlif yığıncaqlar keçirilib. Burada Abılay xanın Orenburq general-qubernatoruna, həmçinin Çin imperatoru Tsyanluna əməkdaşlıqla bağlı yazdığı məktublar saxlanılır. Kiçik zalda isə qazax xanlarının (Abdulxayr xan, Rabiqa Sultan-Bəyim, Jolbarıs xan, Esim xan, Ondan sultan və başqalarının qəbirləri (cəmi 43 qəbir) var.

Kompleksdə, həmçinin Xoca Əhməd Yasəvinin qapısı fil sümüyündən və ağacdan olan məqbərəsi, şairin hücrəsi, kiçik məscid, kitabxana, hamam, yemək otağı (burada qədim sobalar, qazanlar, taxta qab-qaşıq qorunub saxlanılıb), quyu var. Bu quyunun duzlu suyu müalicəvi sayılır, mədə-bağırsaq xəstəlikləri üçün faydalıdır. Bu quyudan evlərinə müxtəlif qablarda su aparan şəxslər bir şeyə diqqət ediblər. Əgər bir müddət sonra suyun dibində qara çöküntü əmələ gələrsə onu içmək olmaz. Bu da ona işarədir ki, həmin insan öz mənəvi aləmi haqqında fikirləşməli, götür-qoy etməlidir.

Sarayın "Kakla" və "Kapsırma" adlanan iki qapısı da bizim dövrə qədər gəlib çatıb.

Mavzoleyin çox zəngin kitabxanası var. Lakin kitabxanada Xoca Əhməd Yasəvinin öz əli ilə yazdığı bir əsəri belə yoxdur. Bu da onunla izah edilir ki, 1864-cü ildə polkovnik Veryovkinin hücumu, sonra isə sovet hökümətinin Türküstanı ələ keçirməsi nəticəsində qiymətli kitablar yandırılıb.

Sonda bildirək ki, türkün hikmət xəzinəsi olan Xoca Əhməd Yasəvinin mavzoleyinin ətrafındakı ərazidə "Həzrət-sultan" tarixi-mədəni muzey-qoruğu yerləşir. Mavzoleyin özü isə UNESCO-nun ümumdünya irsi siyahısına daxil edilib. UNESCO, həmçinin 2016-cı ili Xoca Əhməd Yasəvi ili elan edib və həmin il böyük mütəfəkkirə həsr olunan çoxsaylı tədbirlər keçirilib.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Orta Asiya üzrə xüsusi müxbiri*

# İstanbul boğazında balıq ovu

**Bu günlərdə TRT agentliyi öz müxbiri Yusif Kamadanın İstanbul boğazında suya qarmaq ataraq balıq tutanların arzu və düşüncələri barədə qeydlərini təqdim edib. Yazını kiçik ixtisarla oxuculara təqdim edirik.**

Qara dənizi Mərmərə dənizinə birləşdirən İstanbul boğazı, sadəcə, su yolu deyil. Bura şəhər sakinlərinin dənizlə dərin əlaqəsinin təcəssümüdür. Günəş üfüqdə qürub edən zaman şəhərin minarələri və körpüləri alaqaranlığa qarşı dramatik siluetlər yaratdıqca, İstanbul boğazının sakit səthinin altında daha bir valehedici tamaşa açılır. Burada, qitələri və dövrləri birləşdirən bu qədim su yolunda İstanbulun özü kimi qədim bir ənənə yaşamaqda davam edir - balıq ovu.

İstanbul boğazının parıldayan suları ilə səyahət isə təkcə dənizin dadlı və çeşidli nemətlərini deyil, həm də şəhərin ruhunu, sirli və cazibədar balıqçılıq sənətini göz önündə canlandırır.

Qeyd edək ki, İstanbul boğazı bu gün təkcə baxımlı mənzərələri ilə məşhur deyil. O, hazırda dünyanın ən çox balıq ehtiyatına malik su obyektlərindən biri olması ilə də öyünür. Buranın suları daim oksigenlə zəngindir. Bol oksigen olan yerdə isə, əlbəttə, çoxlu balıq və dəniz həyatı var.

**İstanbul sakini, təcrübəli balıqçı Hakkı Doğruer ata-babadan ona sirayət edən balıq tutmaq həvəsini "TRT World" müxbiri ilə bölüşərkən deyib:**

– Uşaqlıqdan balıq tuturam. İnanın mənə, bu, vazkeçilməz bir ehtirasdır. İnanıram ki, balıqçılıq fitri insan instinktidir. Mənim tək buna hobbi kimi baxanlar da az deyil. Həm də ailəsinin büdcəsinə kömək etmək üçün balıq tutanlar da var. İstanbul mübarək bir şəhərdir,



ildən-ilə minlərlə balıqçıya ruzi verməyə davam edir.

Hazırda İstanbul boğazında ən çox ovlanan balıq palamutdur. "Atlantik palamutu" kimi də tanınan bu balıq növlərinin bir kiloqrama qədər çəkisi və 40 santimetrə qədər uzunluğu olur. Onların dadı isə tamamilə bir başqa aləmdir. Bir dəfə ondan dadan mütləq deyir ki, kaş bu, tez-tez təkrar olunaydı.

Boğazda balıq tutmaq təkcə xurcunun dəniz məhsulları ilə doldurmaq deyil. Bəlkə, daha çox ruhi-qidadır. Bu, həmçinin təbiətin ritmlərinin təntənəsi və İstanbulda qədim ənənələrin müasirliklə harmonik şəkildə mövcud olduğunu xatırladan bir irs hekayəsidir.

*Təqdim etdi:*
*Anar TURAN*
*XQ*

**Sosial şəbəkələrdən seçmələr**

# Böyük Turan sevdalısı...

**Sosial şəbəkələrdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri, tanınmış jurnalist, ictimai xadim Qənirə Paşayevanın vaxtsız vəfatı münasibətilə çox sayda kövrək və səmimi paylaşımlar edilir.**



Onların arasında Qubanın Birinci Nügədi kəndinin sakini, gənc bağban Üfüq İsgəndərlinin ürək sözləri diqqətimizi cəlb etdi. Üfüq yazır:

– Bu acı xəbər bizi sarsıtdı ...Millət vəkili, Vətən və millət aşiqi olan el qızı Qənirə Paşayeva bu vəfasız dünyadan haqq dünyasına getdi...

Qənirə xanım Böyük Turan sevdalısı idi. O, bu böyük arzunun çin olması üçün ömrünü, sanki, şamın ətrafında dövrə vuran bir pərvanəyə çevirmişdi... Ruhu şad olsun!"

Kollektivimiz bugünkü "Turan elləri" səhifəsini əziz və unudulmaz Qənirə xanımın işıqlı xatirəsinə həsr edib.

*XQ*

# Tanrıdan Turana verilib bu pay



**Ey türk! Kükrə, özünə dön,**
**sən özünə dönəndə böyük olursan.**
**Bilgə Xaqan**

*Günəş qəlbimizdən doğar dünyaya,*
*İşıqla doludur içimiz bizim.*
*Dünyanı sevgiylə dolduracağıq,*
*Hər şeyə dönəndə heçimiz bizim.*

*Tanrıdan Turana verilib bu pay,*
*Bizim eşqimizdə çağlayacaq çay.*
*Bizdə danışacaq Günəş, ulduz, Ay,*
*Hər yerə gələndə ünümüz bizim.*

*Arzular dönəcək durna səfinə,*
*Uçacaq dünyanın hər tərəfinə.*
*Həyatın, varlığın şan-şərəfinə,*
*Birə min çatacaq gücümüz bizim.*

*Sağı var, solu var, yurd-yuvası var,*
*Öz sazı, öz sözü, öz havası var.*
*Hələ bu dünyayla bir davası var,*
*Hələ alınmayıb öcümüz bizim.*

*Önə bax, geriyə yol yoxdur daha,*
*Şəhidlik müqəddəs, igidlik baha.*
*Dünya dar gələcək bir padşaha,*
*Çox uzaq gedəcək kökümüz bizim.*

*Əriyib yolunda ömür də, gün də,*
*Dayaq biz olmuşuq ağır günündə,*
*Tarix yaratmışıq tarix önündə,*
*Yoxdu günahımız, suçumuz bizim.*

*Nə qədər sirr yatır sükut dilində,*
*İgidlər danışır igid dilində.*
*Dünəndən söz açır şəhid dilində,*
*Qəsrimiz, qalamız, bürcümüz bizim.*

*Yersiz öz işimi öyə bilmərəm,*
*Tarixin qəlbinə dəyə bilmərəm.*
*Bir ilmi, on ilmi, deyə bilmərəm,*
*Bir az var tezimiz-gecimiz bizim.*

*Turanın varlığı əzizdən əziz,*
*Onun hökmündədi bu çay, bu dəniz.*
*Torpağı sağlamdı, havası təmiz,*
*Olmaz çürüyümüz, puçumuz bizim.*

*Dünyaya səs salıb bir igid, bir at,*
*Min illər beləcə davam edib həyat.*
*Bizdən işıq alıb qoca kainat,*
*Yoxdu heç bir kəsə borcumuz bizim.*

*Zəlimxan YAQUB*
*Xalq şairi*

**Bakı, 2010-cu il**

Vandallığın izi ilə

# Şuşa: Çuxur məhəllədən Gəncə qapısına

**Qarabağın tacı sayılan Şuşa yalnız gözəl təbiəti, saf havası, məşhur insanları, musiqiçiləri ilə deyil, həm də çoxsaylı abidələri, qədim tikililəri, adla tanınan evləri ilə məşhurdur. Xüsusən şəhərin Çuxur məhəllə deyilən hissəsini gəzərkən bunun bir daha şahidi olduq.**

Məhəlləyə Yuxarı Gövhər ağa məscidinin qarşısından keçən küçədən daxil olduq. Şuşa şəhər 1 nömrəli tam orta məktəbinin yaxınlığındakı əzəməti bir bina diqqətimizi çəkdi. Bu bina Şuşanın qədim bəy nəslindən olan Hacı Qulunun (Qulu Məhəmmədəli oğlu) malikanəsi olub. Üçmərtəbəli saraytipli evi 1849-cu ildə Hacı Qulu inşa etdirib.

Bəs, Hacı Qulu barəsində biz nə bilirik? Bu sualı əslən şuşalı olan Tahirə Məmmədova cavablandırdı. Onun sözlərinə görə, Hacı Qulu bir zamanlar Cəfərqulu xan Məhəmmədhəsən oğlu Sarıcalı-Cavanşirə xidmət edib: "Daha sonra ticarətlə məşğul olub. Şuşanın varlı tacirlərindən birinə çevrilib. Əqli, fərasəti və zirəkliyi sayəsində xeyli var-dövlət toplayıb. O, XIX əsrin 70-ci illərindən qəzada ikinci gildiya taciri kimi tanınıb. Şuşa qəza və kəndlərində çoxsaylı dükanları olub. Bu dükanlarda isə Rusiya və başqa dövlətlərinin malları satılıb. O, qazanc mən-



bəyi kimi həm də icarədarlıqdan istifadə edib. Qənaətçiliyi ilə fərqlənən, var-dövlətinin qədirini bilən, sərvətini sağa-sola xərcləməyən tacir olub. O, Həccə ziyarət edib".

Tahirə Məmmədova daha sonra dedi ki, Hacı Qulu qənaətçil olduğuna və pulunun qədrini bildiyinə görə, onun xəsisliyi barəsində şayiələr yayılıb. Bir lətifədə deyilirmiş: "Hacı Qulunun çoxdan bəri işlətdiyi bir taxta qaşığı vardı. Qonsusu hər dəfə görəndə bir sınıq-salxaq qaşığı indiyədək saxladığına görə onu məzəmmət edirdi. Axır ki, o, bir gün özünü saxlaya bilməyib deyir:

– Bilirsən, qaşığı çoxdan atardım, intəhası indiyə qədər öz canına çəkdiyi yağa heyfim gəlir". Buna baxmayaraq onun əliaçıqlığı da olub".

Öyrəndik ki, Hacı Qulu nə qədər qənaətçil olsa da, ailəsinin rahatlığı üçün tikdirdiyi əzəmətli binaya böyük məbləğdə pul xərcləyib. Bina öz memarlıq üslubu və milli koloriti ilə möhtəşəm olub. Mülkün 46 otağı və 2 böyük qonaq salonu var imiş. Birinci mərtəbədəki xidməti otaqları, ikinci mərtəbədə yemək və yataq otaqları yerləşirmiş. Evin üçüncü mərtəbəsində iri salon və onun yanlarında qonaq otaqları varmış".

Tahir Şuşalı qeyd edir ki, əksər Şuşa ev və saraylarından fərqli olaraq, Hacı Qulunun mülkünün bütün fasadlarında çox sayda geniş pəncərələr yerləşirmiş. Pəncərələr hamısı şəbəkə ilə işlənibmiş.



Hacı Qulu bu dünyanın vəfasızlığından, var-dövlətinin, mülkünin bir vaxtlar əlindən çıxacağını hiss edirmiş. Barəsində qoşulmuş lətifədə bu açıq-aydın görünür. "Şuşada ən varlı şəxslərdən biri Hacı Qulu, ən kasıbı isə cındır paltarlı sudaşıyan, yetim Rzaqulu idi. Bir gün söhbət əsnasında Hacı Quluya deyirlər ki, adın eşidiləndə camaat dərindən "ah" çəkir. Hacı Qulu heç düşünmədən onlara belə cavab verir:

– Çox nahaq yerə! Qoy camaat Hacı Quluya baxıb köks ötürüncə, Rzaquluya baxıb, şükür eləsin".

Sovet hakimiyyəti qurulduqdan sonra Hacı Qulunun da var-dövləti, mülkləri ailənin əlindən alınır və onun Rzaquludan fərqi olmur. Əslində olur. Çünki yeni quruluşda onun kimi imkanlılar deyil, Rzaqulular ixtiyar sahibi olurlar.

1992-ci ildə Şuşa şəhərini ermənilər işğal edəndə Hacı Qulunun mülkü top atəşinə tutularaq dağıdılıb, binaya ciddi ziyan dəyib. Hazırda divarlarının bəzi hissələri qalıb.

Şəhər işğaldan azad edildikdən sonra Şuşa dirçəliş mərhələsinə qədəm qoyduğundan bərpası nəzərdə tutulan abidə və tikililərin arasında bu malikanə də var.

Malikanənin fotosunu çəkdikdən sonra yolumuza davam edirik. Qarşıdakı Çuxur məhəllə meydanından müxtəlif istiqamətlərə küçələr çıxır. Meydanda yalnız divarları qalmış bina diqqətimizi çəkdi. İlk baxışdan yaşayış binasını xatırlatsa da, divardakı lövhədən aydın oldu ki, Çuxur məhəllənin məscididir. Vaxtilə Şuşanın digər məhəllə məscidləri kimi Çuxur məhəllə məscidinin də interyerində memarlıq elementlərindən, vasitələrindən geniş istifadə edilib. Quran yazıları, yapma bəzəkləri diqqti cəlb edir. Amma indi bütün bundan quru uçuq divarlar qalıb.

1992-ci ildə Şuşanın işğalı zamanı şəhərin digər tarixi məkanları kimi, Çuxur məhəllə məscidi də erməni vandalizminə məruz qalıb. Ermənilər məscidlə yanaşı, meydanın ətrafında yerləşən digər tarixi tikililəri də dağıdıblar. Burda bir bulaq da



var: Çuxur məhəllə bulağı. 1791-ci ildə məhəllənin varlı insanlarının inşa etdirdikləri ikigözlü bulaq meydanın 3 yol ayrıcında yerləşir.

Yuxarıda qeyd etdiyim kimi, meydandan 3 küçə ayrılır. Onlardan biri Hacı Qulunun malikanəsinə, ikincisi Bülbülün Ev Muzeyinə gedir. Üçüncüsü aşağı küçə evləri ilə deyil, Mir Həsən Vəzirovla tanınıb. Bu barədə Naida Manaflı deyir: "Mənim babamın evi Çuxur məhəllədə yerləşirdi. Balaca bir meydandan aşagı küçə başlayırdı. O yadımda idi ki, həmin küçədəki bir evin divarında lövhə vardı. Yazılmışdı ki, 26 Bakı komissarlardan olan Mir Həsən Vəzirov bu evdə doğulub. Mir Həsən Vəzirov 1918-ci ilin mayından Bakı Xalq Komissarları Sovetinin torpaq komissarı olub. Heç bilmirəm indi həmin küçədəki evlər sağ- salamatdı, ya yox..."

Nəhayət, Bülbülün Ev Muzeyini ziyarət edirik. Ev 2 otaq və eyvandan ibarətdir. Polad Bülbüloğlunun vəsaiti ilə təmir edilib. Bülbül bu evdə anadan olub və uşaqlıq illərini burada keçirib, ilk dəfə musiqi aləminə qədəm qoyub. Muzeydə yenidən müğənniyə aid əşyalar və sənədlər sərgilənir.

Muzeyin bərpa işlərində Həbibə Əliyeva iştirak edib. O dedi: "2022-ci il oktyabrın ayında ezamiyyətdə olarkən Hacı Qulunun və Şirin bəyin erməni vandalizminin qurbanına çevrilən dağıdılmış mülklərini və Bülbülün Ev Muzeyinin üzərindəki kitabələri işlədim, amma məsciddə kitabə ilə rastlaşmadım. Bəlkə, kitabəsi mövcud olub, sonra vəhşilər tariximizi silmək niyyətilə məhv ediblər. Bu onların adətidir..."

Qəmzə Nəcəfova isə deyir ki, Çuxur məhəlləsinin ən azı 270 il tarixi var. Bu məhəllə babamın–Xanbudaqovların yurdudur: "Babamın iki mərtəbəli evini alıb sakinlərə vermişdilər. Erməni işğalına qədər anam uşaqlığı keçən həmin məhəlləni, qocaman tut ağacını yad edərdi".

Nəhayət, Çuxur məhəlləni tərk edib Gəncə qalasına doğru getdik. Hər tərəfdə genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl simasının, tarixi və mədəniyyət abidələrinin bərpasına start verilib. Bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur. Görülən işlər Şuşanın dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəyinə əminlik yaradır.

Ən önəmlisi küçədə qarşılaşdığımız insanların simasında sevinc, gələcəyə inam vardı.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

Azərbaycan kinosu – 125

# Kinomuzda ilk uşaq qəhrəmanları

**Ötən əsrin 20 ci illərinin sonundan etibarən keçmiş SSRİ-də kollektivləşmə siyasətinə başlanıldı. Qolçomaqlara qarşı mübarizə gücləndi. Bütün əkin torpaqları kollektiv təsərrüfatlarda cəmləşdirildi. Sovetləşmə siyasəti ədəbiyyat və incəsənətə də şamil edildi. Kinomuz da da bu siyasətdən kənarda qalmadı.**

Kollektivləşməyə qarşı Şəki üsyanının baş verdiyi 1930 cu ildə kinorejissor Mikayıl Mikayılov "Lətif" adlı ilk səssiz bədii filmini ekranlaşdırıb. Lətif Azərbaycanda ilk uşaq filmi kimi xarakterzə olunur. Filmin qəhrəmanı Lətif (Lətif Səfərov) qolçomaq Hacı Səmədin (A. Bəzirganov) muzdurudur. Onun üçün uzunqulaqla su daşıyır. Sözsüz ki, balaca qəhrəmanın bu əməyinin elə yüksək qiyməti yoxdur. Biz bunu anası ilə olan səssiz dioloqundan da hiss edirik. Evdə yaranmış çətin şərait Lətifin anasının əhvalına büsbütün təsir edir. Buradan dövrün sosial sifarişi özünü qabarıq göstərir.

Filmdə traktor kollektivləşmənin rəmzi "obraz"ıdır. Hacı Səməd üçün ən qorxulu məsələ kollektivləşmə olduğuna görə, kəndə traktor gətiriləndə siravi kəndlilər sevinsələr də, o, xofa düşür. Traktoru sıradan çıxarmaq kimi məkrli plan cızır. Hacı Səməd düşünür ki, traktorları dağıdıb hissələrini sıradan çıxarmaqla kollektivləşmənin qarşısını ala, və cəmiyyətdə özünün əvvəlki məqamını qoruyub saxlaya bilər.

Lətifdə isə texnikaya güclü maraq oyanır. O, gələcəkdə traktorçu olmaq istəyir. Filmin uşaq qəhrəmanı konsepsiyası bununla qurulmağa başlayır. Əvvəl sahibi Hacı Səməddən qorxan Lətif bu dəfə ürəklənərək, ondan zəhməthaqqını almaq istəyir. Film səssiz olsa da, sanki Lətifin Hacı Səmədin evinə yaxınlaşmasının səsini eşidirik. Kollektivləşmənin xofunu yaşayan qolçomaq hər an qapılarının döyülməsindən qorxur. (Əslində, bu epizod 37-ci il represiyyalarının başlanacağını qabaqcadan xəbər verir). Hacı Səməd qapıda onu həbs edəcək şəxsləri görməsə də, niyyətini bildirən uşağın timsalında zərbə alır. Lətif ağasından pul alaraq şəhərdə traktorçuluq kursuna gedəcəyini anladır. Muzdurun traktorçu olmaq arzusu Hacı səmədlərin labüd sonunun çatması deməkdir.

Qolçomaq muzdurunu şərləmək yolu tutur. Traktorların hissəslərini sıradan çıxartdırı ki, Lətif cəzalandırılsın. Kolxoz sədri ( Ələsgər Ələkbərov) bundan xəbər tutanda qolçomaqlar həmin əməli Lətifin törətdiyini qeyd edirlər. Lakin kolzxoz sədri buna inanmaq istəmir. Çünki o yeni quruluşun adamıdır. Gələcəyin traktorçusu olacaq Lətif onun gözündə yeni quruluşu təmsil edən şəxsdir. Hər bir halda kənddə yaranmış ağır durum Lətifi bezdirir və o, şəhərə üz tutur.

Mahiyyət etibarı ilə Lətif filmin romantik qəhrəmanıdır. Çünki yaşına uyğun olmayan arzularla yaşayır. Kənd vağzalında onun gözünə gur işıqların düşməsi maraqlı həll




variantını ortaya qoyur. Bu, işıqlı sabahlar anlamına gəlir. Lətif şəhərdə olarkən həmyaşıdının boynundakı qalstuku görərək nə olduğu ilə maraqlanır. Bir uşaq ona həmin qalstukdan bağışlayır. Lətif artıq muzdur deyil, pionerdir. Düzdür, yaşının azlığına görə Bakıda traktorçuluq məktəbində oxumur, lakin artıq kəndə daha cəsarətli bir şəxs kimi qayıdır. Üzərinə atılan ləkəni – böhtanı təmizləyir. O, keçmiş sahibi Hacı Səmədi və əlaltılarını ifşa edir. Traktor hissəslərini tövlədə basdiran qolçomağın adamlarının əməlləri ifşa olunur.

Mikayıl Mikayılovun bu ekran işi kino tariximizin qızıl fonduna daxil olub. Dövrün ideloji tələblərinə əsasən çəkilməsinə baxmayaraq, kinematoqrafiyamızda uşaq filmlərinin ilkin nümunələrindən biri kimi dəyərlidir.

*Ceyhun MİRZƏLİ*

Klassik əsərlər ekranda

# Rejissorlar "Ac həriflər" rollarında

**Adları teatr və kino tariximizə həkk olunmuş bir çox rejissorlarımızı tamaşaçı kütləsi üzdən tanımır. Bəlkə də, çoxlarının adı da yaddaşlardan silinib. Tamaşaçı çox zaman kadr arxasında qalanların əməyi ilə deyil, görünən, üzdə olan aktyorla və onun rolları ilə maraqlanır. Fərqinə çox az varırıq ki, aktyoru da, rolu da ərsəyə gətirən, yetişdirən rejissordur.**

Bu baxımdan ilk dəfə bütün rejissorları bir araya gətirib, onları yalnız quruluşları ilə deyil, simaları ilə də tarixə salan bir rejissor var. Söhbət Ramiz Həsənoğlu və onun televiziya teatrı tarixinə yazdığı "Ac həriflər" tamaşasından gedir. Uzun illərdir ki, bu tamaşaya ekranlarda sevilə-sevilə baxılır və hər dəfə yeni imiş kimi qarşılanır.

Əbdürrəhim bəy Haqverdiyevin "Ac həriflər" əsəri istər oxucunun, istərsə də tamaşaçının yaddaşında onun tamaşası həlli ilə qalıb. Teletamaşanı bu janrda görkəmli rejissor Ramiz Həsənoğlu ərsəyə gətirib. Rejissor hələ orta məktəbdə dram dərnəyində o tamaşada oynayandan əsərə vurulub. Sonralar, 90-cı illərin əvvəllərində Mədəniyyət və İncəsənət Universitetində rejissorluqdan dərs deyəndə Ramiz Həsənoğlu təklif edir ki, birimiz rejissorluq etməklə "Ac həriflər"i tamaşaya qoyaq və qalanlarımız rolları bölüşək. Beləcə, "Ac həriflər" ilk dəfə radio-tamaşa kimi Tofiq Tağızadənin rejissorluğu ilə ərsəyə gəlib. 2 il sonra "Sabah" yaradıcılıq studiyasında çalışan Ramiz Həsənoğlu həmin heyəti yığıb teletamaşa hazırlayıb. "Sabah" yaradıcılıq ocağının bünövrəsi həmin tamaşa ilə qoyulub.

**Rollar rejissorlar arasında bölüşdürülüb. Yalnız Yaşar Nuridən başqa. Ramiz Həsənoğlu deyir ki, əslndə mən onu gənc rejissor kimi həmin tamaşaya dəvət etdim:**

– Yaşar Nuri o vaxt Musiqili Komediya Teatrında rejissor kimi tamaşa hazırlamışdı. Məni ən çox incidən də Yaşar oldu, çünki o aktyor idi, şıltaqlıqları vardı. Rejissorlarda belə şeylər yoxdur. Yaşar istedadına arxalanıb məşqlərə hazır gəlmirdi və nəticədə əlavə vaxt itirirdik. Tofiq Tağızadə öztəcrübəsindən çıxış edib mənə məsləhətlər verirdi. Bəzilərini götürürdüm, bəzilərini isə "mən belə görmürəm", – deyib vəziyyətdən çıxırdım. Televiziyada dubllarla istədiyin nəticəni ala bilirsən. Tofiq Tağızadənin yaddaşında problem vardı, sözlər yadında qalmırdı. Dublları montaj etməklə vəziyyətdən çıxdıq. Cahangir Novruzovu isə ağlatdım. O qədər müdaxilə edirdi, məsləhət verirdi ki, axırda dedim: "Cahangir, sən burda aktyorsan, rejissor nə deyir, onu elə". Bir də gördüm gözləri doldu. Cahangir yemək səhnəsində əziyyət çəkirdi. Uzun saqqal-bığ ona maneə olurdu. "Toyuğun bir dərisi, bir gerisi" – deyib toyuğu parçalayır, ağzına aparırdı, dublu çəkirdik, qoyurdu yerə.

Əlavə edək ki, rolların hamısını rejissorlar oynadığından, təbii ki, öz müdaxilə, yaxud improvizələrini də etməmiş deyildilər. Rəhmətlik Hüseynağa Atakişiyevlə Cahangir Novruzovun səhnəsində onların "Otellodan" "Çıx yerin dibindən, qara intiqam" – deyə sitat gətirmələri sırf improvizədir və rejissor da bunu çox bəyənib. Bu rejissorlar zaman-zaman aktyor kimi də tanınıblar. Eləsi də var ki, ekranda yalnız bu tamaşa ilə qalıb.

**Bəstəkar Cavanşir Quliyev:**

– Rejissorları qrimdə görmək mənə çox gülməli gəlirdi. Dəfələrlə bu səbəbdən çəkiliş pozulurdu. Mən baxıb gülürdüm, rejissorları da gülmək tuturdu. Ümumən, çox gözəl, yaradıcı, səmimi mühit vardı. Ramizə daha bir-neçə elə iş arzu edirəm ki, bizi də başına yığsın".

**Bəhram Osmanov:**

– Ramiz mənə Zərbəli obrazını təklif edəndə dedi ki, heç kim bu rolu bəyənib oynamaq istəmir. Mən də həmin vaxt Çexovun "6-cı palata"sını işləyib hazırlamışdım. Dedim, bu şərtlə razı olaram ki, "Sabah" studyasında o tamaşanı hazırlayım. Zərbəlini oynayıb qurtarandan 10 gün sonra Ramiz dəvət elədi, "6-cı palata"nın çəkilişlərinə başladım. Gənc rejissor idim, boynumu büküb korifeylərin çıxartdıqları oyunlara baxırdım, öyrənirdim.

Çıxartdıqları oyunlar isə, bəlkə də, efirdə görünənlərdən də maraqlı olub. Film-tamaşada hadisələr Həsən dayının (Yaşar Nuri) yeməkxanasında cərəyan edir. Həmin gün Həsən dayının heç bəxti gətirmir. Özünü ac-yalavac yeməkxanaya salan həriflər doyunca yedikdən sonra pul ödəməmək üçün ona kələk gəlirlər. Özü demişkən: "Çörəyi yeyən qaçır"...

Cahangir Novruzov – Dərviş, Nazim Abbas – İbrahim bəy, Tofiq Tağızadə – Mirzə Mahmud, Bəhram Osmanov – Zərbəli, Hüseynağa Atakişiyev – Aktyor,

Kərim Kərimov – Süleyman, Məmmədkamal Kazımov – Səlman, Arif Mədətov – Türk, Ədalət Ziyadxanov – Mirzə, Vaqif Əsədov – Əhməd, Yusif Əkbərov – Rza, Anaxanım Abdullayeva – "Əcnəbi", Şamil Nəcəfzadə – İngiliscə danışan azəri, Arif Qasımov – Meyxana deyən, Ramiz Həsənoğlu özü (Ramiz Drazi kimi) – Ağıldankəm uşaq rolları ilə ekrana düşən rejissorlardır.

Tamaşanın rejissurasında Ramiz müəllimə o vaxt hələ gənc olan Şərif Qurbanəliyev kömək edib. Quruluşçu operator Eldar Məmmədov, quruluşçu rəssam Rəfael Əsədov, bəstəkar Cavanşir Quliyev olub. Tamaşada səslənən şeirlərin müəllifi Ramiz Rövşəndir.

*Ramilə QURBANLI*
*XQ*

XQ-nin Kitab rəfi

# Xatirə, dərslik və şeirlər

**"Niyazi xatirələrdə" adlı yeni kitab Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin təşkilatçılığı ilə oxuculara təqdim olunub.**




Nəşrdə dünyaşöhrətli dirijor, bəstəkar, ictimai xadim, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Niyazi Tağızadə–Hacıbəyov haqqında 1987-ci ildə rus dilində işıq üzü görən "Maestro Niyazi. Xatirələr, məqalələr, məktublar" kitabının (tərtibçilər Həcər Hacıbəyova və Əsildar Hüseynovdur) "Xatirələr" bölməsinin tərcüməsi yer alıb. "Orxan" Nəşriyyat və Poliqrafiya Müəssisəsində çap olunan kitab muzeyin zəngin kolleksiyalarından fotolar və digər materiallarla illüstrasiya edilib.

Layihə rəhbəri və elmi redaktoru Alla Bayramova olan kitabda Ümummilli Lider Heydər Əliyevin 1994-cü il sentyabrın 18-də Niyazinin Mənzil Muzeyinin açılışında söylədiyi nitqi, görkəmli Azərbaycan mədəniyyət xadimləri ilə yanaşı Rusiyadan, Türkiyədən, Gürcüstandan olan mədəniyyət xadimlərinin xatirələri yer alıb. Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar görkəmli sənətkarın ömür və sənət yolunun maraqlı məqamları haqqında məlumat verib. Musiqi Akademiyasının professoru, Xalq artisti Xuraman Qasımova və görkəmli musiqişünas, Əməkdar incəsənət xadimi Zemfira Qafarova sənətkarın həyat və yaradıcılığından ətraflı söz açıblar.

Kitab Niyazinin şəxsiyyəti və yaradıcılığı ilə və ümumilikdə XX əsr Azərbaycan musiqi mədəniyyəti ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

*

**Elm və Təhsil Nazirliyi tərəfindən "Tolışə Zıvon" – talış dili dərsliyi təsdiqlənərək dərc olunub.**




İbtidai siniflər üçün nəzərdə tutulan yeni dərslik artıq tədris edilmək üçün müvafiq məktəblərə verilib. Kitabın müəllifləri AMEA Dilçilik İnstitutunun əməkdaşları Rasim Heydarov, Aqil Cəfərov və Elvin Səmədovdur.

Bildiyimiz kimi, Azərbaycan Respublikası Avropa Şurasının tam hüquqlu üzvü kimi, həmin qurumun "Regional dillərin və ya azsaylı xalqların dillərinin Avropa Xartiyası" prinsiplərini həyata keçirmək üçün əməli tədbirlər görür. Dərsliklərin çapı da onların dillərinin tədrisi ilə bağlı lazımi şərait yaradıldığını göstərir.

Qeyd edək ki, "Azsaylı xalqların dili" fənni üzrə dərslik komplekti üzrə "Talış dili" ilə yanaşı, I-IV siniflər üçün "Saxur dili, "Xınalıq dili" və I sinif üçün "Haput dili" dərslik komplektlərinin çapı da reallaşıb. Eyni zamanda ölkəmizdə tədris gürcü dilində olan məktəblərin tələbatına əsasən, Gürcüstan Elm və Təhsil Nazirliyindən daxil olmuş 1,5 min nüsxə dərslik tədris bu dildə aparılan məktəblərin şagirdlərinin istifadəsinə verilib.

*

**Tanınmış şair Murad Qoçuoğlunun yeni kitabı "Mən hər gün Günəşi qarşılayıram" adlanır.**




Murad Qoçuoğlu ötən əsrin 80-ci illərində ədəbiyyata gəlib. Şeirləri respublikamızda və onun hüdudlarından kənarda müxtəlif mətbu orqanlarda işıq üzü görüb., Türkiyədə nəşr olunan "Avrasiya şairlərinin antologiyası"na daxil edilib.

Şeirləri maraq kəsb edən Murad Qoçuoğlu fəlsəfi düşüncəyə meyilli şairdir. Müəllifin təbiət, dünya, insan, sevgi və digər mövzulardakı şeirləri daha çox bu axarda yazılıb, hər biri fərqli psixoloji auraya, mental iqlimə, ab-havaya malikdir. Şairin bədii dünyası onun ruhunun dərinliklərindən boy göstərir və üç əsas obrazı var – Allah, dünya və insan!

Yeni kitaba "Ön söz"ü tanınmış tənqidçi Əsəd Cahangir yazıb.

*Ə.ƏLİYEV*
*XQ*

# “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin

## Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

“Əlicançay su anbarının tikintisi”nin satın alınması ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

Satınalan təşkilatın adı: Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

**VÖEN- 1300300711,**

**Kod- 805562**

**H/h- AZ 10 IBAZ 38070019449716100216,**

**Bank-“Azərbaycan Beynəlxalq Bankı”nın Yasamal filialı**

**M/h- AZ03NABZ01350100000000002944,**

**VÖEN -9900001881,**

**SWIFT : IBAZAZ2X (AZIPS-in üzvü)**

**Əlaqələndirici şəxs- Qulam Şamil oğlu Aslanov (A.A.S)**

**Satınalan təşkiların ünvanı- Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a.**

**Əlaqələndirici şəxsin E-maili: tomiobm@mst.gov.az**

**Əlaqə nömrəsi- (012) 431 08 64.**

**Satınalma predmetinin adı- “Əlicançay su anbarının tikintisi”.**

**Ünvanı - Şəki və Oğuz rayonları.**

İşlərin qısa təsviri – Su anbarının ümumi su tutumu 108 milyon kubmetr, faydalı həcmi isə 100 milyon kubmetrdir. Əlicançay su anbarına yığılan su ilə Şəki və Qax rayonlarının ərazisində yaradılacaq Aqroparka məxsus ümumi sahəsi 40706 hektar, suvarma netto sahəsi 36635 hektar olan ərazidə mütərəqqi suvarma texnikası və texnologiyaları tətbiq edilməklə qoz, badam, fındıq və zeytun bağları suvarma suyu ilə təmin ediləcəkdir. Eyni zamanda Şəki rayonunun 12 yaşayış məntəqəsinin 32 min nəfərə yaxın əhalisinin içməli su ilə təmin edilməsi də nəzərdə tutulur.

İşlərin yerinə yetirilmə müddəti – 1080 təqvim günü və yaxud 36 aydır.

Tender təkliflərinin qiymətləndirməsi meyarları-tender təklifinin ödəniş şərti - 10 baldır. İddiaçı bağlanacaq satınalma müqaviləsinin yerinə yetirilməsi üçün avans ödənişi tələb etmədiyi halda bu meyar üzrə müəyyən olunmuş maksimal 10 bal alacaqdır.

İddiaçı tender təklifində 20 faizdən artıq avans ödənişi tələb edərsə,o zaman həmin iddiaçının tender təklifi kənarlaşdırılacaqdır. 20 faiz və daha az avans ödənişi tələb olunan tender təklifinin bu meyar üzrə alacağı bal aşağıdakı düstur əsasında hesablanacaq, (20–X)/20x10 X-tender təklifində iddiaçı tərəfindən tələb olunan avans ödənişinin müqavilə qiymətinə nisbətdə faizi. Qiymət təklifi – 90 baldır.

Satınalma müqaviləsinin icrasını təmin etmək üçün tender iştirakçıları lazımi kadr və maliyyə imkanları ilə yanaşı, aşağıdakı meyarlar üzrə ixtisas göstəricilərinə, təcrübəyə, səriştəyə və etibarlılığa malik olmalıdırlar.

• İddiaçının son 10 (on) ildə meliorasiya və su təsərrüfatının inkişafı məqsədilə aparılan işləri tərkibində müxtəlif növ hidrotexniki qurğuların tikintisi və təmir-bərpası üzrə orta illik dövriyyəsi 5 (beş) milyon manatdan az olmamalıdır.

• İddiaçı son 10 (on) il ərzində respublika ərazisində əsas podratçı kimi iri tutumlu su anbarları, hidroqovşaqlar və magistral kanallardan ən azı birinin və onlara bağlı minimum 10 m3/san suburaxma qabiliyyətinə malik müxtəlif növ hidrotexniki qurğuların (suqəbuledici, qəza sutullayıcı, tunel və düker) tikintisi və əsaslı təmir-bərpası təcrübəsinə malik olmalı və həmin işlərə dair minimum 2 obyekt üzrə işbitməni təsdiqləyən sənədləri təqdim etməlidir.

• Satınalma müqaviləsinin icrasına yönəltmək məqsədi ilə iddiaçının malik olduğu sərbəst maliyyə resurslarının və ya bankın zamin olduğu kreditin minimum məbləği 12,0 (on iki milyon manat) manatdan az olmamalıdır.

İştirak haqqı 15.000 (on beş min manat) manatdır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

1. Tender təklifi təkliflərin açıldığı gündən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır. Tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

2. Tender təklifi qiymətinin 1 faizi məbləğində tender təklifinin təminatı

(bank zəmanəti, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır (bank tərəfindən təqdim edilməlidir).

3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış.

(vergi xidməti tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əslinin notarial qaydada təsdiq olunub təqdim edilməsi zəruridir).

4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.

(son maliyyə dövrünə olan məlumatı əks etdirməsi və sənədin əslinin notarial təsdiq olunaraq təqdim edilməsi zəruridir).

5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.

(bank tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əslinin notarial qaydada təsdiq olunub təqdim edilməsi zəruridir).

6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə (kommersiya və hüquqi şəxslərin dövlət qeydiyyatı reyestrindən çıxarış iddiaçı tərəfindən təqdim edilməli, nizamnamənin, dövlət reyestrindən çıxarışın və şəhadətnamənin notarial qaydada təsdiq olunmuşunun təqdim edilməsi zəruridir).

7. Rekvizitlər (iddiaçının və ya bankın imzası və möhürü ilə təsdiq edilərək təqdim edilməsi zəruridir).

8. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.

(DİN və ya Asan xidmət tərəfindən təqdim edilməli, sənədin əslinin və ya notarial təsdiq olunmuşunun təqdim edilməsi zəruridir).

Sənədin verilmə tarixi elan olunan aydan etibarən 2023-cü ilin oktyabrından olmalıdır.

9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.

(vergi xidməti tərəfindən təqdim edilməli, cari rübü əhatə etməli, sənədin əsli və ya notarial təsdiqlənmişinin təqdim edilməsi zəruridir).

10. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin və etibarlılığının olması.

(müsabiqə əsas şərtlər toplusunun BÖLMƏ №3 13.3.8 bəndinə və BÖLMƏ №7 Qoşma №7-yə əsasən iddiaçı tərəfindən təqdim edilməlidir).

11. İddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması.

(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilməli, sənədin əslinin və ya notarial təsdiqlənmişinin təqdim edilməsi zəruridir); sənədin qüvvədə olma müddəti “Tələb olunan sənədlərin son təqdim olunma tarixini əhatə etməlidir”.

12. İddiaçının müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması. (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilməli sənədin əslinin və ya notarial təsdiqlənmişinin təqdim edilməsi zəruridir.

13. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması.

(imza səlahiyyəti olan şəxsin (əgər təsisçi direktor deyilsə) əmri, sənədin əsli və ya notarial təsdiqlənmişinin təqdim edilməsi zəruridir);

İddiaçılar tenderdə iştirak üçün yuxarıda 3 və 13-cü sıralarda göstərilən sənədləri 6 noyabr 2023-cü il saat 17.00-a qədər qapalı zərfdə əsli və surəti olmaqla Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçılar tender təklifi və bank təminatını isə 16 noyabr 2023-cü il saat 17.00-a qədər (tender təkliflərinin açılışına 1 (bir) bank günü qalmış) qapalı zərfdə əsli və surəti olmaqla Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 17 noyabr 2023-cü il saat 15.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

MARAQ DÜNYAMIZ

# İtin də it sədaqəti var imiş...

## Ağdamı Hirosima ilə müqayisə ediriksə, Baffini nə üçün Haçikoya bənzətməyək?

**Ernest Heminqueyin qəhrəmanlarından biri deyirdi ki, müharibənin dəhşətləri təkcə insanları zərərdidə eləmir, planetimizin flora və faunası da tarix boyu çoxsaylı hərbi qarşıdurmaların fəsadları ilə üz-üzə qalmışdır. Mən həmin sətirləri oxuyanda Hirosimanı, Naqasakini, Amerika qitəsində törədilmiş yanğınları düşündüm. Üstəlik, bizimkilərin Kəlbəcərdən qovulduğu günlərdə qoca anasını, həyat yoldaşını və körpə uşaqlarını erməni vəhşiliyindən qoruya bilən soydaşımız sonralar elə hey ağlayırdı ki, günah qazandım, həyətin o başındakı itimizi zəncirdən açmağa macal tapa bilmədim: “İt açıq olsaydı, ermənilər onu öldürə bilməzdilər”.**



Bu günlərdə məlum oldu ki, erməni vəhşiliyi bizim başqa bir ev heyvanımıza da sitəm edib. Bu dəfə paytaxtdakı bir it zərərdidə olub. Kütləvi informasiya vasitələri xəbər verirlər ki, Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı şəhid olan Ramil Rzayevin Baffi adlı itinin onun məzarı üzərində yatması görənlərin heyrətinə səbəb olur.

İndi kimsə deyə bilər ki, ermənilər son otuz ildə bizim on minlərlə insanımızı şəhid və ya itkin edib, yüz minlərlə soydaşımızı qaçqın və məcburi köçkün kimi yurd-yuvasından didərgin salıb və iqtisadçıların hesablamalarına görə 100 milyardlarla dollar maddi ziyan vurublarsa, bir itin depressiyasının qabardılmasına nə ehtiyac var?

Bəli, buna ehtiyac var. Əvvəla, bizim son iki əsr boyu öz torpaqlarımızda sığınacaq verdiyimiz, çörəyimizi yeyib, suyumuzu içib, havamızla yaşayan ermənilər nə zamansa torpaqlarımızın 20 faizini yandırdılarsa, çörəkitirənlik etdilərsə, Baffi cəmi iki-üç il dostluq etdiyi Ramilin ona verdiyi çörəyi unuda bilmir. Sonra da Avropa və Amerikadakı bəzi ağzıgöyçəklər bizə deyirlər ki, ermənilərin xətrinə dəyməyin.

Bundan başqa, Baffi Ramilin harasa getdiyini bilsə də, onun vəfat etdiyini bilmirdi. İnsanların söhbətini də başa düşmürdü. Amma, durmadan ulayırdı. O, dostunun faciəsini necə anlamışdı? Düşündürücü sualdır. Mətbuat yazır ki, şəhidin qohumu Sabina Rzayeva itin Ramil Rzayevin məzarına necə gəlməsindən danışıb: “Baffini mən saxlayır və yemləyirdim. Ramil yuxuma girdi, dedi ki, iti gətir, mən onunla sağollaşmalıyam. Amma mənə dedilər ki, olmaz. Ramilin anası Lena xanıma dedim ki, bunu etməliyəm. Çünki it ulayırdı. Hələ 10 ay əvvəl Baffi Ramilin köynəyini götürüb öz yuvasına qoyubmuş”.

Hər halda bilmədiyimiz məqamlar, səbəbini anlamadığımız faktlar çoxdur. Amma o da faktdır ki, həyat bizə hər gün nələrisə öyrədir. Son zamanlar öyrəndik ki, ermənilərdə bir itin sədaqəti qədər etibar yoxdur. Ona görə də Baffi insanların itlərə verdiyi ən yüksək mükafatlara layiqdir.

Söhbət itə verilən mükafatdan düşmüşkən xatırladaq ki, cəsədi 1935-ci ildən bəri Yaponiyanın milli elm muzeyində saxlanılan və xatirəsinə Aoyama məzarlığında abidə ucaldılan bir it də var.

Bu barədə söz açan mənbələr yazırlar ki, Tokio Universitetinin professoru Hidesaburo Ueno 1924-cü ildə Haçiko adlı bir itə baxmağa başlayıb. Akita cinsindən olan bu itlə sahibi arasında yaxın münasibət yaranır. Haçiko hər gün işə gedən sahibinə yaxınlıqdakı Şibuya qatar stansiyasına qədər yoldaşlıq edir. Bir gün də Ueno qatardan düşəndə Haçikonu orda görür. Demə, ağıllı it sahibinin gələcəyi vaxtı hesablamış və orda onun gəlişini gözləyirmiş. O gündən onlar evə bir qayıdırlarmış.

Günlərin bir günü, Haçiko yenə həmin yerdə sahibini gözləyir, ancaq Ueno gəlib çıxmır. Həmin gün professor universitetdə beyin qanaması keçirərək vəfat edir. İt tam 9 il yorulmadan sahibinin gəlişini eyni yerdə gözləyir. İlk günlər stansiya işçiləri ona yaxşı yanaşmırdılar. Ancaq mərhum professorun Haçiko haqqında vaxtilə yazdığı məqaləsinin ictimailəşdirilməsindən sonra it artıq məşhurlaşmışdı. Sonradan hər gün itə yemək gətirməyə başladılar. 1934-cü ilin aprel ayında Şibuya stansiyasının girişində itin heykəli qoyuldu. 8 may 1935-ci ildə isə Haçiko öldü. Cəsədi Yaponiya milli elm muzeyində saxlanır və xatirəsinə Aoyama məzarlığında abidə ucaldılıb.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu

*“Tikinti normalarının ekspertizası və innovasiyalar” şöbəsinə aşağıdakı vəzifələr üzrə vakansiyalar*

## ELAN EDİR

**Baş mütəxəssis – 2 nəfər.**
**Mütəxəssis – 1 nəfər.**

***Baş mütəxəssis vəzifəsinə iddialı namizədə dair tələblər:***

| | |
|---|---|
| Təhsil: | Şəhərsalma (və ya inşaat) istiqaməti və ya ixtisası üzrə PhD diplomuna malik olmalıdır; |
| İş təcrübəsi: | Şəhərsalma (və ya inşaat) sahəsində 10 ildən, həmçinin uyğun təşkilatlarda layihələndirmə üzrə 3 ildən az olmayan təcrübəyə malik olmalıdır; |
| Dillər: | Azərbaycan, ingilis və rus dilləri bilikləri (sərbəst olmaqla minimum 2 dil); |
| Kompüter bilikləri: | “Microsoft” Office və müxtəlif layihələndirmə kompüter proqramlarından istifadə arzuolunandır; |
| Sertifikat: | Şəhərsalma (və ya inşaat) sahəsində müstəqil kvalifikasiya qiymətləndirilməsindən sertifikata malik olması arzuolunandır. |

***Mütəxəssis vəzifəsinə iddialı namizədə dair tələblər:***

| | |
|---|---|
| Təhsil: | Şəhərsalma (və ya inşaat) istiqaməti və ya ixtisası üzrə respublikada və ya xaricdə magistratura təhsili səviyyəsini bitirməsi; |
| İş təcrübəsi: | Şəhərsalma (və ya inşaat) sahəsində təcrübəyə malik olması və ya elmi-tədqiqat, layihə institut və təşkilatlarında təcrübə keçməsi arzuolunandır; |
| Dillər: | Azərbaycan, ingilis və rus dilləri bilikləri ( sərbəst olmaqla minimum 2 dil); |
| Kompüter bilikləri: | “Microsoft” Office və müxtəlif layihələndirmə kompüter proqramlarından istifadə; |
| Sertifikat: | Şəhərsalma (və ya inşaat) sahəsində yerli və xarici elmi-praktik konfranslarda və “startap” layihələrində, müxtəlif vebinarlarda iştirak, eləcə də kompüter layihələndirmə proqramlarına dair sertifikatlara malik olması arzuolunandır. |

**Əlavə məlumatı Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutuna müraciət etməklə əldə etmək olar.**
**Əlaqə telefonları – 012 596 37 60 (dax. 248,252) +994 50 681 78 72.**
**E-mail – nazim.cafarov@arxkom.gov.az**
**İnstitutun ünvanı – Bakı şəhəri, Füzuli küçəsi 65.**

***MÜDİRİYYƏT***

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ

aşağıdakı fakültə və kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün

## MÜSABİQƏ ELAN EDİR

**Dekan vəzifəsini tutmaq üçün**

| Fakültələr | Vəzifələr | Yerlər |
|---|---|---|
| İqtisadiyyat və idarəetmə fakültəsi | Dekan | 1 |

**Kafedra müdiri vəzifəsini tutmaq üçün:**

| Kafedralar | Vəzifələr | Yerlər |
|---|---|---|
| Kompüter və informasiya texnologiyaları kafedrası | Kafedra müdiri | 1 |
| Ümumi fənlər kafedrası | Kafedra müdiri | 1 |

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyi kollegiyasının 15 noyabr 2017-ci il tarixli, 5/5 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları”na uyğun elan olunduğu gündən başlayaraq 1 ay müddətində qəbul edilir.

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:

**Əlavə məlumat üçün:**

**Tel- +994(012) 349-99-66/67+Daxili nömrə: (1113, 1115, 1117, 1155, 1504)**

**Fax- (+99412) 349-99-90/91**

**e-mail: info@beu.edu.az web sayt: www/beu.edu.az**

**Ünvan- AZ0101. Azərbaycan Respublikası, Abşeron rayonu, Xırdalan şəhəri, H.Əliyev prospekti 120.**

**REKTORLUQ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 212 (30328) 30 sentyabr 2023-cü il, şənbə

# "Google" da Qarabağı özünə qaytardı

**İnternet şəbəkəsinin nəhənglərindən "Google" dünəndən etibarən özünün Azərbaycanla bağlı xəritəsinə dəyişiklik edib. Artıq Qarabağ iqtisadi rayonunda erməni coğrafi adları olmayacaq.**




Bundan əvvəl "Google xəritədə eyni yer adlarını həm erməni (Stepanakert, Martuni, Mardakert və s.), həm də Azərbaycan (Xankəndi, Xocavənd, Ağdərə və s.) dilində verirdi. Artıq sonuncu yenilənmədən sonra izləyicilərə toponimlərin, istisnasız olaraq, Azərbaycan versiyası təqdim edilir.

Qeyd edək ki, sözügedən dəyişiklik Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun şəkildə həyata keçirilib. Çünki 2023-cü il sentyabrın 28-də Qarabağdakı separatçı inzibati vahid özünü buraxdığını elan etmişdir.

*Sevda*
**XQ**

## İdman xəbərləri

# Millimizin oyun təqvimi

**Azərbaycanın 17 yaşadək qızlardan ibarət komandasının Avropa çempionatının seçmə mərhələsində keçirəcəyi oyunların təqvimi müəyyənləşib.**

UEFA Millətlər Liqası formatında oktyabrın 2-dən 8-dək Xorvatiyada keçiriləcək yarışda yığmamız yerli komanda ilə yanaşı, Lüksemburq və Malta futbolçuları ilə mübarizə aparacaq.

Belə ki, oktyabrın 2-də Azərbaycan Lüksemburq, 5-də Xorvatiya, 8-də isə Malta ilə üz-üzə gələcək.

# Məşqçilər üçün seminar

**AFFA-nın inzibati binasında qadın məşqçilər üçün UEFA-nın A kateqoriyalı məşqçi kursunun V modulu keçirilib.**



Bir gün ərzində təşkil olunan seminarda 3 mövzu ətrafında məlumat verilib. Qapıçılar üzrə məşqçilər – Faiq Əzizov, Amil Ağacanov və Elşad Poladov, tibb üzrə AFFA-nın baş həkimi Vyaçeslav Xomenko və oyun qaydaları üzrə sabiq FİFA referi köməkçisi Orxan Məmmədov kurs iştirakçılarına seminar keçiblər.

# Taekvondoçularımız Cənubi Koreyada



**Qadın taekvondoçulardan ibarət Azərbaycan milli komandası Cənubi Koreyada təlim-məşq toplanışındadır.**

Yonqin Şəhər Universitetində hazırlıq keçən komandaya baş məşqçi Sun Mi Park və Sənan Həşimov rəhbərlik edirlər. Məşqlərə Minaya Əkbərova, Səmmərux Osmanova, Səidə Əliyeva və Fatimə Məcidova cəlb olunublar.

Toplanışda Azərbaycan yığması ilə yanaşı, Kanada, Seul, Jeju və digər yerli bölgələrdən tələbə taekvondoçular da iştirak edirlər.

Komanda məskunlaşdığı Çunçeon şəhərinin akademiyasında da hazırlıq keçir. Oktyabrın 9-dək davam edəcək toplanışın növbəti günlərində sınaq döyüşlərinin keçirilməsi planlaşdırılır.

*Leyla SABİRQIZI*
**XQ**

## Replika

# Səhv düşəndə yerləri: səki, yoxsa yol?

**Bakıda piyada olmaq üçün ya gərək gimnast olasan, ya da akrobat. Çünki bəzi küçələrdəki səkilərdən keçmək üçün xüsusi bacarıq lazımdır. Paytaxtımızda maşınlarını səkilərə qaldıran sürücülər yetərincədir.**



Dünən "Sahil" metrostansiyasının qarşısında tanış mənzərə ilə qarşılaşdım. Buradakı piyada keçid məntəqəsindən çıxanda gördüm ki, maşınlar yenə piyada səkilərini zəbt ediblər.

Məcbur qalıb maşınların hərəkəti üçün nəzərdə tutulmuş yolla getdim. Bilirsinizmi bu hərəkətin hansı fəsadlara yol açdı? Mən həm özümü təhlükəyə atmışdım, həm də maşınların rahat hərəkət etməsinə maneələr törədirdim.

Bəzi sürücülər ucadan siqnal verib məndən yoldan tez çəkilməyimi tələb etdilər. Yaşlı bir adam isə "belə yollarda neçə-neçə piyadanı maşın vurub, ehtiyatlı ol qızım!" – dedi.

Bir az irəlilədikdən sonra "insaflı" sürücülərin də olduğunu gördüm. Onlar piyadalar üçün, təxminən, beş-on santimetrlik yer saxlamışdılar. Güclə də olsa, oradan keçib mənzil başına yetdim.

Arzu edirəm ki, bu yazının azca da olsa, bir faydası olsun. Bəlkə, bundan sonra səkilərdə maşın saxlayanlar öz səhvlərini anlayarlar.

Amma çətin...

*Leyla HADİ,*
*tələbə-jurnalist,*
*Elşən AĞALAR,*
*(foto)*
**XQ**

## Texnologiya yenilikləri

# Yeni smart qolbaq

**"Google" şirkəti tərəfindən hazırlanan yeni "Fitbit Charge 6" qolbaq 1.04 düym AMOLED ekranla təchiz olunub. Cihaz elektrokardioqram çəki reallaşdıra və qandakı oksigeni ölçə bilir. Üstəlik, smart qolbaq 40 idman rejimini dəstəkləyir.**



"Google" sözügedən smart qolbağa "Google maps", "Google wallet" və hətta "Youtube music" dəstəyini əlavə edib. Ancaq "Youtube music" dəstəyinin əlavə olunması dedikdə smartfonda işə salınmış musiqinin qolbaq vasitəsilə idarəsi nəzərdə tutulur.

"Fitbit Charge 6" bir dəfə şarj olunandan sonra 7 gün çalışa bilir.

"Google" artıq bu smart qolbaq üçün ön sifarişlərin qəbuluna start verib. Satışlar payız fəslində başlayacaq.

**XQ**

# Elektron poçt oğurluğu



**Çinli hakerlər ABŞ Dövlət Departamentindən 60 min elektron məktub oğurlayıblar. Məlum olub ki, Xarici İşlər Nazirliyi və digər dövlət qurumları da daxil olmaqla ümumilikdə 25 təşkilat hədəf alınıb.**

Oğurlanan məlumatların səyahət cədvəlləri, diplomatik danışıqlar olduğu və 10 sosial müdafiə nömrəsinin də ələ keçirildiyi bildirilib. Poçt hesablarının əksəriyyəti "Hind-Sakit Okean diplomatik əlaqələri" üzərində işləyən insanlara məxsus olub.

ABŞ Dövlət Departamenti yüz minlərlə sənədin qanun pozuntusunda istifadə ediləcəyindən narahatdır.

*ƏFSANƏ*
**XQ**

# ALLAH RƏHMƏT ELƏSİN

Dövlət İmtahan Mərkəzinin rəhbərliyi və kollektivi Milli Məclisin Mədəniyyət Komitəsinin sədri

**QƏNİRƏ PAŞAYEVANIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

"Azərsu" ASC-nin kollektivi səhmdar cəmiyyətin aparatında şöbə rəisinin müavini İsa Qurbanova qardaşı

**FİRUDİN QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov Milli Məclisin Mədəniyyət komitəsinin sədri

**QƏNİRƏ PAŞAYEVANIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov və rayon ictimaiyyəti Tehran Nağıyevaya qızı, tanınmış ictimai xadim və jurnalist, Milli Məclisin Mədəniyyət komitəsinin sədri

**QƏNİRƏ PAŞAYEVANIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gürcüstan Parlamentinin keçmiş deputatları Mahir Dərziyev, Azər Süleymanov, İsaq Novruzov, Ramiz Bəkirov və Məmməd Məmmədov tanınmış ictimai xadim və jurnalist, Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsinin sədri, Gürcüstanın fəxri vətəndaşı

**QƏNİRƏ PAŞAYEVANIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev və universitetin kollektivi Milli Məclisin deputatı

**QƏNİRƏ PAŞAYEVANIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

## Maqazin

# Ana olmaq həyatı gözəlləşdirir

**Dünyaca məşhur aktrisa Ancelina Coli keçmiş əri Bred Pittlə münasibətindən danışıb. Sənətçinin sözlərinə görə, ana olması onu "xilas edib".**



2002-ci ildə oğlu Maddoksu övladlığa götürən aktrisa deyib ki, 26 yaşında ana olub: "Bütün həyatım dəyişdi. Uşaq sahibi olmaq həyatımı xilas etdi və dünyaya başqa gözlə baxmağa vadar etdi". Aktrisa sonra deyib ki, övladlarım olmasaydı, həyatım daha qaranlıq bir yola girə bilərdi.

Son 7 ildə daha az filmə çəkildiyini xatırladan Coli hazırda həyatında pozitiv dəyişmə prosesini yaşadığını da vurğulayıb.

*AYTƏN*
**XQ**

## Kosmos



# 1 il+1 həftə kosmosda...

**NASA astronavtı Frank Rubio və iki rusiyalı kosmonavtın Beynəlxalq Kosmik Stansiyada (ISS) missiyası başa çatıb. Kosmik agentlik onların uğurla Yerə qayıtdıqlarını elan ediblər.**

Frenk Rubio 371 gün kosmosda qalaraq amerikalı astronavtlar arasında rekordu təzələyib. O, kosmosda olduğu müddətdə Yer ətrafında 5 min 936 dəfə dövr edib.

*F. SALMAN*
**XQ**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5028
SİFARİŞ 2498
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI

Çapa imzalanmışdır
00:00